# Xalq qəzeti

Xalqın qəzeti!

№ 154 (30558) 24 iyul 2024-cü il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır | Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti | xalqqazeti.az


# Azərbaycan–Birləşmiş Ərəb Əmirlikləri: COP28-dən COP29-a “yaşıl” körpü





**“Yaşıl enerji”yə keçid kimi xarakterizə olunan qlobal enerji siyasəti xüsusi aktuallığı ilə diqqət çəkir. Artıq dünyanın əksər qabaqcıl ölkələrində mədən yanacağından tədricən “yaşıl enerji”yə keçid edilir.**

Bu məqsədlə ən müasir texnologiyaların tətbiqi ilə mövcud potensial hərəkətə gətirilir, alternativ və bərpaolunan enerji istehsalına mühüm önəm verilir. Bərpaolunan enerji texnologiyalarının tətbiqi ilə “yaşıl enerji”yə keçid isə öz növbəsində dünya ölkələrinin qarşıya qoyduqları iqlim hədəflərinə çatmağı sürətləndirir.

Elə Dünya İqtisadi Forumunun son hesabatlarında da planetimizin bu sahədəki potensialı yüksək qiymətləndirilir, günəş və külək enerjisi istehsalının həcminin karbohidrogen əsaslı elektrik enerjisi istehsalı ilə müqayisədə ilbəil artdığı vurğulanır. Xatırladaq ki, dünyada ekoloji cəhətdən təmiz “yaşıl enerji”yə keçidi sürətləndirən amillər sırasında texnologiyanın inkişafı və qiymətin ucuzlaşması mühüm yer tutur. Digər tərəfdən, son illər “yaşıl enerji” istehsalına qoyulan özəl sərmayələrdə də artım müşahidə olunur. Bu baxımdan Beynəlxalq Enerji Agentliyinin son açıqlamalarında bərpaolunan enerji mənbələri üzrə investisiyaların ilbəil artdığı qeyd edilir.

(ardı 8-ci səhifədə)

# Ermənistan üçün “geosiyasi qazan”




**“Avropa İttifaqına və Avropa İttifaqına üzv dövlətlərə Avropa sülh aləti çərçivəsində Ermənistana yardım göstərmək qərarına görə minnətdarlığımı bildirirəm”. Bu fikirlər Ermənistanın müdafiə naziri Suren Papikyana məxsusdur. O, özünün “X” sosial şəbəkəsindəki hesabında, eyni zamanda, yazıb ki, Aİ ilə qarşılıqlı etimada və ümumi maraqlara əsaslanan əməkdaşlığın nəticəsi ölkəsinin müdafiə qabiliyyətinin gücləndirilməsinə yönəlib. Nazir hazırkı yardımın gələcəkdə quruma üzv olan tərəfdaş dövlətlərlə ikitərəfli və çoxtərəfli formatda əməkdaşlığa yeni təkan verəcəyinə əminliyini də ifadə edib.**

Bəli, S.Papikyanın sevinci boş yerə deyil. Məsələ ondadır ki, Aİ ilə yanaşı, ABŞ da Ermənistanın müdafiə qabiliyyətinin möhkəmləndirilməsi oyununda iştirak edir. Məlum olduğu kimi, Birləşmiş Ştatların Dövlət Departamentinin mülki müşaviri yaxın aylarda erməni hərbi birləşmələrində konsultativ dəstəyə başlamaq niyyətindədir. Qlobal Müdafiə İslahatları Proqramı üzrə Ermənistana göndəriləcək müşavir Ermənistanın müdafiə institutlarını gücləndirməyə yardım göstərəcəkmiş. ABŞ-ın Ermənistandakı səfirliyi məsələni belə izah edib: “Birləşmiş Ştatların Dövlət Departamentinin Qlobal Müdafiə İslahatları Proqramı strateji səviyyəli məsləhət dəstəyi ilə dünya üzrə tərəfdaş ölkələrə daha möhkəm, effektiv və hesabatlı təhlükəsizlik institutları qurmağa kömək göstərir”.

Bundan başqa, birgə erməni-amerikan təlimləri çərçivəsində mindən çox ABŞ hərbçisinin Ermənistana gəldiyi bildirilir. Hazırda məsələ ilə bağlı müxtəlif versiyalar var. Onlardan biri budur ki, Amerika hərbçiləri erməni həmkarlarına kütləvi iğtişaşlar kontekstində fəaliyyət metodlarını öyrədirlər. Yəni, bir növ, polisin görməli olduğu iş barədə təlimat verirlər. Vurğulanır ki, Ermənistan polisinin iyunun 12-dəki iğtişaşlar zamanı etdiyi hərəkətlər bu strukturun sabitsizliyi reallığını ortaya qoydu. Çünki qeyri-mütənasib güc tətbiqinə baxmayaraq, etirazçılar sıradan çıxarılmadı. Nümayişlərin vüsət alacağı təqdirdə vəziyyətin nəzarətdən çıxma ehtimalı böyükdür. Bütün bunlar isə ABŞ-da narahatlıq yaradır və Ağ ev baş nazir Nikol Paşinyanın hakimiyyətə gəlməsi ilə nəticələnmiş 2018-ci il inqilabının nəticələrini qorumağa çalışır.

(ardı 3-cü səhifədə)

## Kiçik ölkələrin problemləri böyük gücləri maraqlandırmır

Səhifə ⇨ 7




Səhifə ⇨ 4

## Demokratların əksəriyyəti Kamala Harrisi dəstəkləyir



Səhifə ⇨ 11

## Milli teatr yeniləşmə yolunda



Səhifə ⇨ 10

# Sülh Fondunun barıt qoxulu qərarı



**İki gün bundan əvvəl Avropa İttifaqına üzv ölkələrin xarici işlər nazirləri Ermənistana 10 milyon avro dəyərində çadırlar şəklində hərbi yardım göstərmək qərarına gəliblər. Bu satınalmaların maliyyələşdirilməsi Avropa Sülh Fondu vasitəsilə həyata keçiriləcək. Bu barədə Aİ Şurası bəyanat yayıb.**

Bəyanatda deyilir: “Aİ Şurası Ermənistana Avropa Sülh Fondu (ASF) çərçivəsində 10 milyon avro məbləğində dəstək tədbirlərini təsdiqləyib. Konkret olaraq bu tədbirə batalyon səviyyəli bölmə üçün çadır düşərgəsinin salınması daxildir”.

ASF-nun bu qərarı kollektiv Qərbin ən müxtəlif yollarla Ermənistanı silahlandırmaq cəhdlərindən biri kimi dəyərləndirilməlidir. Bakı ilə İrəvan arasında sülhün əldə olunması yönündə birbaşa təmasların intensivləşdiyi, bu zəmində müsbət nəticələrin əldə olunduğu bir məqamda Aİ-nin bu “jesti” nəyə hesablanıb? Axı, şübhə yoxdur ki, İrəvan bu yardımdan hərbi məqsədlər üçün istifadə edəcək. Güman ki, Borrell “əməkdaşlığın daha da inkişafına ümid etdiyini” deyəndə İrəvandakı separatçı-revanşist qüvvələri şirnikləndirmək məqsədini güdüb.

(ardı 3-cü səhifədə)

## Gənc pəhləvanın arzusu – Olimpiadada qızıl medal






Səhifə ⇨ 12

# Misir Ərəb Respublikasının Prezidenti Zati-aliləri cənab Əbdülfəttah əs-Sisiyə

**Hörmətli cənab Prezident!**

Misir Ərəb Respublikasının milli bayramı – İnqilab Günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edir, ən xoş arzularımı çatdırıram.

Biz Misir ilə ənənəvi dostluq və əməkdaşlıq münasibətlərimizə böyük əhəmiyyət veririk. Hazırda ölkələrimiz arasında əlaqələrin dərinləşməsi, müxtəlif sahələrdə əməkdaşlığın genişlənməsi və yeni məzmunla zənginləşməsi üçün yaxşı imkanlar yaranmışdır. Siyasi dialoqumuzun müntəzəm xarakter daşıması birgə fəaliyyətimizin inkişafına öz müsbət təsirini göstərir. Bu baxımdan iyun ayının əvvəlində Misirə həyata keçirdiyim səfər çərçivəsində əldə olunmuş razılaşmaların və imzalanmış sənədlərin əhəmiyyətini xüsusi vurğulamaq istərdim.

Əminəm ki, dövlətlərarası münasibətlərimizi möhkəmləndirmək, həm ikitərəfli, həm də çoxtərəfli müstəvidə qarşılıqlı maraq doğuran əməkdaşlığımızın potensialından tam bəhrələnmək üçün bundan sonra da birgə səylər göstərəcəyik.

Bu bayram günündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə müvəffəqiyyətlər, dost Misir xalqına daim əmin-amanlıq və firavanlıq arzulayıram.

**Hörmətlə,**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 20 iyul 2024-cü il**

# Vyetnam Sosialist Respublikasının Prezidenti Zati-aliləri cənab To Lama

**Hörmətli cənab Prezident!**

Vyetnam Kommunist Partiyasının Mərkəzi Komitəsinin Baş katibi, görkəmli dövlət xadimi Nquyen Fu Çonqun vəfatı xəbəri bizi olduqca kədərləndirdi.

Nquyen Fu Çonqun Azərbaycan ilə Vyetnam arasında dostluq və əməkdaşlıq əlaqələrinin xoş ənənələrinin möhkəmlənməsində böyük xidmətləri olmuşdur. Biz dövlətlərarası münasibətlərimizin inkişafına Nquyen Fu Çonqun verdiyi töhfəni yüksək qiymətləndiririk.

Bu ağır itki ilə əlaqədar Sizə, mərhumun ailəsinə və yaxınlarına, bütün Vyetnam xalqına öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verirəm.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 23 iyul 2024-cü il**

# M.M.Abbaszadənin Azərbaycan Respublikası Dövlət İmtahan Mərkəzinin İdarə Heyətinin sədri təyin edilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Məleykə Mehdi qızı Abbaszadə Azərbaycan Respublikası Dövlət İmtahan Mərkəzinin İdarə Heyətinin sədri təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 23 iyul 2024-cü il**

# Azərbaycan Respublikası Dövlət İmtahan Mərkəzinin Müşahidə Şurasının tərkibinin təsdiq edilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Dövlət İmtahan Mərkəzinin Müşahidə Şurasının aşağıdakı tərkibi təsdiq edilsin:

### Müşahidə Şurasının sədri

Fərəh Əliyeva – Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri

### Müşahidə Şurasının üzvləri:

Elnur Əliyev – Azərbaycan Respublikası iqtisadiyyat nazirinin birinci müavini

İdris İsayev – Azərbaycan Respublikası elm və təhsil nazirinin müavini

Azər Bayramov – Azərbaycan Respublikası maliyyə nazirinin müavini

Anar Kərimov – Azərbaycan Respublikası əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 23 iyul 2024-cü il**

# Ulu öndər Yevlaxda anıldı

**Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin birinci dəfə hakimiyyətə gəlişinin 55 illiyi münasibətilə və ölkəmizdə 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində Hərbi Prokurorluğun rəhbər vəzifəli şəxsləri və Müdafiə Nazirliyinin yüksəkrütbəli hərbi qulluqçuları birgə tədbir keçiriblər.**



Yevlaxda yerləşən hərbi hissələrdən birində təşkil edilən tədbirdə general-mayor Bilal Çompuzov, Hərbi Prokurorluğun mətbuat xidmətinin rəhbəri Firad Əliyev, ədliyyə müşaviri İsmayıl Əliyev, Tərtər hərbi prokuroru Emin Vəliyev və başqaları çıxış edərək Ulu öndərin xalqımız və dövlətimiz qarşısındakı müstəsna xidmətlərindən bəhs ediblər.

Daha sonra ətraf mühitin mühafizəsi haqqında qanunvericiliyin tələblərindən, hüquq və vəzifələrdən, həmçinin ekoloji qanun pozuntularından, ekoloji cinayətlərdən və məsuliyyətdən danışılıb.

Sonda birgə ağaclar əkilib.

***XQ***

# Qazaxıstan və Azərbaycan hərbi kəşfiyyat sahəsində əməkdaşlıq edəcəklər

**Qazaxıstanın "Açıq hüquqi şəxslər" portalında bu ölkənin və Azərbaycanın hökumətləri arasında müdafiə sahəsində hərbi kəşfiyyat üzrə əməkdaşlıq haqqında Sazişi təsdiq edən qərar layihəsi dərc edilib.**

Layihəyə əsasən, tərəflər aşağıdakı əməkdaşlıq formaları barədə razılığa gəliblər:

1) səlahiyyətli orqan rəhbərlərinin rəsmi səfərləri və ekspertlərin işçi görüşləri; 2) müdafiə sahəsində aşağıdakı tematik istiqamətlər üzrə hərbi kəşfiyyat məlumatlarının qarşılıqlı mübadiləsi - terrorçu və ekstremist təşkilatlar, qarşılıqlı maraq doğuran hərbi-siyasi hadisələr;

3) dövlətlərin milli qanunvericiliyinə uyğun olaraq, səlahiyyətli orqanların şəxsi heyəti üçün ölkələrin ərazilərində birgə döyüş hazırlığı tədbirlərinin keçirilməsi; 4) əməkdaşlığın digər formaları.

Sənəddə bildirilir ki, məxfi məlumatların mübadiləsi, istifadəsi və mühafizəsi onların qarşılıqlı mühafizəsi haqqında ayrıca beynəlxalq müqavilə əsasında həyata keçirilir.

Tərəflər Saziş çərçivəsində əməkdaşlıq zamanı əldə etdikləri məlumatlardan bu məlumatı verən tərəfin zərərinə istifadə etmirlər.

Sənəddə deyilir: "İmzalanmış Saziş çərçivəsində ölkələrin mübadilə edəcəyi məlumat müvafiq məlumatı verən tərəfin yazılı razılığı olmadan açıqlana, verilə və ya üçüncü tərəfə ötürülə bilməz".

Sazişin qüvvədə olma müddəti 5 ildir.

# Azərbaycan Respublikası Dövlət İmtahan Mərkəzinin fəaliyyətinin təkmilləşdirilməsi və "Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi publik hüquqi şəxsin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 11 aprel tarixli 860 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

## *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikası Dövlət İmtahan Mərkəzinin fəaliyyətinin təkmilləşdirilməsi məqsədilə **qərara alıram:**

**1.** Müəyyən edilsin ki:

1.1. Azərbaycan Respublikası Dövlət İmtahan Mərkəzinin fəaliyyətinə ümumi rəhbərliyi və nəzarəti həyata keçirmək üçün sədr də daxil olmaqla 5 (beş) üzvdən ibarət Müşahidə Şurası yaradılır;

1.2. Azərbaycan Respublikası Dövlət İmtahan Mərkəzinin fəaliyyətinə cari rəhbərliyi 3 (üç) üzvdən ibarət İdarə Heyəti həyata keçirir.

**2.** "Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi publik hüquqi şəxsin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 11 aprel tarixli 860 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 4, maddə 665 (Cild I); Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 24 aprel tarixli 43 nömrəli, 30 may tarixli 77 nömrəli və 11 iyun tarixli 94 nömrəli fərmanları) aşağıdakı dəyişikliklər edilsin:

2.1. 3-cü hissə və 4.1-ci bənd aşağıdakı redaksiyada verilsin:

"3. Azərbaycan Respublikası Dövlət İmtahan Mərkəzinin təsisçisinin səlahiyyətlərinin həyata keçirilməsi aşağıdakılara həvalə edilsin:

3.1. Azərbaycan Respublikasının Prezidentinə:

3.1.1. nizamnamənin təsdiqi və nizamnamə fondunun miqdarının müəyyən edilməsi, onların dəyişdirilməsi;

3.1.2. idarəetmə orqanlarının yaradılması;

3.1.3. Müşahidə Şurası və İdarə Heyəti üzvlərinin (o cümlədən sədrlərinin) vəzifəyə təyin və vəzifədən azad edilməsi;

3.1.4. yenidən təşkili və ləğvi;

3.1.5. "Publik hüquqi şəxslər haqqında" Azərbaycan Respublikası Qanununun 3.3-cü maddəsində nəzərdə tutulmuş qərarın qəbul edilməsi;

3.2. Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzinə:

3.2.1. bu Fərmanın 3.1-ci bəndində qeyd edilənlər istisna olmaqla, "Publik hüquqi şəxslər haqqında" Azərbaycan Respublikası Qanununun 8.2-ci maddəsində publik hüquqi şəxsin təsisçisinin səlahiyyətlərinə aid edilmiş digər məsələlərin həlli.";

"4.1. Azərbaycan Respublikası Dövlət İmtahan Mərkəzinin fəaliyyətinə ümumi rəhbərliyi və nəzarəti sədr də daxil olmaqla 5 (beş) üzvdən ibarət Müşahidə Şurası həyata keçirir;";

2.2. aşağıdakı məzmunda 4.1-1-ci bənd əlavə edilsin:

"4.1-1. Azərbaycan Respublikası Dövlət İmtahan Mərkəzinin fəaliyyətinə cari rəhbərliyi 3 (üç) üzvdən ibarət İdarə Heyəti həyata keçirir;";

2.3. həmin Fərmanla təsdiq edilmiş "Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi publik hüquqi şəxsin Nizamnaməsi" aşağıdakı redaksiyada verilsin:

# Azərbaycan Respublikası Dövlət İmtahan Mərkəzi publik hüquqi şəxsin nizamnaməsi

**1. Ümumi müddəalar**

1.1. Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi (bundan sonra – Mərkəz) ümumi təhsil pilləsində təhsilalanların yekun attestasiyasını həyata keçirən, dövlət qulluğu üçün kadrların seçilməsi, təşkilati-hüquqi və mülkiyyət formasından asılı olmayaraq ali və orta ixtisas təhsili müəssisələrinə, bakalavriat səviyyəsində hazırlıq qruplarına tələbə qəbulunun həyata keçirilməsi məqsədilə, həmçinin normativ hüquqi aktlarda müəyyən edilən hallarda, habelə müqavilə əsasında dövlət orqanları (qurumları), hüquqi və fiziki şəxslər üçün imtahanlar təşkil edən publik hüquqi şəxsdir.

1.2. Mərkəz öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələri, Azərbaycan Respublikasının qanunlarını, bu Nizamnaməni, Azərbaycan Respublikası Prezidentinin digər fərmanlarını, həmçinin sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, digər normativ hüquqi aktları rəhbər tutur.

1.3. Mərkəz öz vəzifələrini yerinə yetirərkən və hüquqlarını həyata keçirərkən dövlət orqanları (qurumları) ilə, yerli özünüidarəetmə orqanları ilə, beynəlxalq və qeyri-hökumət təşkilatları ilə, digər hüquqi və fiziki şəxslərlə qarşılıqlı əlaqədə fəaliyyət göstərir.

1.4. Mərkəz ümumdövlət və ictimai əhəmiyyət daşıyan fəaliyyətlə məşğul olur. Mərkəz bu Nizamnamədə qarşıya qoyulmuş məqsədlərə nail olmaq üçün sahibkarlıq fəaliyyəti ilə məşğul ola bilər.

1.5. Mərkəzin müstəqil balansı, əmlakı, xəzinə və bank hesabları, öz adı və "Azərbaycan Respublikasının Dövlət Gerbindən istifadə qaydaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, həmçinin Azərbaycan Respublikası Dövlət Gerbinin təsviri həkk olunmuş möhürü, müvafiq ştampları və blankları vardır.

1.6. Qanuna uyğun olaraq, Mərkəzin əqdlər bağlamaq, öz adından əmlak və qeyri-əmlak hüquqları əldə etmək və həyata keçirmək hüququ, həmçinin vəzifələri vardır. Mərkəz məhkəmədə iddiaçı və ya cavabdeh qismində çıxış edə bilər.

1.7. Mərkəz Bakı şəhərində yerləşir.

**2. Mərkəzin fəaliyyət istiqamətləri**

2.1. Mərkəzin fəaliyyət istiqamətləri aşağıdakılardır:

2.1.1. dövlət qulluğu üçün kadrların seçilməsi üzrə imtahanlar təşkil etmək;

2.1.2. ümumi təhsil pilləsində təhsilalanların yekun attestasiyasını həyata keçirmək;

2.1.3. orta ixtisas təhsili müəssisələrinə, ali təhsil müəssisələrində ali təhsilin bakalavriat və magistratura (tibb təhsili üzrə əsas (baza ali) təhsil və rezidentura) səviyyələrinə, bakalavriat səviyyəsində hazırlıq qruplarına tələbə qəbulunu həyata keçirmək;

2.1.4. normativ hüquqi aktlarda müəyyən edilən hallarda, habelə müqavilə əsasında dövlət orqanları (qurumları), hüquqi və fiziki şəxslər üçün imtahanlar təşkil etmək;

2.1.5. fəaliyyət göstərdiyi sahələrin inkişafını təmin etmək;

2.1.6. bu Nizamnamə ilə müəyyən edilmiş digər istiqamətlərdə fəaliyyət göstərmək.

**3. Mərkəzin vəzifələri və hüquqları**

3.1. Bu Nizamnamə ilə müəyyən edilmiş fəaliyyət istiqamətlərinə uyğun olaraq Mərkəzin vəzifələri aşağıdakılardır:

3.1.1. normativ hüquqi aktların, inkişaf konsepsiyalarının və məqsədli proqramların hazırlanmasında və həyata keçirilməsində iştirak etmək;

3.1.2. Azərbaycan Respublikasının beynəlxalq müqavilələri ilə tənzimlənən və Mərkəzin səlahiyyətinə aid olan məsələlər üzrə Azərbaycan Respublikasının götürdüyü öhdəliklərin yerinə yetirilməsini təmin etmək;

3.1.3. inzibati xəta əlamətləri aşkar etdikdə, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə uyğun olaraq tədbirlər görmək, cinayət əlamətləri olduqda isə aidiyyəti üzrə məlumat vermək;

3.1.4. ümumi təhsil pilləsində təhsilalanların yekun attestasiyasını, orta ixtisas təhsili müəssisələrinə, ali təhsil müəssisələrində ali təhsilin bakalavriat və magistratura (əsas (baza ali) tibb təhsili və rezidentura) səviyyələrinə, bakalavriat səviyyəsində hazırlıq qruplarına mərkəzləşdirilmiş qaydada tələbə qəbulunu həyata keçirmək;

3.1.5. orta ixtisas təhsili müəssisələrinə, ali təhsil müəssisələrində ali təhsilin bakalavriat və magistratura (əsas (baza ali) tibb təhsili və rezidentura) səviyyələrinə ixtisaslar üzrə qəbul imtahanları keçirilən fənləri və keçid ballarını, bakalavriat səviyyəsində hazırlıq qruplarına keçid ballarını, o cümlədən ümumi təhsil müəssisələrində buraxılış imtahanları keçirilən fənləri Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi ilə razılaşdırmaqla müəyyən etmək;

3.1.6. "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, bakalavriat səviyyəsində hazırlıq qruplarında tədrisin sonunda buraxılış imtahanları keçirmək;

3.1.7. "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, peşəkar mühasib sertifikatının verilməsi məqsədilə imtahanlar keçirmək və imtahanlardan müvəffəqiyyətlə keçən şəxslərə sertifikat vermək;

3.1.8. "Sığorta fəaliyyəti haqqında" və "Aqrar sığorta haqqında" Azərbaycan Respublikasının qanunlarına uyğun olaraq, müstəqil ekspert sertifikatının verilməsi məqsədilə imtahanlar keçirmək və imtahanlardan müvəffəqiyyətlə keçən şəxslərə sertifikat vermək;

3.1.9. "Avtomobil nəqliyyatı haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, xüsusi hazırlığın və tədrisin nəticələrinə dair qiymətləndirməni həyata keçirmək və müvafiq sənəd vermək;

3.1.10. "Qiymətləndirmə fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, qiymətləndirmə fəaliyyəti ilə məşğul olmaq üçün ixtisas imtahanlarını keçirmək və imtahanlardan müvəffəqiyyətlə keçən şəxslərə ixtisas şəhadətnaməsi vermək;

**(ardı 6-cı səhifədə)**

# Moldova portalı Qlobal Media Forumundan yazdı

**Moldovanın "Noi.md" xəbər portalında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin iyulun 20-də "Yalan məlumatların ifşası: Dezinformasiyaya qarşı mübarizə" mövzusunda 2-ci Şuşa Qlobal Media Forumunun açılış mərasimində çıxışı zamanı səsləndirdiyi fikirlər dünyanın müxtəlif ölkələrindən jurnalistlərin, beynəlxalq ekspert və politoloqların suallarına ətraflı cavabları, panel iclaslar haqqında geniş məqalə dərc edilib.**


NOI +20°C $ 17.73 € 19.30

Ильхам Алиев разоблачил ложные нарративы на Втором Шушинском глобальном медиафоруме

22 июл. 12:27 В Мире 2250 0

**Власти Украины и Евросоюз обратились к Азербайджану за содействием в продлении контракта по поставкам российского газа через Украину.**

Об этом заявил президент Азербайджана Ильхам Алиев, выступая на Втором Шушинском глобальном медиафоруме на тему «Разоблачение ложных нарративов: борьба с

Yazıda dövlətimizin başçısının Ermənistanla münasibətlər, Azərbaycanın Avropanın enerji təchizatında rolu, qaz ixracının artırılması ilə bağlı fikirlərinə geniş yer ayrılıb.

Məqalədə qeyd olunur ki, Prezident İlham Əliyev Ukrayna və Avropa İttifaqının Azərbaycandan Rusiya ilə mövcud tranzit müqaviləsi başa çatdıqdan sonra təbii qazın tədarükünə dair yeni sazişin bağlanmasına kömək göstərməyi xahiş etdiyini vurğulayıb.

Yazıda, həmçinin qeyd olunur ki, Prezident İlham Əliyev Azərbaycan və Ermənistan arasında hazırda üzərində iş aparılan sülh sazişinin mətninin 80-90 faiz razılaşdırıldığını bəyan edib. Ermənistan qeyd-şərtlərini və qondarma "Dağlıq Qarabağ"la bağlı bütün terminologiyanı geri götürmək məcburiyyətində qalıb ki, bu da normallaşmaya yol açıb. Azərbaycan Prezidenti sülh prosesinin uğurla nəticələnməsi üçün Ermənistanın iki şərti - Minsk qrupunun ləğvi üçün Azərbaycanla birlikdə ATƏT-ə birgə müraciət etməsinin və Ermənistan konstitusiyasında dəyişiklik olunmasının vacibliyini diqqətə çatdırdığı vurğulanıb.

Materialda, eyni zamanda, oxucuların diqqətinə çatdırılıb ki, panel iclaslarda dezinformasiya mövzusunda bəzi mətləblərə aydınlıq gətirilib. Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevə istinadla yazılıb ki, dezinformasiya yeni hadisə deyil. İnformasiya çox güclü bir vasitədir, lakin onun necə istifadə olunduğu böyük sualdır. Ən təhlükəlisi odur ki, dezinformasiya Azərbaycan xalqına qarşı manipulyasiya və psixoloji müharibə vasitəsinə çevrilib. Dezinformasiya müəyyən qrupların məqsədlərinə çatmaq üçün vasitə ola və müharibələrə səbəb ola bilər, dezinformasiyanın əsas qurbanları isə media və jurnalistlərdir.

# Sülh Fondunun barıt qoxulu qərarı



## Avropa İttifaqı bölgədə “bölücü xətlər” cızmaqda davam edir

**(əvvəli 1-ci səhifədə)**

Azərbaycan Xarici İşlər Nazirliyinin Avropa Sülh Fondunun Ermənistana ayırdığı vəsaitlə bağlı yaydığı bəyanatda rəsmi Bakının mövqeyi aydın şəkildə ifadə olunub. Bununla bağlı XİN rəsmisi Ayxan Hacızadə mediaya verdiyi açıqlamasında vurğulayıb ki, Ermənistana ayrılan hərbi yardım bölgədə destruktiv



fəaliyyətə xidmət edəcək: “Avropa İttifaqı tərəfindən bu kimi fəaliyyətlər açıq şəkildə birtərəfli və qərəzli xarakter daşıyır, bölgədə “bölücü xətlər” yaratmaq siyasətinin təzahürüdür. Ermənistana sözügedən hərbi yardım və belə yardımın gələcəkdə artmasına çağırışlar Azərbaycan Respublikasının ərazilərinin bir hissəsini 30 ilə yaxın dövrdə işğal altında saxlayan, hazırda da ərazi bütövlüyümüzə qarşı iddialardan əl çəkməyən Ermənistanın hərbi potensialını gücləndirməsinə və bölgədə destruktiv fəaliyyətinə xidmət edəcək”.

Bəyanatda, həmçinin bildirilib ki, Avropa İttifaqı bölgədə silahlanmaya və hərbiləşmə siyasətinə töhfə verən bu kimi addımlara son qoymalı, bölgədə sülh və əməkdaşlığın alternativinin olmadığını anlamalıdır: “Əks təqdirdə, Ermənistanın sabitliyi pozan hər hansı mümkün təxribatına görə Avropa İttifaqı da məsuliyyəti bölüşəcək”.

Avropa İttifaqının Cənubi Qafqazda sülhə təhdidlər yaradan “barıt qoxulu” fəaliyyəti bu gün başlamayıb. Bu qurumun iki ilə yaxındır ki, Ermənistan–Azərbaycan şərti sərhədində kəşfiyyat xarakterli “durbin diplomatiyası” ilə məşğul olan “mülki missiyası” hələ də xidmətini davam etdirir. Alman hərbçiləri və fransız jandarmlarından ibarət missionerlərin Azərbaycan, Rusiya, İran və Türkiyə ilə sərhəd zolaqlarında apardıqları monitorinqləri barədə sahiblərinə hansı xarakterli hesabatları ötürdüyü hətta rəsmi İrəvanı da əndişələndirib. Onlar Avropadan və okeanın o tayından Ermənistana gələn yüksək çinli qonaqlara böyük həvəslə “moderatorluq” da edirlər. Yəni, Avropa İttifaqının bölgədə həyata keçirdiyi bölücülük fəaliyyəti heç kəsə sirr deyil. Bir müddət bundan əvvəl Ermənistana “Bastion” çoxməqsədli zirehli avtomobilləri, ardınca “Sezar” özüyeriyən artilleriya qurğuları göndərən Fransanın dominantlıq etdiyi Aİ, sanki, Parisdən verilən qərarların icraedicisi rolunda çıxış edir. Bakının istər ikitərəfli görüşlərdə, istərsə də beynəlxalq platformalarda bu iki ölkə – Fransa və Almaniya ilə məsafəli davranmasının əsas səbəblərindən biri məhz budur.

* * *

Oxuculara xatırladaq ki, üç il bundan əvvəl yaradılmış Avropa Sülh Fondunun məqsədi Aİ üzvü olmayan ölkələrə, yaxud beynəlxalq təşkilatlara həm maddi, həm də hərbi baxımdan yardım etməkdir. Fondun büdcəsi Aİ üzvlərinin ianələri hesabına formalaşır və 2023-cü il üçün təqribən 8 milyard avro təşkil edib.

Aİ məhz ASF vasitəsilə Ukrayna, Mozambik, Gürcüstan, Moldova, Bosniya və Herseqovina, Somali, Nigeriya və başqa ölkələrə yardımlar göndərib. Bu, fondun Ermənistan üçün nəzərdə tutduğu ilk hərbi maliyyə yardımıdır.

Azərbaycan torpaqlarının Ermənistan tərəfindən 28 illik işğalı dövründə ATƏT-in Minsk qrupu vasitəsilə bölgədə ikili standart yürüdən, ədalətsiz və qərəzli davranış sərgiləyən Aİ-nin bir yandan sülh üçün Brüsseli “aradüzəldən” salması, digər yandan isə Ermənistana hərbi yardım göstərməsi, bütövlükdə, Qərbin İrəvanı hərbi-siyasi cəhətdən gücləndirmək planlarından xəbər verir. Aİ bu cür aşkar tərəfkeşliyi ilə Cənubi Qafqazda sülhə töhfə verən kənar aktor rolunda heç cür çıxış edə bilməz. Əgər həmin ASF Azərbaycana da maliyyə yardımı göstərsəydi, bunu haradasa anlamaq mümkün olardı. Görünən odur ki, Aİ ABŞ və ya NATO-nun fəaliyyət dairəsinə düşməyən coğrafiyada subpodratçı qismində fəaliyyəti həyata keçirən işlək mexanizmə çevrilib. Vaşinqtona gəldikdə isə o, Qafqazda bir tərəfdən Gürcüstan, digər tərəfdən Ermənistanla oynayaraq, Moskvanın əleyhinə qüvvələr mərkəzi yaratmağa çalışır. Ağ evin Ermənistan müdafiə nazirliyinə öz nümayəndəsini göndərməsi, intensiv birgə hərbi təlimlərin keçirilməsi, erməni ordusunun gücləndirilməsinə praktiki dəstəyin verilməsi, aydın məsələdir ki, Ermənistanın mümkün qədər tez Rusiyadan qoparmaq səyləri kimi dəyərləndirilə bilər. Digər tərəfdən, bu, eyni zamanda, təkcə Rusiyaya deyil, həm də İrana qarşı atılmış addımdır. Kollektiv Qərbin bu hərbi-siyasi demarşları, gözlənildiyinin əksinə olaraq, Ermənistanın onların qucağına keçməsini sürətləndirməz, əksinə, onu qanlı tamaşaların oynanıldığı poliqona çevirə bilər.

Bir daha qeyd edək ki, aylar əvvəl Macarıstanın Avropa Sülh Fondundan Ermənistana üzvlərlə razılaşdırılmış 10 milyon avro məbləğində maliyyə dəstəyinin göstərilməsi layihəsini bloklaması ilə bağlı məlumat öz təsdiqini tapsa da, iki gün əvvəl Aİ-nin xarici işlər nazirləri İrəvana yardım ayrılması qərarını rəsmən təsdiqləyiblər. ASF-nin yardım paketinin təsdiqindən bir gün əvvəl şərti sərhəddə atəşkəsin Ermənistan tərəfindən pozulması faktı da diqqət çəkdi. Bir qədər əvvəl isə Nikol Paşinyanın Londonda Avropa Siyasi Birliyinin IV Zirvə görüşü çərçivəsində İlham Əliyevlə görüşməkdən boyun qaçırmasına da məhz bu kontekstdən yanaşmaq daha doğru olar.

***İmran BƏDİRXANLI***
***XQ***

### Ekspert rəyi

**Aydın QULİYEV,**
**politoloq**



– Belə addımların atılması sülh gündəliyinə və mənafeyinə uyğun deyil. Nəzərə almaq lazımdır ki, 30 ilə yaxın işğalçılıq siyasəti aparmış Ermənistan hələ də Azərbaycanla sülh müqaviləsi imzalamayıb. Hətta sülh müqaviləsinin imzalanması üçün Azərbaycanın tələb etdiyi beynəlxalq normaların heç birinə əməl etmir. Bu şəraitdə müəyyən dövlətlərin və Avropa İttifaqının Ermənistana hərbi yardım ayırması bölgədə heç də sülhün yaranmasına xidmət etmir. Aİ bu addımı ilə Ermənistanı müharibəyə hazırlayır. Onun Sülh Fondu xətti ilə Ermənistan silahlı qüvvələrinə 10 milyon avro yardım ayırması olduqca ziyanlı addımdır. Əslində, bu proses bir il bundan əvvəl başlamışdı. Azərbaycanın müttəfiqi olan bəzi dövlətlərin etirazları Avropa İttifaqı tərəfindən qulaqardına vuruldu. Məsələn, Aİ-nin fəal üzvlərindən olan Macarıstanın Baş naziri Viktor Orban açıq şəkildə bu qərara etirazını bildirmişdi. Budapeşt birmənalı şəkildə bəyan etdi ki, Azərbaycanla müharibə şəraitində olan Ermənistana belə bir yardımın ayrılması absurddur. Sülh müqaviləsi imzalanana qədər ya yardım edilməməli, ya da tərəflərin hər ikisinə yardım edilməli idi. Təəssüf ki, Aİ rəhbərliyi bu haqlı iradları qəbul etmədi. Belə bir addımın atılması Ermənistanın Avropadakı müttəfiqlərinin birbaşa təsiri altında olub.

Avropa Sülh Fonduna Fransanın dəstək verdiyi açıq-aydın hiss olunur. O, Ermənistanı Azərbaycanla sülh müqaviləsi imzalamağa qoymur. Yelisey sarayı həm sülh müqaviləsinin imzalanmasına maneçilik törədir, həm də bu cür yardımlarla Ermənistanı yeni müharibəyə hazırlayır. Ona görə də bu yardımı Ermənistanı müharibəyə qızışdırmaq cəhdi, bölgədə pozuculuq siyasəti və Azərbaycana qarşı qərəz nümayişi adlandırmalıyıq.

### Ekspert rəyi



**Mətin MƏMMƏDLİ,**
**Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin baş məsləhətçisi**

– Bu addım Azərbaycanla Avropa İttifaqı (Aİ) arasında münasibətlərin strateji xarakterinə mənfi təsir göstərəcək. Aİ Şurası Avropa Sülh Fondu çərçivəsində Ermənistanın müdafiə qabiliyyətinin artırılması üçün 10 milyon avro yardım göstərilməsinə qərar verdi. Ermənistanla Azərbaycan arasında yekun sülh müqaviləsi hələ də imzalanmayıb. Ermənistan o dövlətdir ki, 30 ilə yaxın dövr ərzində Azərbaycan ərazilərini işğal altında saxlayıb. Ayrılan vəsait məbləğindən asılı olmayaraq sülhə xidmət etməyəcək. Bu qərar Ermənistanda revanşizm meyillərinin güclənməsinə, onun təcavüzkar siyasət yürütməsinə təkan verə bilər.

Aİ-nin bu addımı heç bir halda ədalətli yanaşma kimi qiymətləndirilə bilməz və Azərbaycan buna rəsmi mövqeyini bildirib. Ai-nin mövcud qərarı təsadüfi deyil. Son illərdə Aİ-nin bir sıra strukturları, o cümlədən, bəzi Avropa ölkələri regionda ermənipərəst siyasət yürüdürlər və hesab edirlər ki, bu yolla onlar İrəvanı tədricən öz siyasi orbitlərinə daxil edə biləcəklər. Əslində, Aİ geosiyasi maraqlarını təmin etmək, bölgəni Rusiya ilə geosiyasi qarşıdurma meydanına çevirmək istəyir. Təbii ki, bu qərar Azərbaycan –Aİ münasibətlərinə təsirsiz ötüşməyəcək. Azərbaycan bu birliyə daxil olan bir sıra dövlətlərlə strateji tərəfdaşlıq münasibətlərinə malikdir. Bu gün Azərbaycan Avropa məkanında enerji təhlükəsizliyinin təmin olunmasında mühüm rol oynayır. Ancaq görünür, bütün bunlar Avropada müəyyən dairələr tərəfindən nəzərə alınmır. Mövcud tendensiya davam etsə, Ermənistan mərkəzli siyasət yürüdülsə, bu, regionda davamlı sülhün təmin olunmasına deyil, əksinə, yeni hərbi-siyasi eskalasiyanın yaranmasına, bölgədə bölücü xətlərin ortaya çıxmasına səbəb olacaq. Bu isə nə region dövlətlərinin, nə də Avropanın maraqlarına uyğundur.

# Ermənistan üçün “geosiyasi qazan”



**(əvvəli 1-ci səhifədə)**

Digər versiya da diqqətə çatdırdığımız fikrin təsdiqidir. Bəzi erməni siyasilər bildirirlər ki, ölkələrindəki iqtidar bu ilin sentyabrında etirazlara səbəb ola biləcək müəyyən addımlar atmaq niyyətindədir. Söhbət Azərbaycana güzəştlərdən və qeyri-bərabər sülh müqaviləsinin imzalanmasından gedir. Deyilənə görə, həm hakimiyyət, həm də ABŞ erməni cəmiyyətinin duruma dözməyəcəyini bilir. Bu səbəbdən vəziyyətin nəzarətdən çıxmamasına çalışır.

Əlbəttə, belə versiyaların gündəmə gətirilməsi əsl məqsədi pərdələmək niyyəti güdür. Çünki suallar var. Necə oldu ki, Azərbaycanın mövqelərinin atəşə tutulması ilə Fransadan gəlmiş və içi hərbi yardım dolu təyyarənin İrəvana enməsi üst-üstə düşdü? Üstəlik, Ermənistan son dəfə Kəlbəcər istiqamətində Azərbaycanın mövqelərini Qərbin verdiyi yeni silahlardan atəşə tutduğuna dair bilgilər var. Bununla əlaqədar məlumatı “Minval.az” saytı mötəbər mənbələrdən əldə edib.

Məsələ burasındadır ki, Ermənistan son bir ildə ilk dəfə olaraq atəşkəsi pozarkən ağır silahlardan yararlanıb. Üstəlik, bu, ABŞ, Fransa və Avropa İttifaqını təmsil edən hərbi müşavirlərin iştirakı ilə həyata keçirilib. Düşünmək mümkündür ki, onlar Ermənistana verilmiş öldürücü silahları döyüş şəraitində sınaqdan keçirmək qərarına gəliblər. Həmçinin, Azərbaycan Ordusunun atəşə necə reaksiya verəcəyini öyrənmək istəyiblər.

Bundan başqa, ABŞ və Fransanın Ermənistan silahlı qüvvələrinə təqdim etdiyi snayper tüfənglərinin Azərbaycan hərbçilərinə qarşı real döyüş şəraitində istifadəsi barədə məlumatlar var. Atəş mövqeyinin seçilməsi, atəş açdıqdan sonra geri çəkilmək, yalançı atəş nöqtələri qurașdırmaq, atəşdən dərhal sonra rabitə və digər vasitələrdən istifadə edərək kəşfiyyat aparmaq və bir çox digər tapşırıqlar – bütün bunlar NATO ölkələrinin hərbi standartlara uyğun olaraq həyata keçirilir.



Belə qənaətə gəlirik ki, Ermənistan rəsmilərinin Azərbaycanla sülh gündəliyinə sadiq olduqlarını bildirmələri mənasızdır. Bütün bunlardan sonra Qərb dairələri də Cənubi Qafqazda sülhdən danışır və bəyan edirlər ki, Bakı və İrəvan sülhə yaxındırlar və sair və ilaxır. Reallıq ondadır ki, Qərbdəki müəyyən qüvvələr ölkəmizi Ermənistana sərfəli sülhə razı salmaq niyyətindədirlər. Hər halda son günlər intensivləşən hərbi əməkdaşlıqlar fonunda Ermənistanın müdafiə qabiliyyətinin artırılması şousu başqa cür düşünməyə əsas vermir.

Deməli, Ermənistanın müdafiə qabiliyyətinin gücləndirilməsi. Əlbəttə, deyə bilməzlər ki, ölkəyə hərbi dəstək verməklə Cənubi Qafqazda qüvvələr nisbəti arasında balans yaratmağa çalışırlar. Onu da bildirməzlər ki, Ermənistanı möhkəmləndirib ondan Azərbaycana təzyiq vasitəsi kimi yararlanmaq niyyətindədirlər. Bunu heç dilə gətirməzlər ki, Cənubi Qafqazda geosiyasi münaqişə formalaşdırmaq məqsədi güdürlər və İrəvanı alət qismində ortaya atırlar.

Sonda onu da deyək ki, Ermənistana hərbi dəstək ritorikasının mövcudluğu ölkənin düşdüyü illüziya bataqlığındakı yerini bir qədər də möhkəmləndirir. Bu bataqlıq ölkənin başbilənlərinin normal düşünmələrinə imkan vermir. Rəsmi İrəvan nəzərə almalıdır ki, indiyədək Azərbaycana yönəlmiş bütün anti-sülh davranışları heç bir nəticə verməyib. Bakı mövqeyindən geri çəkilməyib.

Anti-Azərbaycan fəaliyyətinin yekununda həmişə uğursuzluqla üzləşən Ermənistan itirə-itirə gedir. Ancaq belə görünür, indi durum fərqlidir. İrəvan özünü geosiyasi qazanın içinə salıb. Elə bir qazan ki, onun altındakı alov Ermənistanı nəinki yandıra, hətta külə də çevirə bilər. Rəsmi İrəvan durumun fərqində deyil və anlamır ki, Azərbaycanla barışa gəlməkdən başqa çarəsi yoxdur.

***Ə.CAHANGİROĞLU***
***XQ***

# Dezinformasiyaya qarşı mübarizə: Prezidentin yeni tarixi mesajları

**Ermənipərəst siyasətçilər, media nümayəndələri yanlış narrativlər yayırdılar, Azərbaycanı reallıqdan çox uzaq bir şəkildə təqdim edirdilər.**

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**



**II MƏQALƏ**

## Azərbaycanın tarixi həmləsi

Bəzən bu dünyada haqlı olduğunu sübut etmək çox çətin olur. Əgər ətrafda çoxları bir dəlini ağıllı kimi, ağıllını da dəli kimi təqdim edirsə, onda doğrudan da onlar yerlərini dəyişə bilərlər. Ağıllı bütün təzyiqlərə tab gətirib, haqqı sona qədər qoruyarsa, qarşıdakılar tam sınmış olurlar. Dövlət səviyyəsində bu məsələlər daha mürəkkəb və ziddiyyətli xarakter daşıyır. Ermənipərəst dairələrin (etiraf edək ki, informasiya savaşında onların təcrübəsi və texnoloji imkanları genişdir) davamlı olaraq Azərbaycan dövlətinə, xalqına, ziyalılarına, vətəndaşlarına şər-böhtan dolu həmlələr etməsi cəmiyyətdə xeyli psixoloji durğunluq yaratmışdı.

İlham Əliyev zəkası və siyasi iradəsi ilə onların bütün həmlələrini qətiyyətlə dəf etdi. Bunu II Qarabağ savaşı zamanı Prezidentin xarici jurnalistlərə verdiyi çoxsaylı müsahibələrindən aydın gördük. İlham Əliyev qərəzli suallara təmkini, ədaləti, məntiqi və dik duruşu ilə elə cavablar verirdi ki, qarşıdakı sarsılırdı! Şübhə yoxdur ki, dünya miqyasında həmin müsahibələrin siyasi, diplomatik, ideoloji və informasiya özəlliklərini hələ çox araşdıracaqlar.

Bizim üçün həmin dövrdə informasiya savaşı meydanında isə bu, olduqca vacib hadisə idi. Azərbaycan cəmiyyəti və xalqı əyani olaraq qərəzli dairələrlə necə savaşmağın nümunəsini göstərirdi. 30 illik informasiya həmlələri fonunda, bu, bizim qəhrəmanlıq nümunəmiz idi. Hər kəs Prezidentin müsahibəsindən sonra bir az da yüngülləşirdi, üstündən illərin informasiya yükünü götürürdü.

Bu, nəzəri və praktiki cəhətdən maraqlı bir fenomen idi. Çünki milyonlarla vətəndaş öz Prezidentinin informasiya müharibəsi meydanında təkbaşına necə mübarizə apardığını görürdü. Müşahidə edirdi. Görünən mənzərə 30 illik çalışqanlığın, zəhmətin və yüksək zəkavi enerjini sərf etməyin məntiqi nəticəsi olduğu kimi, Zəfərdən sonrakı fəaliyyətimizin də iradi rəmzi idi! Prezident öz davranışı, mübarizəsi ilə milyonları oyadır və səsləyirdi: Azərbaycanın ədalətli həmləsinin zamanı yetişmişdir!

İlham Əliyev II Qarabağ savaşı başlanan andan eksklüziv olaraq nümayiş etdirirdi ki, uzun müddət tarixi ədalətsizliyə hədəf olmuş Azərbaycanın əks-hücuma keçməsi təbii və tarixi haqqıdır. Milyonların haqqıdır! Ona görə də hər bir cəbhədə azərbaycanlının mübarizə aparması müqəddəsdir, hüquqidir, ədalətlidir, qanunidir!

Prezidentin 2020-ci ilin payızında göstərdiyi həmin möhtəşəm informasiya fəaliyyəti bir oyanışın başlanğıcı oldu. Bu, hər kəsin səfərbərliyində təcəssüm etdi. Azərbaycan tarixi həmləsinə başlamışdı.

Cəmi bir neçə gün öncə Prezident İlham Əliyev II Qlobal Şuşa Media Forumunda jurnalistlər qarşısında eyni qürurlu duruşu, yüksək zəkası, dəmir məntiqi və vətənsevərliyi ilə çıxış etdi. Bu dəfə başqa statusda – möhtəşəm qələbə qazanmış dövlətin, millətin, cəmiyyətin və bütövlükdə, Türk dünyasının lideri kimi danışırdı! Bu dəfə İlham Əliyev jurnalistlərlə informasiya savaşı aparmırdı, əksinə, onların səmimi və yaxın dostu kimi Azərbaycana qarşı aparılan informasiya müharibəsinin, şər-böhtanın siyasi, informasion, diplomatik və ideoloji anatomiyasını anladırdı. 2020-ci ilin 44 günündə nümayiş etdirdiyi eyni təmkin, yüksək zəka, ədalətli yanaşma və dərin təhlilləri ilə hər kəsi məftun edirdi.

İlham Əliyev "Cənubi Qafqazda tarixi-geosiyasi dəyişikliklər baş verir" tezisi ilə müasir geosiyasi və siyasi təlimlərin araşdırmaçılarına manşet mövzu verirdi. Yəqin onların daha ağıllı olanları Azərbaycan Prezidentinin II Qarabağ savaşı başlananda olduğu məkanla indi media forumu təşkil etdiyi məkanı müqayisə edə biləcəklər. İlham Əliyev informasiya savaşına Bakıdan başladı, Şuşada Qələbəsinin fəlsəfəsini anlatdı! Yalnız qalib sərkərdə kimi deyil, daha çox müdrik, uzaqgörən və təmkinli lider kimi. Bu da Azərbaycan Prezidentinin şər qüvvələr üzərində mənəvi qələbəsinin bir fraqmentidir. Çünki mübarizə davam edir, irəlidə görüləsi çox işlər vardır. O işlərin təməli 44 günlük savaşdan dərhal sonra regionda yaranmış geosiyasi, siyasi və hərbi vəziyyətdə qoyulmuşdu!

## 44 gün sonra

Məlum oldu ki, Azərbaycan Prezidenti bütün regionun geosiyasi dinamikasını dəyişməkdə qərarlıdır. Sözün həqiqi mənasında, xüsusilə, Qərbin güclü dövlətlərinin liderləri bunu qəbul etmək istəmədilər və müyyən mənada şoka düşdülər. Həm də ona görə ki, İlham Əliyev bu qətiyyətini ədalət və beynəlxalq hüquq normaları çərçivəsində ardıcıllıqla həyata keçirirdi. İnformasiya cəbhəsində Azərbaycan Prezidenti aramsız həmlələr edirdi. Qısa müddətdə Qərbə, Rusiyaya və İrana anlatdı ki, Azərbaycan Cənubi Qafqazın geosiyasi ruhunu dəyişəcək və yeni əməkdaşlıq, təhlükəsizlik mühiti yaradacaq!

Biz həmin mərhələdə müxtəlif şəhərlərdə, fərqli ermənipərəstlərin iştirakı ilə keçirilən görüşlərin üzərində dayanmırıq. Biz həmin epizodları da təsadüfən ətraflı qeyd etmirik. Çünki məhz 44 günlük savaşdan sonra, ondan az əhəmiyyətli olmayan siyasi-diplomatik və informasiya müharibəsi gedirdi. Məhz həmin mərhələdə Azərbaycanın etdiyi təkliflər, irəli sürdüyü şərtlər, dialoq imkanlarını təşviq etməsi qarşı tərəfi yavaş-yavaş ayıltdı. Bu gün Şuşanın informasiya məkanında gördüyümüz təmtəraqlı və ədalətli ab-havanın əsası o dövrdə masa ətrafında gərgin müzakirələrin istiliyində qoyulurdu. Yəni 44 gündən sonrakı mərhələ 44 gün qədər əhəmiyyətli və vacib zaman kəsimidir!

## Yeni cəbhələr və üfüqlər

Ermənistanın havadarlarının gözləmədikləri bir mqavimətlə rastlaşmaları onları bir müddət şoka saldı. Lakin təcrübəli siyasi-ideoloji texnoloqlar və tarixi böhtançılar yeni üsullar axtarışından qalmırdılar. Aydın görünürdü ki, informasiya müharibəsinin səngərini Azərbaycanın qarşısında qurmaqla bir şeyə nail ola bilməyəcəklər. Ona görə də həmin səngərləri maskalı surətdə Azərbaycanın içərilərində yaratmağa başladılar. Çox müxtəlif üsul və bəhanələrlə Azərbaycan cəmiyyətində özünə qarşı inamsızlıq və ümidsizlik, iqtidar-xalq qarşıdurması yaratmağa və azərbaycanlılara mənəvi zərbələr vurmağa cəhdlər etdilər. Bu dəfə demokratiya, insan haqları, söz azadlığı kimi faktorlardan daha peşəkarcasına istifadə etməyə başladılar.

O sırada Qərbə getmiş azəraycanlıların bir neçəsindən yararlanmağa çalışdılar. Lakin bəlkə də tarixin istehzasıdır ki, həmin gedənlərdən biri Şuşada Azərbaycan Prezidentinə sual verdi və ölkəmiz haqqında qürurla danışdı. İlham Əliyevin reaksiyası həmişə olduğu kimi, çox ədalətli oldu: "Vətənə xoş gəlmisiniz!" Lakin 2020-2024-cü illər arası müxtəlif dairələrin küyünə gedən bir sıra soydaşımız informasiya müharibəsində qarşı tərəfdə durmağı özünə rəva bildi. Məlum təbii sərvətlərin qanunsuz istismarı ilə bağlı Azərbaycnın gərgin və intensiv siyasi, ideoloji, diplomatik və informasiya savaşı apardığı bir dönəmdə bəziləri haqsızın yanında – ermənilərin qərbli havadarlarının yanında durdular. Acınacaqlıdır, lakin Azərbaycan bunu da keçdi.

Həmin böhran sona çatanda aydın oldu ki, Qərbin demokratiya, liberalizm və insan haqları üzərində qurmaq istədiyi yeni oyunların potensialı tükənir. Azərbaycan cəmiyyəti bu kimi təxribatları dəf etmək immunitetini daha da möhkəmləndirdi. O zaman emənipərəstlər informasiya savaşının yeni mərhələsinə keçdilər. Gizli, amansız və olduqca təhlükəli bir mərhələ başladı.

## Peşəkar təxirbatçıların "mülki missiyaları"

Onlar əsas güclərini iki istiqamətə yönəltdilər. Birincisi, Azərbaycan cəmiyyətini daxildən parçalamağa istiqamətlənmiş addımlar atdılar. Prezident İlham Əliyev bunu Şuşada çox gözəl ifadə etmişdir. İlham Əliyev demişdir: "Natamam, qeyri-dəqiq və manipulyasiya edilmiş hesabatlar Qərbdən qaynaqlanır. O, gündəlik həyatımıza çevrilir. Təəccüblənirdik, məyus olurduq, indi isə biganə yanaşırıq".

Xarici informasiya mənbələri Azərbaycan və azərbaycanlılar haqqında manipulyativ məlumatlar yaymaqla cəmiyyətin mənəvi-ideoloji ab-havasını dəyişməyə səy göstərirlər. Eyni zamada, vətəndaşların gözündən Azərbaycan dövlətçiliyini salmaq üçün dəridən-qabıqdan çıxırlar. Azərbaycanı haqsız göstərmək üçün absurd ittihamlar belə irəli sürürlər.

Məsələn, Avropa siyasi dairələri II Qarabağ savaşını "Azərbaycan Qarabağda terror edir" kimi təqdim etməyə çalışdılar. Absurd kontekstlərdə insan haqlarından dəm vurmağa başladılar. Onların dediklərinə inanılsa idi, onda Azərbaycan əsgəri hər addımında "terrorçu" olmalı idi. Terrorçu isə "azadlıq aşiqi"! Sanki Qrabağda məhv edilmiş azərbaycanlılar, ümumiyyətlə, mövcud olmamışlar. Onların yurdlarına qayıtmaq hüququndan Qərbdə kəlmə belə kəsmirdilər. Əvəzində Laçın yolundan elə informasiya spekulyasiyaları etdilər ki, sonda heç özləri də inanmadılar. Bütün bu cəhdlərin sonu puç oldu!

Lakin erməni havadarlarının başqa bir süni priyomu da ortaya çıxmışdı. Qərblilər keçmiş peşəkar təxribatçılardan "mülki missiya" düzəldərək Ermənistana atdılar. Onlar indi sərhədin o tərəfindən Azərbaycanı müşahidə edirlər. Hərbi-təxribatçı xislətli bu "mülki missiya" Bakının ağıllı və təmkinli reaksiyası ilə tam yararsız hala düşdü. İndi onlar kimsənin, hətta ermənilərin belə yadına düşmür. Xüsusilə Fransa tərəfi bir neçə dəfə yardım adı altında təxribat törətməyə cəhd etdi və layiqli cavabını aldı.

Azərbaycan Qarabağda real quruculuq işləri görməklə yanaşı, dünya çapında güclü informasiya müharibəsini paralel apara bildi. Bunun başlıca əlaməti bir neçə dövlət başçısının Qarabağa səfər etməsi oldu. Macarıstan, Belarus, Türkiyə, Qazaxıstan, Özbəkistan, Qırğızıstan dövlətinin rəhbərləri Qarabağa gəldilər və konkret layihələr həyata keçirmək haqqında razılaşmalar əldə oundu. Bununla Azərbaycan qarşı tərəfə praktiki layihələri və ədalətli informasiya savaşı ilə cavab verdi.

İndi Prezident İlham Əliyevin Şuşada irəli sürdüyü təklif bütün dünya üçün faydalıdır. Azərbaycan dövlət başçısı demişdir: "İstərdik ki, Azərbaycanda və regionda baş verən hadisələr obyektiv şəkildə işıqlandırılsın". Yuxarıda üzərində ötəri dayandığımız bir çox informativ məqamların işğında bu tezis çox aktual və lazımlı görünür. Azərbaycan Prezidenti faktiki olaraq bütün KİV orqanlarına növbəti dəfə reallığı görüb, ona uyğun davranmağı təklif edir. Bunu ifadə etməyə İlham Əliyevin tam haqqı vardır. Çünki o, bütün çətinliklərə və ziddiyyətlərə baxmayaraq, Cənubi Qafqazı yeni geosiyasi müstəviyə çıxara bilmişdir. İndi isə onu qorumaq məsuliyyətini tam dərk edir.

Bu, informasiya müharibəsinin həm bir mərhələsinin sonu, həm də yeni mərhələsinin başlanğıcıdır. Bu dəfə də Azərbaycan Prezidenti hər kəsi qabaqlaya bilmişdir!

**(ardı var)**

**Füzuli QURBANOV,**
**XQ-nin analitiki,**
**fəlsəfə elmləri doktoru**

**Replika**

# İndi də üstümüzə Kennedi gəlir



**İş o yerə çatıb ki, irland əsilli amerikalı məşhur ailənin sonuncu nümayəndəsi də üstümüzə diş qıcıyır. Özünün qalmaqallı imici ilə tanınan, ABŞ prezidentliyinə müstəqil namizəd, keçmiş demokrat kiçik Robert Kennedi Ermənistan–Azərbaycan münasibətlərini seçkiqabağı təbliğat proqramına daxil edib. O, prezident olacağı təqdirdə "Qarabağdan erməniləri zorla qovduğuna görə" Azərbaycana qarşı kəsərli sanksiyalar tətbiq edəcəyinə söz verib.**

Elə bəri başdan bütün Amerika əhlinə aydındır ki, 1963-cü ildə ABŞ-nin sui-qəsdlə öldürülən 35-ci prezidenti Con Kennedinin qardaşı oğlu Robertin Ağ evin dairəvi kabinetindəki kresloda oturmaq şansı sıfıra bərabərdir.

İntəhası, Co Baydenin prezidentlik marafonundan geri çəkilməsi xəbəri yayılandan dərhal sonra bu başabəla respublikaçı mətbuat konfransı keçirərək bildirib ki, "indi əsas mübarizə mənimlə Donald Tramp arasında olacaq".

Kaliforniyadakı erməni diasporu kiçik Robert Kennediyə özlərinin son ümidgahı kimi baxır. Belə çıxır ki, Kennedinin, Trampdan savayı, demokratların prezidentliyə ehtimal olunan namizədi Kamala Harrisi məğlub etməkdən ötrü əsas "silahı" ABŞ-dakı erməni lobbisinin səsləridir. Onun seçki kampaniyasında Amerika Erməni Milli Komitəsinin (ANCA) rəhbəri Aram Ambaryanın tezislərindən vaxtaşırı istifadə edərək, Azərbaycanın üzərinə hücuma keçməsi təzə hadisə deyil. Məsələn, bu ilin yanvarında erməni icma liderlərinin Cənubi Kaliforniyada təşkil etdikləri toplantıda Kennedi prezident kreslosuna əyləşən kimi "Qarabağ üzərində suverenliyi mütləq Ermənistana qaytaracağını" bildirmişdi. Bu məqamda şadlığından göyə hoppanan Ambaryan Kennediyə "erməni məsələsini prezident seçkiləri kampaniyasının gündəmində saxlamaq vacibdir" demişdi. O, bir az da irəli gedərək "Qarabağın "itirilməsində" həm hazırkı prezident Cozef Baydenin, həm də Kennedinin əsas rəqibi Donald Trampın günahkar olduğu" barədə məsuliyyətsiz və avantürist bəyanat vermişdi.

İndi isə kiçik Kennedi düzənlədiyi mətbuat konfransında lap "gül vurub". Uğursuz respublikaçı bu dəfə Azərbaycanı təkcə "Rusiya neftini Avropa ölkələrinə satması səbəbindən" sanksiyalarla hədələmir, həm də Avropa İttifaqına üzv ölkələrin hamısını bu sanksiyalara qoşacağını vəd edir.

Bu da erməni hiyləgərliyinin yeni təzahürüdür. Xaricdəki hay media subyektləri Rusiyanın sanksiyaya məruz qalmış neft və qazının Avropaya satışında Azərbaycanın iştirakı ilə bağlı saxta xəbərləri Bakıya qarşı informasiya müharibəsində, anti-təbliğatda istifadə edirlər. Həmin feyk-xəbərlər, saxta tezislər Qərbin nüfuzlu KİV-ində mütəmadi yer alır, hətta bəzən Avropa siyasətçiləri arasında müzakirə mövzusuna çevrilir. Yeri gəlmişkən, bu günlərdə "Zartonk Media" internet nəşrinə müsahibəsində Robert Kennedi Türkiyəyə də "daş atıb". O, rəsmi Ankaranı "Suriyanın şimalında kürdlərə qarşı soyqırımı"nda və "Kiprin yarısının işğalında" ittiham edib. Türkiyəni "dayandırmaq üçün" dişli tədbirlər görməyən NATO-nun işinə isə prezident seçildikdən sonra baxacağını bəyan edən kiçik Kennedi bu hərbi alyansı "sülhməramlı təşkilata" çevirəcəyini bildirib.

Beləliklə, ANCA-nın özünün boğazdanyuxarı faydasız anti-Azərbaycan fəaliyyəti ilə tanınmış avantüristə, nüfuzlu soyadının və şəcərəsinin adını batıran Robert Kennediyə arxalanması heç də təsadüfi deyil. Fakt ondan ibarətdir ki, Donald Trampdan ötrü "erməni məsələsi" nə indi, nə də əvvəlki seçki kampaniyasında aktual mövzu olmayıb. Seçki yarışını tərk etməyə qərar vermiş Cozef Bayden də erməni diasporunun isterik bağırtılarına baxmayaraq, Azərbaycan Qarabağ üzərində tam suverenliyini bərqərar etdikdən sonra Bakıya qarşı sanksiyaların tətbiqindən yayınması ilə hayları xeyli məyus etdi. Yəni Ağ ev Administrasiyası belə qənaətə gəlib ki, ABŞ-nin Cənubi Qafqazda milli maraqları və xarici siyasət prioritetləri üçün Azərbaycanla normal münasibətlər erməni elektoratının səsindən daha vacibdir. Nəticədə, ANCA-nın uğursuz namizədin seçki kampaniyasına pul buraxmaqdan başqa alternativi qalmayıb.

Kiçik Kennedinin və digərlərinin Azərbaycana "mövsümi hücumlarının" ölkəmizin beynəlxalq imicinə heç bir təsiri yoxdur. Haylara isə dahi filosof Konfutsinin yazdığı həqiqəti xatırladaq: "əgər kürəyinizə tüpürürlərsə, deməli, irəli gedirsiniz".

***İ.HƏSƏNQALA***
***XQ***



# Milli Məclisə seçkilərə 38 gün qaldı

## SEÇKİYƏ GƏL, SƏS VER, SEÇİLMİŞLƏRDƏN OL!



# YAP-ın yenidən qalib gəlmək əzmi böyükdür

**Ölkəmizin müstəqillik tarixində ilk dəfə olaraq ərazi bütövlüyü və suverenliyimizin tam bərpa edildiyi şəraitdə Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərin keçirilməsi yeni tarixi dövrdə cəmiyyətin yeniləşdirilməsinə və daha genişmiqyaslı islahatların həyata keçirilməsinə xidmət edir. Cəmiyyətin aparıcı qüvvəsini təşkil edən Yeni Azərbaycan Partiyasının ilk dəfə olaraq bütün dairələrdən – 125 seçki dairəsindən öz namizədlərini irəli sürməsi zəngin ənənələri olan bu güclü və mütəşəkkil partiyanın böyük siyasi potensiala, etibarlı ehtiyat kadr bazasına malik olduğunu göstərir. Bu, həm də Yeni Azərbaycan Partiyasının növbəti dəfə qalib gəlmək əzmini, qələbə qazanmaq inamını aydın şəkildə nümayiş etdirir.**



**İsa HƏBİBBƏYLİ,**
**AMEA-nın prezidenti, akademik**

Bundan başqa, Yeni Azərbaycan Partiyasından olan namizədlərin tərkibində tanınmış ziyalıların, zəngin təcrübəyə malik mütəxəssislərin, cəmiyyət tərəfindən qəbul edilən adlı-sanlı simaların olması da partiyamızın yenidən parlamentdə səs çoxluğunu qazanacağına böyük inam yaradır. Yeni Azərbaycan Partiyasının namizədləri sırasında çoxillik parlament təcrübəsinə malik deputatların yer alması da partiyanın qızıl fondunu daha da möhkəmləndirmək, onların bilik və bacarıqlarından cəmiyyətin inkişafı naminə yaradıcı şəkildə istifadə etmək prinsipinə sadiqliyinin ifadəsidir. Müşahidələr göstərir ki, partiyamızın namizədlər siyahısı, eyni zamanda, gənc qüvvələrlə də zənginləşdirilmişdir. Bu isə Yeni Azərbaycan Partiyasının yeni tarixi dövrdəki yeniləşmə proseslərinə həm də yeni qüvvələrlə getmək iradəsinin real göstəricisidir. Həmçinin seçkilərdə Yeni Azərbaycan Partiyasından olan qadın namizədlərin çoxalması isə ölkəmizdə dərinləşməkdə və genişlənməkdə davam edən demokratikləşdirmə və gender bərabərliyi təşəbbüslərinin daha da inkişaf etdirilməsinə təkan vermək məqsədi daşıyır. Zənnimcə, YAP ərazi təşkilatlarının bir çox sədrlərinin deputatlığa namizəd göstərilməsi də məqsədyönlü addım olub, parlamentdə iqtidar partiyasının mövqelərinin daha da gücləndirilməsinə xidmət edən əhəmiyyətli gedişdir.

Bir sözlə, atılmış ilkin məqsədyönlü addımların təhlili onu göstərir ki, Yeni Azərbaycan Partiyasının namizədləri seçkiqabağı siyasi mübarizədə yüksək səviyyədə və fəal şəkildə iştirak etmək üçün bütün imkanlara malikdirlər. Bunlar isə öz növbəsində Milli Məclisə seçkilərdə cəmiyyətin bütün təbəqələrindən olan seçicilərin fəallığının artmasına da ciddi şəkildə təsir göstərəcəkdir.

İnanırıq ki, Azərbaycan Respublikasının Milli Məclisinə VII çağırış üzrə seçkilər əvvəllər olduğu kimi, demokratik mübarizə şəraitində keçəcək, ölkəmizdə müasir inkişafın yeni mərhələsinə çatmaq üçün siyasi-ideoloji zəmin hazırlayacaq, ali qanunverici orqanımızın irəliyə doğru inkişafına daha yüksək səviyyədə xidmət edəcəkdir. Bütövlükdə, VII çağırış üzrə Milli Məclisə keçiriləcək seçkilər müstəqil dövlətimizin daha da inkişaf etdirilməsi yollarında dönmədən və qətiyyətlə mübarizə aparan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin həyata keçirdiyi çoxşaxəli və məqsədyönlü siyasətin gerçəkləşməsinə özünün layiqli töhfəsini verəcəkdir.

Yeni Azərbaycan Partiyasına və onun namizədlərinə qarşıdan gələn növbədənkənar parlament seçkilərində uğurlar arzulayıram.

# Naxçıvanda seminar-müşavirə

**Mərkəzi Seçki Komissiyası tərəfindən Ali Məhkəmə və Apellyasiya məhkəmələri ilə birgə layihə çərçivəsində növbədənkənar parlament seçkilərində seçki mübahisələrinin məhkəmə qaydasında həllinə həsr olunan regional seminar-müşavirələrə start verilib. Həmin tədbirlərin tərkib hissəsi olaraq Naxçıvandakı “ASAN xidmət” mərkəzində sözügedən mövzu ilə bağlı seminar-müşavirə keçirilib.**





Tədbirdə ilk öncə Ulu öndər Heydər Əliyevin və şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Mərkəzi Seçki Komissiyasının üzvü Bəxşeyiş Əsgərov tədbirin əhəmiyyətindən danışaraq bildirib ki, bu cür tədbirlər seçki vaxtı namizədlərin narazılıqlarının sayının azalmasında, şikayətlər qarşısında ədalətli qərar verməklə həllində xüsusi önəm daşıyır. Seçkilərdə qeydiyyata alınmış 26 siyasi partiyadan 25-nin iştirak etdiyini vurğulayan komissiya üzvü vətəndaşların seçki hüquqlarının realizə olunmasında qanunvericiliyin tələblərinə dəqiqliklə riayət etmələrinin vacibliyini diqqətə çatdırıb və bununla əlaqədar zəruri tövsiyələr verib. O, dairə seçki komissiyalarında MSK-ya MSK-dan da məhkəməyə ünvanlanan şikayətlərin məhz bu tədbirlər vasitəsilə elə birinci mərhələdə həll olunacağına ümidvar olduğunu bildirib.

Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin hakimi Səxavət Novruzov çıxış edərək qeyd edib ki, şikayətlərə Azərbaycan Respublikasının İnzibati-Prosessual Məcəlləsinin tələblərinə əsasən baxılır. İş üzrə məhkəmə qərarından həmin qərarın tam formada təqdim olunduğu gündən 3 gün müddətində Ali Məhkəməyə şikayət verilə bilər. Şikayətə 3 gün müddətində, səsvermə gününə 30 gündən az müddət qalırsa iki gün müddətində (lakin səsvermə günündən gec olmayaraq), səsvermə günü və həmin gündən sonra daxil olmuş ərizələrə isə dərhal baxılmalıdır.

Sonra Ali Məhkəmənin hakimi Müşfiq Həsənovun “Seçkilərdə seçki hüquqlarının müdafiəsi ilə bağlı qanunvericiliyin məhkəmələr tərəfindən tətbiqi təcrübəsi və məhkəmədə seçki hüquqlarının müdafiəsi ilə bağlı işlər”, Mərkəzi Seçki Komissiyası Katibliyinin müdiri İlqar Əlizadənin “Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə vətəndaşların seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin seçki komissiyalarında araşdırılması prinsipləri və xüsusiyyətləri” mövzularında çıxışları dinlənilib.

Seminar-müşavirəyə seçki mübahisələrinin məhkəmə qaydasında həlli ilə bağlı fikir mübadiləsi və müzakirələrdən sonra yekun vurulub.

# “Polis əməkdaşları üçün yaddaş kitabçası”

**Sentyabrın 1-nə təyin edilmiş Milli Məclisə növbədənkənar seçkilərlə əlaqədar Mərkəzi Seçki Komissiyası Daxili İşlər Nazirliyi ilə birgə “Polis əməkdaşları üçün yaddaş kitabçası” hazırlayıb.**

Qurumlararası əməkdaşlıq çərçivəsində gerçəkləşdirilən layihə Milli Məclisə seçkilərdə polis əməkdaşlarının xidməti fəaliyyətinin daha da təkmilləşdirilməsi və məlumatlılığının artırılmasına hədəflənib. Nəşrdə Milli Məclisə seçkilərin hazırlanması və keçirilməsi dövründə, seçkiqabağı təşviqat mərhələsində, səsvermə günü, habelə rəsmi seçki sənədlərinin daşınması və mühafizə olunması proseslərində polis əməkdaşlarının qanunvericiliklə müəyyənləşdirilmiş rol və vəzifələri, xidməti vəzifələrinə uyğun həyata keçirəcəyi tədbirlər ətraflı izah olunub.

Azərbaycan Respublikasının Konstitusiyası, Seçki Məcəlləsi, “Polis haqqında” Azərbaycan Respublikasının Qanunu və Mərkəzi Seçki Komissiyasının təsdiq etdiyi normativ xarakterli sənədlər əsasında tərtib olunan kitabça polis əməkdaşlarının istifadəsi üçün nəzərdə tutulub.




# Məhkəmələr seçkiyə hazırdır

**Ali Məhkəmənin və Məhkəmə-Hüquq Şurasının sədri İnam Kərimov 2024-cü il sentyabrın 1-də keçiriləcək növbədənkənar parlament seçkilərində seçki mübahisələrinin məhkəmə qaydasında həllinə həsr olunan seminarda deyib ki, məhkəmələr bu seçkilərdə də üzərilərinə düşən vəzifələri həyata keçirməyə hazırdır. Seçki Məcəlləsi seçki hüquqlarını pozan qərar və hərəkətlərdən (hərəkətsizlikdən) şikayət vermək hüququ olan şəxslərin geniş əhatə dairəsini müəyyən edir:**



Onun sözlərinə görə, bu şəxslərin dairəsinə seçicilər, namizədlər, qeydə alınmış namizədlər, siyasi partiyalar, siyasi partiyaların blokları, namizədlərin, siyasi partiyaların, siyasi partiyalar bloklarının vəkil edilmiş şəxsləri, müşahidəçilər, habelə seçki komissiyaları aiddir: ”Şikayət iki formada - inzibati və ya məhkəmə qaydasında verilə bilər. Dairə seçki komissiyasının qərarından Mərkəzi Seçki Komissiyasına, Mərkəzi Seçki Komissiyasının qərarından və ya hərəkətindən (hərəkətsizliyindən) isə apellyasiya instansiyası məhkəməsinə şikayət verilə bilər. Başqa sözlə, şikayət ilkin olaraq yuxarı seçki komissiyası tərəfindən təmin edilməzsə, məhkəməyə şikayət edilə bilər”.

# İyirmi beynəlxalq təşkilata dəvət göndərilib



**Xarici İşlər Nazirliyindən verilən məlumata görə, Milli Məclisə sentyabrın 1-də keçiriləcək növbədənkənar seçkilərlə əlaqədar Azərbaycan 20 beynəlxalq təşkilata dəvət göndərib.**

Xarici İşlər Nazirliyi tərəfindən seçkiləri izləmək üçün 7 beynəlxalq təşkilata dəvət göndərilib. Bunlar ATƏT DTİHB, Müstəqil Dövlətlər Birliyi (MDB), İslam Əməkdaşlıq Təşkilatı (İƏT), GUAM, Qoşulmama Hərəkatı Gənclər Təşkilatı, Şanxay Əməkdaşlıq Təşkilatı (ŞƏT) və Türk Dövlətləri Təşkilatıdır (TDT).

Milli Məclis tərəfindən isə 13 beynəlxalq təşkilata dəvət göndərilib. Bunlar arasında ATƏT PA, MDB PA, TÜRKPA, İslam Əməkdaşlığı Təşkilatı Parlament İttifaqı (İƏT Pİ), Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Məclisi (QDİƏTPM), GUAM PA, Asiya Parlament Assambleyası (APA), Pan-Afrika Parlamenti, İqtisadi Əməkdaşlıq Təşkilatının Parlament Assambleyası (İƏT PA), Cənub-Şərqi Asiya Dövlətləri Assosiasiyasının Parlamentlərarası Assambleyası (AIPA), Ərəb Parlamenti, Beynəlxalq Parlamentarilər Konqresi (IPC), Asiya Siyasi Partiyaları Beynəlxalq Konfransı (ICAPP) yer alır.

# Seçki xəbərləri

**Sentyabrın 1-də Milli Məclisə növbədənkənar seçkilərdə 125 seçki dairəsi üzrə 6545 seçki məntəqəsində səsvermə təşkil olunacaq.**



***

İşğaldan azad olunmuş ərazilərdə daha 8 seçki məntəqəsi yaradılıb.

***

Son məlumatlara görə, seçki hüququna mailk Azərbaycan vətəndaşlarının sayı 6 milyon 334 min 444 nəfərdir.

***

Bugünədək 125 dairə üzrə 1048 nəfər namizəd olmaq üçün müraciət edib.

***

İşğaldan azad edilmiş ərazilərdə 34 daimi seçki məntəqəsi tam formalaşdırılıb.

***

Növbədənkənar parlament seçkilərində iştirak etmək üçün 700 nəfərin namizədliyinin irəli sürülməsi təsdiq edilib.

***

Namizədliyini irəli sürənlərdən 609 nəfər imza vərəqləri götürüb, 57 nəfər imza vərəqlərini geri qaytarıb.

***

Növbədənkənar parlament seçkilərində iştirak etmək üçün 16 nəfərin namizədliyi qeydə alınıb.

***

Bugünədək 480 yerli müşahidəçi qeydə alınıb. Onlardan 344 nəfəri öz təşəbbüsü, 10 nəfəri QHT xətti ilə, 126 nəfəri isə xüsusi icazə almış müşahidəçilərdir.

***

MSK tərəfindən 6 milyon 516 min 567 bildirişin capı nəzərdə tutulub.

***

Seçkilərdə iştirak etmək üçün 26 siyasi partiyadan 25-i MSK-ya müraciət edib. 23 siyasi partiyanın 585 səlahiyyətli nümayəndəsi artıq MSK-da qeydiyyatdan keçib.

***

Seçki mübahisələrinin məhkəmə qaydasında həllinə həsr olunan layihəyə start verilib.

***Səhifəni hazırladı:***
***Əliqismət BƏDƏLOV***
***XQ***

# Azərbaycan Respublikası Dövlət İmtahan Mərkəzi publik hüquqi şəxsin nizamnaməsi

**(əvvəli 2-ci səhifədə)**

3.1.11. Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə əsasən Azərbaycan Respublikası vətəndaşlarının xarici dövlətlərin ali təhsil müəssisələrinə, əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasının ali təhsil müəssisələrinə tələbə qəbulunu həyata keçirmək;

3.1.12. yekun attestasiyanın təşkili məqsədilə ümumi təhsil müəssisələrinin V-XI sinif şagirdləri arasında monitorinq imtahanlarını keçirmək;

3.1.13. imtahan fənləri üzrə qəbul proqramlarını hazırlamaq və Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi ilə razılaşdırmaqla təsdiq etmək;

3.1.14. ölçmə-qiymətləndirmə materiallarının nümunələrini rəy bildirmək üçün Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinə təqdim etmək;

3.1.15. təhsil müəssisələrinin qəbul göstəricilərini və ixtisasları elan etmək, sənəd qəbulu və imtahanların keçirilməsi haqqında qərarlar qəbul etmək, sənəd qəbulunu təşkil etmək;

3.1.16. tələbə qəbulu ilə bağlı bütün təşkilati və metodik işləri aparmaq, proqram və texniki təminatı layihələndirmək və tətbiq etmək;

3.1.17. abituriyentlərin biliyinin qiymətləndirilməsini həyata keçirmək;

3.1.18. Azərbaycan Respublikasının Prezidentinə tələbə qəbulu ilə, dövlət qulluğuna qəbulla və inzibati vəzifələrin tutulması ilə bağlı vaxtaşırı məlumat və hesabatlar təqdim etmək;

3.1.19. qəbul kampaniyasının keçirildiyi müddətdə müxtəlif bölgələrdə sənəd qəbulu komissiyaları yaratmaq və onların fəaliyyətinə nəzarət etmək;

3.1.20. abituriyentlər, təhsil müəssisələri, təşkilatlar, onların vəzifəli şəxsləri və digər şəxslər tərəfindən qəbul prosesi və ümumi təhsil pilləsində təhsilalanların yekun attestasiyası zamanı yol verilmiş pozuntu hallarının aradan qaldırılması ilə bağlı təqdimat vermək və pozuntu halları barədə aidiyyəti dövlət orqanlarına (qurumlarına) məlumat vermək;

3.1.21. müasir informasiya texnologiyaları tətbiq etməklə, tələbələr və magistrlər haqqında informasiya resurslarını formalaşdırmaq və onların təhlilini aparmaq;

3.1.22. peşə təhsili, orta ixtisas təhsili və ali təhsil müəssisələrini bitirmiş şəxslərin uçotunu elektron qaydada aparmaq;

3.1.23. ümumi təhsili həyata keçirən təhsil müəssisələrində ümumtəhsil fənləri üzrə istifadə edilən bütün dərsliklərin, dərs vəsaitlərinin və digər tədris-metodik vəsaitlərin Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin sifarişi əsasında elmi-metodik monitorinqini həyata keçirmək;

3.1.24. "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, dövlət qulluğuna qəbul və dövlət qulluğunda fəaliyyətin davam etdirilməsi üçün test imtahanları keçirmək və dövlət qulluğu vəzifələrinin tutulması üçün keçirilən müsabiqənin, o cümlədən dövlət qulluğunda fəaliyyətin davam etdirilməsi üçün keçirilən test imtahanlarının şəffaflığını təmin etmək;

3.1.25. dövlət qulluğuna qəbul və dövlət qulluğunda fəaliyyətin davam etdirilməsi üzrə test imtahanının məzmununu və proqramlarını təsdiq etmək, inzibati vəzifələrin tutulması üzrə müsahibə proqramlarının hazırlanmasında iştirak etmək və təsdiqinə razılıq vermək, təsdiq edilmiş test imtahanı və müsahibə proqramlarını rəsmi internet saytında yerləşdirmək;

3.1.26. "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, dövlət qulluğuna qəbul və dövlət qulluğunda fəaliyyətin davam etdirilməsi üçün test imtahanından keçən şəxslərə sertifikat vermək, habelə verdiyi sertifikatların uçotunu aparmaq;

3.1.27. 1–5-ci kateqoriya dövlət orqanlarında inzibati vəzifələrin birinci–yeddinci təsnifatlarına uyğun olan vəzifələr üzrə vəzifə təlimatlarının təsdiqinə razılıq vermək;

3.1.28. dövlət orqanları tərəfindən müsahibə elan edilməsi nəzərdə tutulan vakant dövlət qulluğu vəzifələrinə dair müsahibə məlumatlarının (müvafiq vəzifə üzrə vəzifə təlimatının, müsahibə proqramlarının, müsahibə elanının, müsahibənin keçirilmə qrafikinin, keçirilmiş müsahibənin nəticələrinin) rəsmi internet saytında yerləşdirilməsini təmin etmək;

3.1.29. müsahibədə, o cümlədən daxili və ümumi müsahibədə iştirak üçün müraciət etmiş namizədin müvafiq vakant vəzifənin tutulması şərtlərinə uyğunluğunu yoxlamaq;

3.1.30. müsahibədə iştirak etmək istəyən şəxsin müraciətinin və müsahibədə iştirak üçün tələb olunan sənədlərin dövlət orqanlarına təqdim olunmasını təmin etmək;

3.1.31. "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, dövlət orqanının yaratdığı müsahibə komissiyasının tərkibinə nümayəndələr təqdim etmək;

3.1.32. dövlət orqanlarının nümayəndələri və müstəqil ekspertlər üçün müsahibənin aparılması üzrə təlimlər təşkil etmək;

3.1.33. imtahanlarla, o cümlədən dövlət qulluğuna qəbul və dövlət qulluğunda fəaliyyətin davam etdirilməsi üzrə test imtahanları ilə, inzibati vəzifələrin tutulması üzrə müsahibələrlə bağlı xüsusi halların araşdırılması üçün komissiyalar yaratmaq;

3.1.34. buraxılış və qəbul imtahanlarının yekunlarına dair elmi-statistik təhlil aparmaq, nəticələrini Azərbaycan Respublikasının Prezidentinə və Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinə təqdim etmək;

3.1.35. dövlət qulluğuna dair qanunvericiliyin icra vəziyyətini öyrənmək, bu barədə hesabat hazırlamaq və Azərbaycan Respublikasının Dövlət Qulluğunu İdarəetmə Şurasına təqdim etmək;

3.1.36. dövlət orqanlarının dövlət qulluğu ilə bağlı qanunsuz aktlarının ləğv edilməsinə dair təkliflər vermək;

3.1.37. dövlət qulluqçuları tərəfindən etik davranış qaydalarına əməl edilməsi vəziyyətini öyrənmək, bu barədə məlumatları ümumiləşdirmək, araşdırmalar aparmaq, tövsiyələr hazırlamaq;

3.1.38. "Dövlət qulluqçularının etik davranış qaydaları haqqında" Azərbaycan Respublikası Qanununun müddəalarının pozulması ilə bağlı şikayət və məlumatları qəbul etmək, daxil olmuş materiallarda hüquqpozmaların əlamətləri olduqda, həmin materialları yoxlanılmaq üçün aidiyyəti dövlət orqanlarına göndərmək;

3.1.39. dövlət qulluğu və dövlət qulluqçularının etik davranış qaydaları haqqında qanunvericiliyin tələblərinin pozulması hallarını aradan qaldırmaq üçün dövlət orqanlarına və vəzifəli şəxslərə təqdimat vermək və yol verilmiş pozuntu halları barədə Azərbaycan Respublikasının Prezidentinə və Azərbaycan Respublikasının Dövlət Qulluğunu İdarəetmə Şurasına məlumat vermək;

3.1.40. dövlət qulluğu və dövlət qulluqçularının etik davranış qaydaları barədə maarifləndirmə işi aparmaq;

3.1.41. dövlət qulluqçularının reyestrinin aparılmasını və dövlət qulluqçularının xidməti fəaliyyətinin qiymətləndirilməsi barədə məlumatların həmin reyestrə daxil edilməsini təmin etmək;

3.1.42. fəaliyyət istiqamətləri üzrə dövlət orqanlarının (qurumlarının), yerli özünüidarəetmə orqanlarının, hüquqi və fiziki şəxslərin fəaliyyətini əlaqələndirmək;

3.1.43. fəaliyyət istiqamətləri üzrə elektron xidmətləri "Dövlət informasiya ehtiyatları və sistemlərinin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi Qaydaları"nın təsdiq edilməsi və elektron hökumətlə bağlı bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 sentyabr tarixli 263 nömrəli Fərmanına uyğun olaraq təşkil etmək;

3.1.44. Mərkəzin fəaliyyəti ilə bağlı daxil olan müraciətlərə "Vətəndaşların müraciətləri haqqında", "İnzibati icraat haqqında" və "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının qanunlarına uyğun olaraq baxmaq və qanunla müəyyən edilmiş qaydada tədbirlər görmək;

3.1.45. kargüzarlığı və vətəndaşların qəbulunu müvafiq normativ hüquqi aktların tələblərinə uyğun təşkil etmək, Mərkəz əməkdaşlarının əlavə təhsili və peşəkarlığının yüksəldilməsi üçün tədbirlər görmək;

3.1.46. öz fəaliyyəti haqqında əhalinin məlumatlandırılmasını, internet saytının yaradılmasını, malik olduğu və siyahısı "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş açıqlanmalı olan ictimai informasiyanın həmin saytda yerləşdirilməsini və bu informasiyanın daim yenilənməsini təmin etmək;

3.1.47. Mərkəzə ayrılan büdcə vəsaitindən, kredit, qrant və digər maliyyə vəsaitindən təyinatı üzrə səmərəli istifadə olunmasını təmin etmək;

3.1.48. dövlət və kommersiya sirrinin, habelə məxfilik rejiminin qorunması üçün tədbirlər görmək;

3.1.49. Mərkəzin informasiya təminatını təşkil etmək və onun təhlükəsizliyini təmin etmək;

3.1.50. Mərkəzin strukturunun və fəaliyyətinin təkmilləşdirilməsi üçün tədbirlər görmək;

3.1.51. qabaqcıl beynəlxalq təcrübəni nəzərə almaqla, fəaliyyət istiqamətləri üzrə elmi-texniki nailiyyətlərin tətbiqini təmin etmək;

3.1.52. fəaliyyət istiqamətlərinə uyğun olaraq peşəkar mütəxəssislərin hazırlanması və tədris proqramlarının tərtibi ilə bağlı təkliflər vermək və onların həyata keçirilməsində iştirak etmək;

3.1.53. bu Nizamnamə ilə müəyyən edilmiş digər vəzifələri həyata keçirmək.

3.2. Öz vəzifələrini yerinə yetirmək üçün Mərkəzin aşağıdakı hüquqları vardır:

3.2.1. fəaliyyət istiqamətləri üzrə normativ hüquqi aktın layihəsinin qəbul olunması, aktda dəyişikliklər edilməsi, aktın şərh edilməsi, qüvvəsinin dayandırılması və ya ləğv edilməsi haqqında aidiyyəti üzrə təklif vermək;

3.2.2. fəaliyyət istiqamətləri üzrə beynəlxalq müqavilələrə Azərbaycan Respublikasının tərəfdar çıxması barədə təkliflər vermək;

3.2.3. dövlət qulluğunda təlim tələbatını müəyyən etmək, Azərbaycan Respublikasının Dövlət Qulluğunu İdarəetmə Şurası ilə razılaşdırmaqla, dövlət qulluqçuları üçün təlim strategiyasını hazırlamaq, habelə dövlət orqanlarına dövlət qulluqçularının əlavə təhsili barədə təkliflər vermək;

3.2.4. ilk dəfə dövlət qulluğuna qəbul olan şəxslər üçün dövlət qulluğuna dair qanunvericiliyin tətbiqi, etik davranış, maraqlar toqquşması, korrupsiyaya qarşı mübarizə və s. məsələlər üzrə, rəhbər vəzifə tutan dövlət qulluqçuları üçün isə idarəetmə və komanda qurmaq və s. məsələlər üzrə təlim kursları təşkil etmək;

3.2.5. dövlət orqanlarından vakant olan dövlət qulluğu vəzifələrinin siyahılarını, dövlət orqanları tərəfindən barəsində müsahibə elan edilməsi nəzərdə tutulan vakant dövlət qulluğu vəzifələrinə dair müsahibə məlumatlarını və vakant vəzifəyə təyinata dair məlumatı tələb etmək;

3.2.6. müxtəlif qurumların (şəxslərin) müraciəti əsasında tələb olunan sahədə şəxsin bilik səviyyəsini qiymətləndirmək;

3.2.7. ödənişli əsaslarla sınaq imtahanları keçirmək, ödənişli elektron xidmətlər göstərmək və müqavilə əsasında hazırlıq kursları, təlimlər təşkil etmək;

3.2.8. test imtahanlarının məzmunu və mahiyyəti haqqında müxtəlif metodik vəsaitlər və test topluları hazırlamaq, bu materialları təqdim etmək, rəsmi internet səhifəsində yerləşdirmək və ya dərc etmək;

3.2.9. yaradılmış test bankının mütəmadi təftişini aparmaq;

3.2.10. beynəlxalq təcrübənin tətbiqi imkanlarının araşdırılması məqsədilə beynəlxalq təşkilatlarla, xarici dövlətlərin müvafiq qurumları ilə, o cümlədən beynəlxalq imtahanları keçirən təşkilatlarla əməkdaşlıq etmək, xarici dövlətlərin müvafiq təcrübəsini öyrənmək, beynəlxalq imtahanların Azərbaycan Respublikasında keçirilməsini təmin etmək;

3.2.11. fəaliyyət istiqamətlərinə aid olan məsələlərlə bağlı araşdırmalar aparmaq, işçi qruplar və komissiyalar yaratmaq;

3.2.12. dövlət orqanlarına (qurumlarına), yerli özünüidarəetmə orqanlarına, hüquqi və fiziki şəxslərə zəruri məlumatlar (sənədlər) barədə sorğu vermək və onlardan belə məlumatları (sənədləri) almaq;

3.2.13. fəaliyyət istiqamətləri üzrə rəy və təkliflər vermək, təhlillər, tədqiqatlar və ümumiləşdirmələr aparmaq, habelə analitik materiallar hazırlamaq;

3.2.14. fəaliyyət istiqamətlərinə aid məsələlərlə bağlı konfranslar, müşavirələr, seminarlar keçirmək və digər tədbirlər təşkil etmək;

3.2.15. müstəqil ekspertləri və mütəxəssisləri öz fəaliyyətinə cəlb etmək;

3.2.16. əməkdaşlarını dövlət təltiflərinə və digər mükafatlara təqdim etmək, onların həvəsləndirilməsi üçün tədbirlər görmək;

3.2.17. sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq, təsərrüfat cəmiyyətləri yaratmaq və ya onlarda iştirak etmək;

3.2.18. çap mediası subyektini təsis etmək, xüsusi bülletenlər və digər nəşrlər buraxmaq;

3.2.19. bu Nizamnamə ilə müəyyən edilmiş digər hüquqları həyata keçirmək.

**4. Mərkəzin idarə olunması**

4.1. Mərkəz öz fəaliyyətində mütərəqqi korporativ idarəetmə standartlarını tətbiq edir.

4.2. Mərkəzin idarəetmə orqanları Müşahidə Şurası və İdarə Heyətidir.

4.3. Mərkəzin Müşahidə Şurası (bundan sonra – Şura) Mərkəzə ümumi rəhbərliyi və nəzarəti həyata keçirir.

4.4. Şura Azərbaycan Respublikası Prezidentinin vəzifəyə təyin və vəzifədən azad etdiyi 5 (beş) üzvdən – Şuranın sədrindən və digər üzvlərdən ibarətdir.

4.5. Şura ictimai (ödənişsiz) əsaslarla fəaliyyət göstərir.

4.6. Şura qərar qəbul etməkdə müstəqildir.

4.7. Şuranın vəzifələri aşağıdakılardır:

4.7.1. təsisçinin səlahiyyətlərinin həyata keçirilməsi üçün Azərbaycan Respublikasının Prezidentinə təkliflər vermək və sənədlər (o cümlədən Mərkəzin maliyyə hesabatını və fəaliyyətinə dair illik hesabatı) təqdim etmək;

4.7.2. Mərkəzin inkişaf istiqamətlərini, strateji məqsəd və planlarını müəyyən etmək;

4.7.3. Mərkəzin fəaliyyətinə nəzarət etmək;

4.7.4. Mərkəzin strukturunu, əməyin ödənişi fondunu, işçilərin say həddini və onların əməkhaqlarının məbləğini (vəzifə maaşını, vəzifə maaşına əlavələri, mükafatları və digər ödənişləri) təsdiq etmək, o cümlədən Mərkəzin əldə etdiyi vəsait (dövlət büdcəsindən və dövlətə məxsus digər fondlardan ayrılan vəsait istisna olmaqla) hesabına işçilərə əlavə ödənilən həvəsləndirmə sistemini müəyyənləşdirmək;

4.7.5. Mərkəzin təsərrüfat cəmiyyətlərinin yaradılması və ya onlarda iştirak barədə, həmçinin Mərkəzin idarə, filial və nümayəndəliklərinin yaradılması barədə qərar qəbul etmək;

4.7.6. Mərkəzin maliyyə planlaşdırmasını və büdcəsini təsdiq etmək;

4.7.7. Mərkəzin fəaliyyətinə dair daxili qaydaları (o cümlədən maraqlar münaqişəsinin istisna olunması qaydasını), habelə Mərkəzin idarə, filial və nümayəndəliklərinin əsasnamələrini, təsərrüfat cəmiyyətlərinin nizamnamələrini təsdiq etmək;

4.7.8. İdarə Heyətinin fəaliyyətinə nəzarət etmək və onun fəaliyyətini yoxlamaq;

4.7.9. Şura üzvlərinin və İdarə Heyətinin müraciətlərinə baxmaq və qərar qəbul etmək;

4.7.10. Mərkəzin fəaliyyətinə dair illik hesabatı dinləmək;

4.7.11. Mərkəzin kənar auditorunu təyin etmək və audit hesabatını qəbul etmək;

4.7.12. kənar auditorun yoxlamalarının, habelə digər yoxlamaların nəticələrinə dair tədbirlər görmək;

4.7.13. daxili audit bölməsinin fəaliyyətinə nəzarət etmək və fəaliyyətinə dair hesabatlar almaq, habelə onun üzvlərini vəzifəyə təyin və vəzifədən azad etmək;

4.7.14. Mərkəzin xalis aktivlərinin dəyərinin 25 faizindən artıq məbləğdə olan əqdin (xüsusi əhəmiyyətli əqdin) və aidiyyəti şəxslə dəyəri Mərkəzin aktivlərinin 5 faizini və daha çox hissəsini təşkil edən əqdin bağlanması haqqında qərar qəbul etmək.

4.8. Şuranın sədri ildə azı dörd dəfə olmaqla Şuranın iclaslarını çağırır və iclaslara sədrlik edir. Şuranın iclaslarının keçirilməsi təşəbbüsü ilə Şuranın üzvü və ya İdarə Heyətinin sədri çıxış edir. Şuranın iclasları Şura üzvlərinin yarıdan çoxu iştirak etdikdə səlahiyyətlidir. Şuranın iclasında, hər üzvün bir səsi olmaqla, qərarlar açıq səsvermə yolu ilə sadə səs çoxluğu ilə qəbul edilir. Səsvermə zamanı üzvlərin bitərəf qalmasına icazə verilmir. Səslər bərabər olduqda, iclasa sədrlik edənin səsi həlledicidir.

4.9. Şuranın üzvlərinə, habelə İdarə Heyətinin sədrinə və Şuranın iclaslarına dəvət olunan şəxslərə Şuranın iclaslarının keçiriləcəyi yer və vaxt, habelə gündəliyə daxil edilmiş məsələlər barədə iclasa azı 3 (üç) iş günü qalmış, zəruri sənədlər əlavə edilməklə yazılı məlumat verilir.

4.10. Şuranın iclasında İdarə Heyətinin sədri də iştirak edə bilər.

4.11. İclasın gündəliyinə Şuranın hər hansı üzvünün maraqlarına toxunan məsələ çıxarıldıqda, həmin üzv bununla bağlı maraqları haqqında ətraflı məlumat verməli, bu məsələnin müzakirəsində və səsvermədə iştirak etməməlidir.

4.12. Gündəliyə daxil edilməmiş və ya tələb olunan aidiyyəti sənədləri iclasdan qabaq təqdim edilməmiş məsələlər barədə, bütün iştirakçı üzvlərin razılıq verdiyi hallar istisna olmaqla, qərar qəbul edilə bilməz.

4.13. Şuranın iclasının nəticəsi Şura üzvlərinin və katibinin imzaladıqları protokolda əks olunmaqla rəsmiləşdirilir. Şuranın katibi Şuranın iclasında iştirak edə bilmədikdə, Şuranın sədri onu əvəz edəcək şəxsi təyin edir. Şura protokolu təsdiq edərək İdarə Heyətinin sədrinə göndərir.

4.14. Şuranın katibini Şuranın üzvü olmayan əməkdaşlar sırasından Şuranın sədri təyin edir və Şuranın katibi Şuranın sədrinə hesabat verir.

4.15. Şuranın katibi:

4.15.1. Şuranın iclaslarını təşkil edir;

4.15.2. bu Nizamnamənin 4.9-cu bəndində nəzərdə tutulmuş vəzifəni icra edir;

4.15.3. Şuranın iclaslarının protokollarını tərtib edir və imzalanmaq üçün Şuranın üzvlərinə təqdim edir;

4.15.4. Şuranın qərarlarının layihələrini hazırlayır, baxılmaq və imzalanmaq üçün Şuranın sədrinə təqdim edir;

4.15.5. Şuranın qəbul etdiyi qərarların aidiyyəti üzrə göndərilməsini təmin edir.

4.16. Şuranın sədri:

4.16.1. Şuranın işini təşkil edir və onun fəaliyyətinə rəhbərlik edir, habelə özünün və Mərkəzin vəzifəli şəxslərinin qanunvericiliyə zidd olan qərarlarını ləğv edir;

4.16.2. Şuranın iclaslarının gündəliyini müəyyənləşdirir, iclaslar çağırır və iclaslara sədrlik edir;

4.16.3. öz təşəbbüsü ilə, habelə Şuranın hər hansı digər üzvünün və ya İdarə Heyəti sədrinin xahişi əsasında digər şəxsləri Şuranın iclasında iştirak etməyə dəvət edir;

4.16.4. Şuranın fəaliyyətinin təşkili ilə bağlı digər tədbirlər görür.

4.17. Şura sədri müvəqqəti olmadıqda onun səlahiyyətlərini müvafiq əmrlə Şuranın üzvləri arasından sədrin müəyyən etdiyi şəxs icra edir.

4.18. Şuranın üzvləri:

4.18.1. Şuranın səlahiyyətlərinə aid məsələlərin həllində iştirak edirlər;

4.18.2. Şuranın iclasının gündəliyi ilə və baxılması nəzərdə tutulan materiallarla əvvəlcədən tanış olurlar;

4.18.3. Şurada qəbul ediləcək qərarlara dair fikir bildirirlər;

4.18.4. Şuranın səlahiyyətlərinə aid məsələlərə Şuranın iclaslarında baxmaq barədə təklif verirlər;

4.18.5. Şuranın qərarları, iclas protokolları və digər sənədlərlə tanış olurlar.

4.19. Şura üzvləri Şuranın iclaslarında baxılan məsələlərə qərəzsiz yanaşmalı, Şura üzvünün adına xələl gətirə biləcək hərəkətlərə və çıxışlara yol verməməlidirlər, həmçinin Azərbaycan Respublikası Mülki Məcəlləsinin 49-cu maddəsində müəyyən edilmiş digər tələbləri yerinə yetirməlidirlər.

4.20. Mərkəzin fəaliyyətinə cari rəhbərliyi 3 (üç) üzvdən – Azərbaycan Respublikası Prezidentinin vəzifəyə təyin və vəzifədən azad etdiyi sədrdən və sədrin 2 (iki) müavinindən ibarət İdarə Heyəti həyata keçirir.

4.21. İdarə Heyətinin sədri müvəqqəti olmadıqda, onun səlahiyyətlərini sədrin müəyyən etdiyi müavinlərindən biri həyata keçirir.

4.22. İdarə Heyətinin iclasları ayda azı iki dəfə çağırılır. İdarə Heyətinin iclaslarının keçirilməsi təşəbbüsü ilə İdarə Heyətinin üzvü və ya Şura çıxış edir. İdarə Heyətinin iclasları üzvlərinin yarıdan çoxu iştirak etdikdə səlahiyyətlidir. İdarə Heyətinin iclasında qərarlar, hər üzvün bir səsi olmaqla, sadə səs çoxluğu ilə qəbul edilir. Səsvermə zamanı üzvlərin bitərəf qalmasına icazə verilmir. Səslərin sayı bərabər olduqda, iclasa sədrlik edənin səsi həlledicidir. İdarə Heyətinin iclasına münasibətdə bu Nizamnamənin 4.9-cu, 4.11-ci və 4.12-ci bəndlərində nəzərdə tutulmuş müddəalar tətbiq edilir.

4.23. İdarə Heyətinin vəzifələri aşağıdakılardır:

4.23.1. Mərkəzin fəaliyyətini təşkil etmək;

4.23.2. Şuranın qərarlarını icra etmək;

4.23.3. bu Nizamnamə ilə müəyyən edilmiş vəzifələrin yerinə yetirilməsi üçün Şuraya təkliflər vermək və sənədlər təqdim etmək;

4.23.4. aidiyyəti şəxslə dəyəri Mərkəzin aktivlərinin 5 faizinədək hissəsini təşkil edən əqdin bağlanması haqqında qərar qəbul etmək;

4.23.5. Mərkəzin strateji məqsədlərinin və planlarının, habelə büdcəsinin icrasına nəzarət etmək;

4.23.6. bu Nizamnamənin 3.1.47-ci yarımbəndində nəzərdə tutulan vəsaitdən təyinatı üzrə səmərəli istifadə olunmasını təmin etmək;

4.23.7. cari və operativ məsələlər barədə Şuranı məlumatlandırmaq;

4.23.8. İdarə Heyəti üzvlərinin müraciətlərinə baxmaq və qərar qəbul etmək;

4.23.9. bu Nizamnamənin 3.1.1-ci və 3.2.1-ci yarımbəndlərində nəzərdə tutulmuş məsələlərin həlli üçün tədbirlər görmək;

4.23.10. Şuranın və İdarə Heyəti sədrinin səlahiyyətlərinə aid edilməyən bütün digər məsələlər barədə qərar vermək.

4.24. İdarə Heyətinin sədri aşağıdakı vəzifələri yerinə yetirir:

4.24.1. Mərkəzin cari fəaliyyətinə rəhbərlik edir və onu təmsil edir;

4.24.2. İdarə Heyətinin fəaliyyətini təşkil edir, iclaslarının gündəliyini müəyyənləşdirir və iclaslarına sədrlik edir;

4.24.3. öz təşəbbüsü ilə, İdarə Heyətinin digər üzvünün və ya Şuranın təşəbbüsü ilə İdarə Heyətinin iclaslarını çağırır;

4.24.4. öz təşəbbüsü ilə, habelə İdarə Heyətinin hər hansı bir üzvünün xahişi əsasında digər şəxsləri İdarə Heyətinin iclasında iştirak etməyə dəvət edir;

4.24.5. Mərkəzin fəaliyyətinin təşkili ilə əlaqədar icrası məcburi olan daxili sərəncam və əmrlər verir;

4.24.6. Mərkəzin fəaliyyət istiqamətlərinə dair qəbul olunmuş aktların icrasını təşkil edir, yoxlayır və buna nəzarəti həyata keçirir;

4.24.7. özünün və Mərkəzin struktur bölmələrinin vəzifəli şəxslərinin qanunvericiliyə zidd olan qərarlarını ləğv edir;

4.24.8. müəyyən edilmiş struktur, əməyin ödənişi fondu və işçilərin say həddi daxilində Mərkəzin Aparatının və digər struktur bölmələrinin strukturunu, ştat cədvəlini və xərclər smetasını təsdiq edir;

4.24.9. Mərkəzin işçilərinin vəzifə maaşlarının, vəzifə maaşlarına əlavələrin, mükafatların və digər ödənişlərin verilməsini əməyin ödənişi fondu çərçivəsində təşkil edir;

4.24.10. bu Nizamnamədə müəyyən edilmiş hallar istisna olmaqla, Mərkəzin, o cümlədən onun idarə, filial və nümayəndəliklərinin, habelə tabeliyindəki digər qurumların işçilərinin (təsərrüfat cəmiyyətlərində isə yalnız rəhbərlərin) vəzifəyə təyin və vəzifədən azad edilməsi, onlar barəsində həvəsləndirmə və intizam tənbehi tədbirləri görülməsi barədə qərarlar qəbul edir;

4.24.11. Mərkəzin əmlakından bu Nizamnamədə nəzərdə tutulmuş məqsədlərə uyğun istifadə olunmasına nəzarət edir;

4.24.12. bu Nizamnamə ilə müəyyən edilmiş səlahiyyətlər çərçivəsində Mərkəzin adından əməliyyatlar aparır, müqavilələr bağlayır və onların yerinə yetirilməsini təmin edir;

4.24.13. Mərkəzin fəaliyyət istiqamətləri ilə bağlı məşvərətçi komitələr və işçi qruplar yaradır;

4.24.14. Mərkəzin fəaliyyət istiqamətləri üzrə dövlət sirrinin və məxfilik rejiminin, habelə qanunla qorunan digər məlumatların mühafizəsi üçün zəruri tədbirlər görür;

4.24.15. Mərkəzdə kargüzarlıq və arxiv işinin aparılmasını təmin edir;

4.24.16. Mərkəzdə müraciətlərə baxılmanı və vətəndaşların qəbulunu təmin edir.

4.25. İdarə Heyətinin üzvləri:

4.25.1. İdarə Heyətinin səlahiyyətlərinə aid olan məsələlərin həllində iştirak edirlər;

4.25.2. İdarə Heyətinin iclasının gündəliyi ilə və baxılması nəzərdə tutulmuş materiallarla əvvəlcədən tanış olurlar;

4.25.3. İdarə Heyətinin qəbul ediləcək qərarlarına dair fikir bildirirlər;

4.25.4. İdarə Heyətinin səlahiyyətlərinə aid məsələlərə İdarə Heyətinin iclaslarında baxmaq barədə təklif verirlər;

4.25.5. İdarə Heyətinin qərarları, iclas protokolları və digər sənədlərlə tanış olurlar.

4.26. İdarə Heyətinin üzvləri İdarə Heyətinin iclaslarında baxılan məsələlərə qərəzsiz yanaşmalı, İdarə Heyəti üzvünün adına xələl gətirə biləcək hərəkətlərə və çıxışlara yol verməməlidirlər, həmçinin Azərbaycan Respublikası Mülki Məcəlləsinin 49-cu maddəsində müəyyən edilmiş digər tələbləri yerinə yetirməlidirlər.

**5. Mərkəzin nizamnamə fondu, əmlakı və maliyyə fəaliyyətinin əsasları**

5.1. Mərkəzin nizamnamə fondunun məbləği 1 (bir) milyon manatdır.

5.2. Mərkəzin əmlakı nizamnamə fondundan, təsisçinin verdiyi digər əmlakdan, həmçinin dövlət büdcəsindən ayrılan vəsaitdən, fəaliyyətindən əldə olunmuş gəlirdən, ianələrdən, qrantlardan, cəlb edilən investisiyalardan və qanunla qadağan edilməyən digər vəsaitdən formalaşır.

5.3. Mərkəz öz əmlakından yalnız bu Nizamnamə ilə müəyyən olunmuş məqsədlərə uyğun istifadə edir. Mərkəz balansında olan dövlət əmlakına münasibətdə səlahiyyətlərini "Dövlət əmlakının qorunub saxlanılması və səmərəli istifadə edilməsinin təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 6 iyun tarixli 586 nömrəli Fərmanı ilə müəyyən edilmiş qaydada həyata keçirir.

5.4. Mərkəz qanunla nəzərdə tutulmuş vergiləri və digər məcburi ödənişləri ödədikdən sonra Mərkəzin, onun idarə, filial, nümayəndəlik və təsərrüfat cəmiyyətlərinin, habelə tabeliyindəki digər qurumların fəaliyyətindən əldə edilmiş vəsait üzərində müstəqil sərəncam vermək hüququna malikdir.

5.5. Mərkəzin mənfəəti bu Nizamnamədə nəzərdə tutulmayan məqsədlər üçün yalnız təsisçinin qərarı ilə dövlət büdcəsinə köçürülə bilər.

5.6. "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun 28.2-ci maddəsinə, "Təhsil haqqında" Azərbaycan Respublikası Qanununun 26.2-ci maddəsinə, "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikası Qanununun 14-1.2-ci maddəsinə, "Sığorta fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun 94-3.3-cü maddəsinə, "Aqrar sığorta haqqında" Azərbaycan Respublikası Qanununun 10.1-ci maddəsinə, "Avtomobil nəqliyyatı haqqında" Azərbaycan Respublikası Qanununun 27.4-cü və 50.2-ci maddələrinə, "Qiymətləndirmə fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun 6.2-ci maddəsinə uyğun olaraq Mərkəz tərəfindən göstərilən xidmətlərin qiymətləri dövlət tərəfindən tənzimlənən qiymətlərə (tariflərə) aiddir.

**6. Mərkəzin fəaliyyətinə nəzarətin forması və əhatə dairəsi**

6.1. Mərkəzin fəaliyyətinə nəzarəti təsisçi, həmçinin bu Nizamnamə ilə müəyyən edilmiş qaydada Mərkəzin idarəetmə orqanları həyata keçirirlər.

6.2. Mərkəzin fəaliyyətinə dair illik hesabat Azərbaycan Respublikasının Prezidentinə təqdim edilir.

**7. Mərkəzdə uçot və hesabat**

7.1. Mərkəz "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının Qanunu ilə publik hüquqi şəxslər üçün müəyyən edilmiş qaydada mühasibat uçotu aparır, maliyyə hesabatlarını tərtib, təqdim və dərc edir.

7.2. Mərkəz "Rəsmi statistika haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq statistik hesabatları tərtib və təqdim edir.

7.3. Mərkəz idarə, filial, nümayəndəlik və təsərrüfat cəmiyyətlərinin, habelə tabeliyindəki digər qurumların maliyyə-təsərrüfat fəaliyyətinin yoxlanılmasını təmin edir.

7.4. Mərkəz öz fəaliyyətinin müstəqil surətdə yoxlanılması üçün kənar auditor cəlb edir.

**8. Mərkəzin ləğvi və yenidən təşkili**

Mərkəzin ləğvini və yenidən təşkilini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 23 iyul 2024-cü il**

# Baş Prokurorluqda geniş kollegiya iclası



**Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyevin rəhbərliyi ilə geniş kollegiya iclası keçirilib. Baş prokuror K.Əliyev çıxışında 2024-cü ilin birinci yarımilində Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilmiş uğurlu daxili və xarici siyasət nəticəsində ölkəmizin yeni nailiyyətlər qazandığını, respublikamızda mühüm, əlamətdar hadisələrin yaşandığını bildirib. O, 2024-cü ilin Azərbaycanda "Yaşıl dünya naminə həmrəylik ili" elan edildiyini, həm bundan, həm də BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası – COP29-a evsahibliyi statusumuzun təhlükəsizlə bağlı tələblər və vəzifələr formalaşdırdığını diqqətə çatdırıb.**

Baş prokuror Kamran Əliyev çıxışında həmçinin prokurorluğun əsas fəaliyyət istiqamətləri üzrə görülən işlərə və statistik göstəricilərə istinad etməklə, hesabat dövründə Respublikada kriminogen durumun nəzarətdə saxlanıldığını, daxili işlər, dövlət təhlükəsizliyi və digər hüquq mühafizə orqanları ilə əlaqəli şəkildə ölkəmizdə ictimai-siyasi sabitliyin qorunduğunu, cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi sahəsində zəruri tədbirlərin görüldüyünü vurğulayıb. Bildirilib ki, cari ilin birinci yarımilində ölkə ərazisində 18518 cinayət qeydə alınmaqla onların 87,6 faizinin açılması təmin edilmiş, 2023-cü ilin birinci yarımili ilə müqayisədə qeydə alınan cinayətlərin sayında 1015 fakt və ya 5,2 faiz azalma olmuş, ümumilikdə ölkə üzrə cəmi 8819 cinayət işinin istintaqı tamamlanmışdır ki, bunlardan 524-ü prokurorluq orqanlarında isintaq edilmişdir.

Bu müddət ərzində prokurorluq orqanları tərəfindən 359, ümumilikdə isə digər istintaq qurumları ilə birgə 7076 cinayət işinin ibtidai istintaqı yekunlaşdırılaraq baxılması üçün məhkəmələrə göndərilmiş, ibtidai istintaqı tamamlanmış cinayət işləri üzrə ümumilikdə 696 milyon 983 min manat məbləğində maddi ziyan vurulduğu müəyyən edilərək istintaq tədbirləri ilə 193 milyon 441 min manatın ödənilməsinə nail olunmuşdur.

Prokurorluq orqanlarında ibtidai istintaqı aparılaraq yekunlaşmış cinayət işləri üzrə ümumilikdə 75 milyon 906 min manat məbləğində maddi ziyan vurulduğu müəyyən edilərək istintaq tədbirləri ilə onun 49 milyon 368 min manat hissəsinin ödənilməsinə nail olunmuş, 8.361.026 manat məbləğində əmlak üzərinə isə həbs qoyulmuşdur.

Qeyd edilib ki, 2023-cü ildən istifadəyə verilmiş "Elektron Porkurorluq" informasiya sistemi artıq bütün prokurorluq orqanlarında uğurla tətbiq edilir, Baş Prokurorluğun Rəqəmsal Sənəd Dövriyyəsi altsisteminə qoşulması nəticəsində 2024-cü ilin birinci yarımili ərzində inteqrasiya ilə prokurorluq orqanlarına 6825 sənəd daxil olmuş, 7582 sənəd isə digər qurumlara göndərilmişdir.

Hesabat dövründə Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi tərəfindən hər il olduğu kimi korrupsiyaya və rüşvətxorluğa qarşı mübarizə ciddi cəhdlə davam etdirilib, Baş İdarənin əməliyyat qurumları tərəfindən həyata keçirilən əməliyyat tədbirləri nəticəsində 25 şəxs bilavasitə cinayət başında yaxalanıb, axtarışda olan 4 nəfər isə saxlanılıb.

Kollegiya iclasında daxili işlər və digər aidiyyəti dövlət qurumları ilə birgə keçirilmiş peşəkar istintaq-əməliyyat tədbirləri ilə ötən illərdən bağlı qalmış qeyri-aşkar şəraitdə törədilmiş 4 qəsdən adam öldürmə cinayətlərinin açılması təmin edilməklə hesabat dövründə onlardan 1-i üzrə təqsirli şəxslərin məhkəmə məsuliyyətinə verildiyi xüsusi vurğulanıb.

Baş Prokurorluğun Dövlət ittihamının müdafiəsi üzrə idarəsinin prokurorlarının iştirakı ilə hesabat dövründə birinci instansiya məhkəmələrində 8307 şəxs barəsində 7530, apellyasiya instansiyası məhkəmələrində 2588 şəxs barəsində 2378, kassasiya instansiyası məhkəməsində 1542 şəxs barəsində 1350 (bütün instansiya məhkəmələri üzrə cəmi 12437 şəxs barəsində 11258 iş olmaqla) cinayət işi və məhkəməyədək sadələşdirilmiş icraat üzrə materiallara baxılaraq yekun qərarlar qəbul edilib.

Hesabat dövründə prokurorluq orqanları tərəfindən 770 apellyasiya və 304 kassasiya protestləri verilmiş, *384 apellyasiya protesti və 71 kassasiya protestləri təmin olunmaqla nəticədə məhkəmə səhvlərinin aradan qaldırılması təmin olunmuşdur.

Cari ilin birinci yarımilində istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarətin səmərəliliyinin artırılması məqsədilə prosessual rəhbərlik və effektiv nəzarətin həyata keçirilməsini təmin edəcək mexanizmin təkmilləşdirilməsi üçün zəruri tədbirlər görülməklə cinayət işləri üzrə icraata xitam verilməsinə dair 458 qərar əsassız və qanunsuz hesab edilərək ləğv olunub.

2024-cü ilin birinci yarımili ərzində cinayət təqibindən kənar icraatlarla əlaqədar inzibati xəta haqqında protokol tərtib etmək səlahiyyətinə malik qurumlarla işgüzar əlaqələrin qurulması təmin olunmaqla 643 inzibati xəta haqqında iş üzrə icraatın başlanması haqqında qərar qəbul edilib.

Qeyd edilib ki, Baş Prokurorluğun "Çağrı Mərkəzi"nə hesabat dövründə daxil olmuş müraciətlərdən 14562 müraciət üzrə vətəndaşlara onları maraqlandıran müvafiq hüquqi izahlar verilib, 2213 məlumat isə cinayət xarakterli olduğu üçün qeydə alınaraq araşdırılması aidiyyəti struktur qurumlara tapşırılmaqla qanuna müvafiq tədbirlərin görülməsi təmin edilmişdir.

Kollegiya iclasında qeyd edilib ki, ötən yarımildə xidməti, icra və əmək intizamının daha da möhkəmləndirilməsi, fəaliyyətlərində qanunsuzluq hallarına və prokurorluq işçisinə yaraşmayan hərəkətlərə yol verən işçilərə münasibətdə tələbkarlıq artırılıb, aparılmış xidməti yoxlamalar nəticəsində müxtəlif xətalar törətdiklərinə görə 8 prokurorluq işçisi intizam məsuliyyətinə cəlb edilib ki, onlardan 4-nə töhmət və ya şiddətli töhmət elan edilib, 3 nəfər vəzifədən azad edilib, 1 nəfər isə prokurorluq orqanlarından xaric edilib.

Kadr işinin düzgün təşkili və onun müasir standartlar səviyyəsində daha da təkmilləşdirilməsi istiqamətində bir sıra tədbirlərin icra edildiyi, prokurorluq orqanlarının vakant vəzifələrinin obyektiv meyarlarla və şəffaf prosedurlar əsasında gənc hüquqşünaslarla komplektləşdirilməsinin təmin edilməsi məqsədilə işə qəbul olunmaq arzusunda olan şəxslər üçün 50 ştat vahidi üzrə 26-cı növbəti müsabiqə elan edildiyi diqqətə çatdırılıb.

Hesabat dövründə Prokurorluq orqanları tərəfindən beynəlxalq əməkdaşlığın inkişaf etdirilməsi istiqamətində görülmüş tədbirlər çərçivəsində Xəzəryanı dövlətlərin Baş Prokurorluqlarının nümayəndələrinin beştərəfli görüşü, Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi ilə birlikdə Türk Dövlətlərinin məhkəmə və hüquq mühafizə orqanlarının nümayəndələrinin iştirakı ilə beynəlxalq konfransın keçirilməsi təşkil edilib, eyni zamanda Baş prokurorun rəhbərlik etdiyi nümayəndə heyətləri Çin Xalq Respublikasının Makau Xüsusi İnzibati Bölgəsində keçirilmiş Beynəlxalq Prokurorlar Assosiasiyasının İcraiyyə Komitəsinin 57-ci iclasında və Düşənbə şəhərində keçirilmiş İqtisadi Əməkdaşlıq Təşkilatına (İƏT) üzv dövlətlərin Baş prokurorlarının 5-ci iclasında iştirak edib.

Beynəlxalq əməkdaşlıq sahəsində həyata keçirilmiş tədbirlər nəticəsində 24 nəfər təqsirləndirilən şəxsin ölkə xaricindən ekstradisiyası təmin edilib. Həmçinin, xarici ölkələrdə cinayət törədərək qaçıb ölkəmizdə gizlənmiş şəxslərlə bağlı daxil olmuş sorğular əsasında 18 nəfərin müvafiq ölkələrə ekstradisiyası həyata keçirilib. Eyni zamanda konkret cinayət işləri üzrə hüquqi yardım göstərilməsi sahəsində xarici ölkələrlə səmərəli əməkdaşlıq davam etdirilib.

Vurğulanıb ki, 2024-cü ilin birinci yarımilində də vətəndaş müraciətlərinə baxılması və onların qəbulu işinin düzgün təşkili daim diqqətdə saxlanılmış, müraciətlərə baxılması və vətəndaşların qəbulu sahəsində nöqsanların aradan qaldırılması, şəhid ailələri və qazilərin müraciətlərinə xüsusi həssaslıqla yanaşılması, informasiya-kommunikasiya texnologiyalarının nailiyyətlərindən istifadə olunması, əməkdaşların peşə hazırlığının yüksəldilməsi istiqamətində zəruri tədbirlər görülüb.

Daha sonra Azərbaycan Respublikası Baş prokurorunun birinci müavini Elçin Məmmədov, müavinləri Elmar Camalov və Heydər Məmmədov, Baş prokurorunun müavini - Baş Prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rəisi Nazim Rəcəbov, Bakı şəhər prokuroru Elşən Abbasov, Naxçıvan Muxtar Respublikasının prokuroru Sənan Paşayev, Azərbaycan Respublikasının Hərbi prokurorunun müavini Şəfahət İmranov hesabat dövründə fəaliyyət, bu zaman yol verilmiş nöqsanlar və onların aradan qaldırılması istiqamətində görülməli tədbirlər barədə, Xankəndi şəhər prokuroru Rəşadət Orucov isə hesabat dövründə görülmüş işlərlə bağlı məruzələrlə çıxış edib, müzakirələr ətrafında fikir mübadiləsi aparılmaqla qarşıda duran vəzifələrə dair tapşırıqlar verilib.

Baş prokuror yekun çıxışından öncə 22 iyul tarixinin Azərbaycanda Milli Mətbuat və Jurnalistika günü kimi qeyd edildiyini xatırladaraq media nümayəndələrini təbrik etmiş, onlara yaradıcılıq və fəaliyyətlərində uğur və müvəffəqiyyətlər arzu etmişdir.

***XQ***

# Kiçik ölkələrin problemləri böyük gücləri maraqlandırmır

**Qarabağın tacı, ölkəmizin mədəniyyət paytaxtı Şuşa şəhəri iyulun 20-22-də ikinci dəfə Qlobal Media Forumuna evsahibliyi etdi. "Yalan məlumatların ifşası: Dezinformasiyaya qarşı mübarizə" mövzusunda keçirilən foruma 50-yə yaxın ölkədən 150-dən çox xarici qonaq, o cümlədən 30-dək ölkənin informasiya agentliyi, 3 beynəlxalq təşkilat və 82 media qurumu qatılmışdı. İştirakçılar üçün birgə müzakirə və hərəkət platforması rolunu oynayan forumda Azərbaycan Prezidenti İlham Əliyevin çıxışı ölkəmizdə və dünyada böyük rezonans doğurdu. Dünyanın aparıcı media orqanları dövlətimizin başçısının çıxışı zamanı dünyaya mühüm mesajlar ünvanlandığını vurğulayırlar. "Cənubi Qafqaz" politoloqlar klubunun rəhbəri, iqtisadiyyat üzrə fəlsəfə doktoru, siyasi şərhçi İlqar Vəlizadə "XQ"yə müsahibəsində forumun əhəmiyyəti barədə danışarkən dedi:**



– Artıq ənənə halını almış Şuşa Qlobal Media Forumu bir daha göstərdi ki, Azərbaycan Respublikası müstəqil xarici və daxili siyasət yürütmək yolu ilə dönmədən irəliləyir. Ölkəmiz heç bir halda bu yoldan dönmək niyyətində deyil. Baxmayaraq ki, bu, çox keşməkeşli yoldur. Biz belə bir istiqamət götürdüyümüz üçün zaman-zaman çox ağır sınaqlara, əsassız hücumlara, olmazın böhtanlara məruz qalmışıq. Təəssüf ki, bu sınaqlar, bu əsassız hücumlar və böhtanlar indi də davam edir. Çünki qlobal güclər özlərinin siyasi oyunlarını davam etdirirlər. Onlar bu siyasi oyunlara nisbətən kiçik dövlətləri cəlb etmək niyyətindədirlər.

Prezident İlham Əliyevin forumdakı çıxışı göstərdi ki, Azərbaycanı hələ də qlobal güclərin obyektinə çevirmək niyyətləri qalmaqdadır və bunun üçün cəhdlər var. Cənab Prezident xarici media nümayəndələrinin suallarını cavablandırarkən bir çox məsələlərə münasibət bildirmiş və demişdir ki, qlobal arenada Azərbaycanın xüsusi rolu var. Həmin qlobal arena isə yenə də müxtəlif güclərin döyüş meydançasına çevrilib. Ölkəmiz heç bir qarşıdurmada, çəkişmədə iştirak etmir və gələcəkdə də belə bir niyyəti yoxdur. Digər tərəfdən Azərbaycan Qlobal Cənub və Qlobal Şimal arasında körpü rolunu oynamaq niyyətindədir. Bununla bağlı indiyədək əməli addımlar atılıb. Azərbaycan həm Qoşulmama Hərəkatına sədrliyi dövründə müəyyən təşəbbüslərlə çıxış edib. Həmin təşəbbüslər Qoşulmama Hərəkatının institusionallaşmasına kömək edib. Cənab Prezidentin qeyd etdiyi kimi, bizim üstünlüyümüz ondan ibarətdir ki, dörd il ərzində Qoşulmama Hərəkatına sədrlik etmişik. 120 ölkənin iştirakı ilə orada yekdil şəkildə sədr seçilmişdik və sədrlik müddətimiz də uzadılıb. Sədrliyimiz dövründə biz böyük nüfuz qazanmışıq.

Digər tərəfdən, qeyd etmək lazımdır ki, bundan sonrakı dövrdə həmin proseslər, yəni, Qlobal Cənubla əlaqələr genişlənəcəkdir. Cənab Prezident bildirdi ki, Azərbaycan Afrika İttifaqı ilə sıx əlaqələr qurur. Bəzi kolonial ölkələrin siyasi partiyaları, ictimai-siyası hərəkatları ilə əlaqələr yaradır və bu əlaqələr öz bəhrəsini verir. Azərbaycan kolonial ölkələrin, daha çox Fransanın müstəmləkəsi olan adaların müstəqilliyi ilə bağlı aparılan mübarizədə onlara yenə də institusionallaşdırma prosesində kömək göstərir. Bu da öz növbəsində həmin ölkələrdə gedən müsbət proseslərin xarakterini dönməz edir.

Qeyd etmək lazımdır ki, Azərbaycan hazırda COP29-un keçirilməsinə hazırlaşır. Bu mötəbər tədbirin yüksək səviyyədə həyata keçirilməsi istiqamətində konkret işlər görülür. Ölkəmiz COP29 çərçivəsində bir çox ada dövlətlərinin problemlərini qaldırmaq istəyir. Yeri gəlmişkən, həmin ada dövlətləri Qlobal Cənubun tərkib hissəsidir. Lakin onların səsi, onların problemləri eşidilmir.

**– Sizcə, bunun səbəbi nədir?**

– Çünki qlobal səhnədə, adətən, böyük güclərin səsi eşidilir. Bu da öz-özlüyündə təəssüf hissi doğurur. Bu məsələdə Azərbaycanın təşəbbüsü inkişaf edən ölkələrə dəstək göstərilməsi üçün müəyyən fond yaradılmasından ibarətdir. Həmin fond çərçivəsində göstəriləcək dəstək qlobal istiləşmənin mənfi təsirini inkişaf etməkdə olan ölkələr üçün minimuma endirməlidir. Qlobal istiləşmə Arktika və Antarktikada buzların əriməsinə gətirib çıxarır ki, bu da öz növbəsində dünya okeanının səviyyəsini qaldırır və kiçik ada ölkələri su altında qala bilər. Bu, böyük fəlakət deməkdir. Lakin biz dünya mediasında gedən yazılara, aparılan müzakirələrə baxdıqda, bu mövzunun ən axırıncı yerlərdən birini tutduğunu görərik.

Böyük güclər daha çox öz problemlərindən danışır, öz problemlərini həll etmək niyyətində olduqlarını gizlətmirlər. Kiçik ölkələrin, o cümlədən, kiçik ada ölkələrinin qayğısına qalan yoxdur. Əslində, kiçik ölkələrin problemləri böyük ölkələri maraqlandırmır. Azərbaycan isə bu missiyanı öz üzərinə götürüb. Yeri gəlmişkən, ölkəmiz Qoşulmama Hərəkatına sədrlik edərkən yenə də ərazi və əhalicə kiçik, daha az inkişaf etmiş ölkələrin problemlərini həll etməyə çalışırdı. Koronavirus pandemiyası dövründə peyvənd millətçiliyi, yəni peyvəndlərin çatışmazlığı fonunda Azərbaycan həmin ölkələrə vaksinlər göndərirdi. Həmçinin, onlara digər yardımlar edirdi. Azərbaycan digər ölkələri də kiçik ada ölkələrinə yardımlar üçün səfərbər edirdi. Bu da öz növbəsində 44 günlük Vətən müharibəsi dövründə həmin ölkələr tərəfindən Azərbaycana böyük dəstəyin verilməsinə gətirib çıxarmışdı. Bu nümunə göstərir ki, inkişaf etməkdə olan ölkələr öz-özlüyündə böyük siyasi və iqtisadi potensiala malik olan dövlətlərdir. Ancaq bu potensialdan kifayət qədər effektiv istifadə olunmur. Azərbaycan ilk ölkələrdən biridir ki, öz nümunəsində inkişaf etməkdə olan dövlətlərin səylərini səfərbər etməklə böyük güclərin qarşısına qüvvə qoymağın mümkünlüyünü nümayiş etdirdi.

**– Rəsmi Bakının yürütdüyü xarici siyasət kursunun ölkəmizi müxtəlif kataklizmlərdən qoruduğunu hər kəs etiraf edir. Ölkəmiz böyük güclər arasında gedən qarşıdurmaların tərəfi deyil. Əksinə, son illərdə beynəlxalq aləmdə dostlarımızın və tərəfdaşlarımızın sayı artıb. Forumda bu istiqamətdə səslənən fikirlərlə bağlı mövqeyini bilmək maraqlı olardı...**

– Bizim niyyətimiz kiminləsə qarşıdurmaya getmək və hansısa münaqişədə iştirak etmək deyil. Cənab Prezident çıxışında qeyd etdi ki, Azərbaycan həm Rusiya, həm də ABŞ-la normal münasibətlər saxlamaq niyyətindədir. Rusiya ilə münasibətlər nümunəvidir. Baxmayaraq ki, hazırda bir çox ölkələrlə Rusiya arasında münasibətlərdə müəyyən böhran yaşanır. Azərbaycanın apardığı siyasət göstərir ki, hətta, Rusiya ilə belə normal münasibətlər qurmaq mümkündür. Sadəcə olaraq, burada siyasi uzaqgörənlik lazımdır. Təəssüflər olsun ki, bir çox hallarda, bəzi ölkələrdə siyasi liderlər uzaqgörənlik nümayiş etdirmirlər. Yaxud, etdirmək bacarığına malik deyillər. Son nəticədə isə böhranlı vəziyyət yaranır. Eyni sözü Türkiyənin yürütdüyü siyasət barədə də demək olar. Nə üçün Rusiya ilə Türkiyə, yaxud digər ölkələrlə şimal qonşumuz arasında böhranlı vəziyyət yaranmır? Çünki onlar öz imkanlarını və Rusiyanın imkanlarını adekvat qiymətləndirərək, normal şəkildə münasibət qura bilirlər.

Digər tərəfdən, dünya siyasətində ikili standartlar mövcuddur ki, bu da yolverilməz bir haldır. İkili standartlar bəzi ölkələri nüfuzdan salır, onların xarici siyasətinin, necə deyərlər, faydalılıq əmsalını aşağı endirir və son nəticədə onlar öz reytinqlərini itirirlər. Yaxşı, onlar itirilmiş nüfuzlarını necə bərpa etmək niyyətindədirlər?! Əlbəttə ki, hərb, güc, kiməsə, nəyisə diktə etmək yolu ilə bunu etmək istəyirlər. Təəssüflər olsun ki, Azərbaycan bu praktika ilə uzun illərdir ki, üzləşib. Bəzi siyasi dairələr, bəzi siyasi güclər bizə nəyisə diktə etmək istəyirlər. Bunu kütləvi informasiya vasitələrindən istifadə etmək yolu ilə edirlər. Özü də bu prosesdə aparıcı media vasitələrindən yararlanırlar. Ancaq bu, alınmır. Çünki Azərbaycanda bu cəhdlərə qarşı artıq immunitet yaranıb. Eyni zamanda, ölkəmizin xaricdən kifayət qədər dəstəyi var. Bizə dost, müttəfiq, qardaş ölkələr mövcuddur. Bu mənada Türkiyəni, Türk Dövlətləri Təşkilatına üzv digər ölkələri, Pakistanı xüsusi qeyd etmək lazımdır. Bizim Avropada da tərəfdaşlarımız az deyil. Prezident İlham Əliyev forumdakı çıxışında bu məqamlara da toxundu. Bütün bu məqamları nəzərə almaqla ölkəmizə edilən əsassız hücumlar nəticəsiz qalır. Amma onlar yenə öz cəhdlərini davam etdirirlər. Əlbəttə, bu da yolverilməzdir. Çünki bir tərəfdən söz azadlığından danışan ölkələr digər tərəfdən çirkin kampaniyalar aparmaqla həm özlərini, həm də öz media orqanlarını nüfuzdan salırlar. Son nəticə etibarilə heç nəyə nail ola bilmirlər.

**– Yeri gəlmişkən, Ermənistan rəhbərliyi son vaxtlar sülhdənqaçma istiqamətində bir sıra addımlar atır. Ölkənin əvvəlki rejimlərinə xas olan addımların Paşinyan iqtidarı tərəfindən təkrarlanması İrəvana nə vəd edir?**

– Cənab Prezident Ermənistan–Azərbaycan münasibətləri barədə də ətraflı danışdı. Burada da yenə kənar qüvvələrin təsiri ilə Ermənistan təzadlı addımlar atır. Təəssüf ki, İrəvan son vaxtlar əsas məsələlər üzrə konstruktiv danışıqlar aparmaqdan yayınır. Bu da ondan xəbər verir ki, ölkə müstəqil olmadıqca, digər ölkələrin, böyük güclərin diktəsi ilə oturub-durduqca o heç vaxt sülh və sabitliyə nail ola, davamlı inkişafı təmin edə bilməyəcək.

***Səxavət HƏMİD***
***XQ***




## “Yaşıl dünya” naminə həmrəylik



# Azərbaycan–Birləşmiş Ərəb Əmirlikləri: COP28-dən COP29-a “yaşıl” körpü



**(əvvəli 1-ci səhifədə)**

Məlum olduğu kimi, Azərbaycan da bərpaolunan enerji mənbələrindən istifadənin inkişaf etdirilməsi üzrə geniş potensiala malik olan ölkələrdəndir. Belə ki, araşdırmalara əsasən, ölkəmizin “yaşıl” mənbələri üzrə potensialı təqribən 27,5 min meqavat həcmində qiymətləndirilir. Bunun da 3 min meqavatı külək enerjisinin, 23 min meqavatı günəş enerjisinin, 380 meqavatı bioenerjinin, 520 meqavatı isə dağ çaylarının payına düşür. Artıq bu potensialın hərəkətə gətirilməsi üçün dünyanın bir sıra dövlətləri ilə müvafiq danışıqlar aparılır, tanınmış şirkətlər ölkəmizə dəvət olunur. Azərbaycan–Birləşmiş Ərəb Əmirlikləri (BƏƏ), xüsusən də bu ölkənin bərpaolunan enerji sahəsində dünyaca məşhur “Masdar” şirkəti ilə əməkdaşlıq bu baxımdan diqqət çəkir...

### Azərbaycanın Şərqdə mötəbər tərəfdaşı

“Masdar” şirkətinin Azərbaycanda uğurla həyata keçirdiyi layihələr haqqında söhbət açmazdan əvvəl onun ölkəmizdə fəaliyyət göstərmək istəyinin təsadüfi olmadığını qeyd etmək istərdik. Bunun üçün şirkətin Bakıya ilk gəlişində, paytaxtımızda yeni ofisinin açılışı mərasimində Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) rəsmi nümayəndələrinin, həmçinin qurumun rəhbər şəxslərinin çıxışlarından bəzi məqamları xatırlatmaq yerinə düşərdi:

**– Azərbaycanda varlığımızı genişləndirmək və burada bərpaolunan enerjinin inkişafına dəstəyimizi gücləndirmək üçün biz Bakıya gələrək burada da dünya səviyyəli layihələri davam etdirmək istəyirik;**

**– BƏƏ və Azərbaycan iqtisadiyyatının şaxələndirilməsi, sabitlik və inkişaf üçün bərpaolunan enerjiyə sərmayə qoymağın vacibliyini dərk edir, eləcə də bütün dünyada karbonsuzlaşma və davamlı inkişafı dəstəkləməyə sadiqlik nümayiş etdirməyi qarşıya mühüm məqsəd kimi qoyuruq;**

**– “Masdar”ın Azərbaycanda fəaliyyətə başlaması bu ölkədə bərpaolunan enerjiyə artan diqqətin və Azərbaycanın elan etdiyi enerji keçidi hədəfi – “yaşıl enerji”nin 2030-cu ildə payının 30 faizə çatdırılması öhdəliyi ilə yanaşı, şirkətin bərpaolunan enerji sahəsində qlobal portfelinin 100 qiqavata çatdırılması strategiyasıdır;**

**– Azərbaycanın zəngin bərpaolunan enerji potensialının inkişaf etdirilməsi strateji prioritetdir və “Masdar" kimi tərəfdaşlarla işləmək bu ölkə üçün daha parlaq, daha davamlı gələcək yaratmağa kömək edir.**

Xatırladaq ki, “Masdar” bərpaolunan enerjinin istehsalı, külək və günəş elektrik stansiyalarının, geotermal, tullantıdan-enerjiyə və “yaşıl” hidrogen layihələrinin idarə edilməsi sahələrində fəaliyyət göstərən BƏƏ-nin nüfuzlu şirkətidir. Qurum son illər ərzində təmiz enerji tutumunu və $CO_2$-nin yerdəyişməsini təxminən iki dəfə artırıb. Bununla da, 2030-cu ilə qədər dünyanın ən böyük bərpaolunan enerji şirkətlərindən biri olmaq ambisiyasını yerinə yetirmək yolunda uğurlu addımlar atıb.

“Masdar” son illərdə Azərbaycan, Özbəkistan, Misir, İordaniya, Qırğızıstan, Türkmənistan və Tanzaniya da daxil olmaqla yeni və mövcud bazarlarda bir sıra mühüm müqavilələr imzalayıb. Yaxın Şərqdə ilk kommersiya miqyaslı tullantıdan enerji əldə edilməsi layihəsi olan “Sharjah: Tullantıdan enerjiyə” təşəbbüsünü gerçəkləşdirib və dünyanın ən böyük günəş enerji mənbəyi olan “Al Dhafra” Günəş Fotovoltaik (PV) Müstəqil Enerji İstehsalçısı Layihəsi üzərində işləri davam etdirib.

“Masdar” bu dövrdə borc kapitalı bazarlarında “yaşı istiqraz”ların emitentli planları da daxil olmaqla bütün gələcək



maliyyə fəaliyyətlərini istiqamətləndirmək, habelə davamlılıq və ən yaxşı maliyyə sənayesi təcrübələri ilə uyğunlaşmaya əhəmiyyətli töhfə vermək məqsədilə “Yaşıl maliyyə çərçivəsi”ni də işləyib hazırlayıb. Nəhayət, şirkət səmərəli fəaliyyəti ilə dünyanın ən böyük bərpaolunan enerji investorlarından və enerji keçidinin aparıcılarından biri kimi tanınıb.

Şirkət təmiz enerji hədəflərinə nail olmaq, həmçinin qabaqcıl texnologiyalara uyğun bərpaolunan enerji sektorunun artımını sürətləndirmək məqsədilə 2019-cü ildən etibarən Azərbaycanda hökumət və digər tərəfdaşlarla sıx əməkdaşlığa başlayıb. Qısa bir müddətdə respublikamızın təmiz enerji sektorunun inkişafına artan marağını hədəfləyən layihələrin icrasını diqqətdə saxlayıb. Təbii ki, Azərbaycan da “Masdar”ın bu fəaliyyətini dəstəkləyib. Bu, həm də onunla bağlı olub ki, ölkəmiz iqtisadiyyatını şaxələndirməsini və istixana qazı emissiyalarını azaltmağı qarşıya mühüm vəzifə kimi qoyub. Başqa sözlə, Azərbaycan hökuməti ölkədə iqtisadi inkişafı təşviq etmək və “yaşıl enerji”nin istehsalçısı və ixracatçısı kimi mövqeyini möhkəmlətmək məqsədilə strateji prioritet kimi bərpaolunan enerji mənbələrinin inkişafına xüsusi önəm verib.

Qeyd edək ki, ötən il yanvarın 15-də Prezident İlham Əliyevin BƏƏ-yə işgüzar səfəri çərçivəsində Əbu-Dabi şəhərində SOCAR ilə “Masdar” şirkəti arasında 2 qiqavat gücündə dənizdə külək və hidrogen layihələrinin işlənməsinə dair Birgə İşlənmə Sazişi, həmçinin 1 qiqavat gücündə Günəş Fotovoltaik və 1 qiqavat gücündə quruda külək layihələrinin işlənməsinə dair Birgə İşlənmə Sazişi imzalanıb.

Yeri gəlmişkən, bu ilin iyun ayında Energetika Nazirliyində nazir Pərviz Şahbazov və BƏƏ-nin sənaye və yüksək texnologiyalar naziri, “Masdar” şirkətinin idarə heyətinin sədri Sultan Əhməd Əl-Cabirin rəhbərlik etdiyi nümayəndə heyətləri arasında görüş olub. Görüşdə “Masdar” şirkəti ilə quruda və dənizdə “yaşıl enerji” layihələrinin icrası, hər iki ölkənin apstrim sektorunda dövlət şirkətlərinin iştirakı, həmçinin COP29 çərçivəsində əməkdaşlıq məsələləri müzakirə edilib. 1000 meqavat gücündə günəş və külək enerjisi stansiyalarının inşası ölkələrimizin “yaşıl enerji” keçidinə birgə töhfəsi kimi dəyərləndirilib.

Görüşün yekununda Energetika Nazirliyi və ”AzərEnerji” ASC ilə Birləşmiş Ərəb Əmirliklərinin “Masdar” şirkəti arasında 445 meqavat gücündə Biləsuvar, 315 meqavat gücündə Neftçala günəş elektrik stansiyaları və 240 meqavat gücündə Abşeron–Qaradağ külək elektrik stansiyası layihələri üzrə “İnvestisiya müqaviləsinə Əlavə”, “Enerji alqı-satqı müqaviləsi”, “Ötürücü şəbəkəyə qoşulma müqaviləsi” və “Torpaq icarə müqaviləsi” imzalanıb. Müqavilələri Azərbaycan tərəfindən energetika naziri Pərviz Şahbazov və “Azərenerji” ASC-nin prezidenti Baba Rzayev, “Masdar” şirkəti tərəfindən isə baş icraçı direktor Məhəmməd Cəmil Əl-Ramahi imzalayıb.

### Qarabağ və Şərqi Zəngəzur günəşdən enerji alacaq

Xatırladaq ki, 2022-ci il martın 15-də “Qaradağ” Günəş Elektrik Stansiyasının təməlqoyma mərasimi çərçivəsində “Masdar” şirkəti ilə dörd anlaşma memorandumu imzalanıb. Energetika Nazirliyi ilə “Masdar” arasında imzalanan “Dənizdə inteqrasiya edilmiş bərpaolunan enerji sahəsində əməkdaşlığa dair” Anlaşma Memorandumunda Azərbaycanda bərpaolunan enerjinin tətbiqini dəstəkləmək, eyni zamanda dənizdə külək enerjisindən istifadə, bu enerji hesabına “yaşıl hidrogen” istehsalı, karbon tutulması, istifadəsi və saxlanması, həmçinin digər tədbirləri əhatə edən interqrasiya olunmuş həllərə dair potensial əməkdaşlıq imkanları öz ifadəsini tapıb.

Energetika Nazirliyi ilə şirkət arasında imzalanan “Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında bərpaolunan və təmiz enerji sahəsində əməkdaşlığa dair” Anlaşma Memorandumunda isə Azərbaycanın işğaldan azad edilmiş ərazilərində bərpaolunan enerji mənbələrinin tətbiqi sahəsində potensial əməkdaşlıq imkanları müəyyən edilib. Sənəddə “Masdar” şirkəti sənaye həcmli külək və günəş elektrik stansiyaları, damüstü günəş elektrik sistemləri və s. kimi istiqamətlərdə investisiya imkanlarını adıçəkilən nazirliklə koordinasiyalı şəkildə araşdırmaq niyyəti qərara alınıb. Hər iki memorandum çərçivəsində həyata keçirilən fəaliyyətləri istiqamətləndirmək və onlara nəzarət etmək məqsədilə Rəhbər Komitənin yaradılması nəzərdə tutulub.

Şuşa şəhərində 2022-ci il iyunun 4-də imzalanan iki müqavilə isə quruda ümumi qoyuluş gücü 2 qiqavat olan külək-günəş enerjisi və dənizdə 2 qiqavat olan külək və “yaşıl” hidrogen layihələri üzrə İcra Müqavilələri çərçivəsində istehsal olunacaq enerjinin müəyyən bir qisminin ölkənin enerji sisteminə ötürülməsi üçün şəbəkə imkanlarının müfəssəl araşdırılması, şəbəkənin gücləndirilməsi üzrə lazımi tədbirlərin görülməsi, həmçinin elektrik enerjisinin və “yaşıl” hidrogenin ixracı məqsədilə müvafiq araşdırmaların və tətqiqatların aparılması nüfuzlu beynəlxalq məsləhətçi şirkətlər tərəfindən AzərEnerji, SOCAR və BOEMDA mütəxəssisləri ilə birlikdə keçirilir.

### Dəmir yollarında “yaşıl” əməkdaşlıq

2022-ci il martın 15-də Gülüstan sarayında keçirilən 230 meqavat gücündə “Qaradağ” Günəş Elektrik Stansiyasının təməlqoyma mərasimi çərçivəsində BƏƏ-nin “Masdar” şirkəti ilə “Azərbaycan Dəmir Yolları” QSC arasında “Bərpaolunan enerji və enerji səmərəliliyi sahəsində əməkdaşlığa dair” Anlaşma Memorandumu imzalanıb. Memorandumun əsas məqsədi tərəflərin dəmir yolu sektorunda bərpaolunan enerji mənbələrindən istifadə imkanlarının araşdırılması niyyətini rəsmiləşdirmək və inteqrasiya edilmiş enerji səmərəliliyi proqramını həyata keçirmək olub.

Əməkdaşlığın əsasını “Masdar” şirkəti tərəfindən “Azərbaycan Dəmir Yolları” QSC ilə koordinasiya və tərəfdaşlıq əsasında Azərbaycan dəmir yolları sektorunda bərpaolunan və təmiz enerji layihələrinin (günəş və külək enerjisi) potensial inkişafının araşdırılması, texniki və kommersiya cəhətdən mümkün olan bərpaolunan enerji layihələrinin müəyyən edilməsi təşkil edəcək.

### Tullantı enerji mənbəyidir…

2022-ci il martın 15-də “Masdar” şirkəti və “Azərbaycan İnvestisiya Şirkəti” (AİŞ) ASC arasında “Tullantıdan enerji” layihəsinə dair Anlaşma Memorandumu imzalanıb. Memorandumda ekoloji cəhətdən təmiz texnologiyalardan istifadə etməklə tullantıların utilizasiyası zamanı enerji istehsal edilməsi təşəbbüsünün gerçəkləşdirilməsi qarşıya əsas məqsəd qoyulub. “Masdar” şirkətinin AİŞ ilə apardığı ilkin təhlil əsasında tikintisi qərb regionunda (Gəncə–Şəmkir) nəzərdə tutulmuş zavodun emal gücü (tullantıların utilizasiyası) ildə 300 min ton ehtimal olunur.

Yeri gəlmişkən, iyulun 12-də Gəncə Şəhər İcra Hakimiyyətində AİŞ və dünyanın bərpaolunan enerji sahəsində ən sürətlə inkişaf edən şirkətlərindən olan Emirates to Veyst Enerji və “Masdar”ın nümayəndə heyətləri arasında görüş keçirilib. Görüşdə “Tullantılardan enerjiyə” layihəsi çərçivəsində Qərb bölgəsində eyniadlı zavodun tikilməsinin planlaşdırıldığı qeyd edilib. Müəssisədə 11 inzibati rayon və şəhərdən olan illik 300 min ton tullantıların utilizasiyasının həyata keçirilməsi və ildə 108 min mV/saat enerjinin istehsal edilməsi nəzərdə tutulub.

Beləliklə, “Masdar”ın Azərbaycanla birgə həyata keçirdiyi layihələr respublikamızın Avropanın enerji təminatında etibarlı tərəfdaş mövqeyini möhkəmləndirir və tərəflər arasında imzalanan anlaşma memorandumları da ölkəmizin qarşı tərəfə həm elektrik enerjisi, həm də “yaşıl” hidogen ixrac etmək məqsədini şərtləndirir...

### Qaradağda GES – ilk birgə uğurlu addım

“Masdar” şirkətinin ölkəmizdəki uğurlu fəaliyyətinin nəticəsi olan “Qaradağ” Günəş Elektrik Stansiyasının iş rejimi, qurğunun ölkəmizin enerji sisteminə verdiyi töhfələrlə yaxından tanış olmaq məqsədilə əraziyə baş çəkirik. Qızmar iyul günəşinin cansıxıcı şüalarının təsirindən yer-göy sanki od tutub yanır.



Buna rəğmən insan ağlının zəkası ilə bu bomboz çöllərdə yaradılmış elektrik stansiyası isti, bürkülü havanın gətirdiyi narahatlığı bir qədər unudur. Ətrafa nəzər yetirdikcə geniş bir ərazidə sıralanmış günəş panelləri göz oxşayır. Qobustan qəsəbəsindən 15–16 kilometr aralıda, bomboz təpəliklərlə əhatə olunmuş çöllərin ortasında geniş bir ərazidə inşa olunmuş bu heyrətamiz qurğu energetiklərin yaratdıqları çoxsaylı xariqələrin daha bir nümunəsidir.

Stansiyanın həyətində bizi Masdar şirkətinin Azərbaycan üzrə ölkə meneceri və “Masdar–Azərbaycan” şirkətinin direktoru Murad Sadıxov qarşılayır. O bizi ərazidə yaradılmış mərkəzi idarəetmə binasına dəvət edir. Birmərtəbəli, ən müasir texnologiyalarla təchiz olunmuş binada stansiyanın idarə olunması üçün hər cür şərait yaradılıb. Belə bir stansiyada ən azından yüzlərlə işçinin: mühəndis, texnik, opreator və digər peşə sahiblərinin çalışdığını zənn etsək də, ilk baxışdan gördüklərimiz bizi heyrətləndirir. Mərkəzi idarəetmə otağında dispetçer pultu arxasında oturan 3 nəfər operator gərgin iş rejimində çalışır. Öyrənirik ki, stansiyanın cəmi 24 nəfər işçisi var. Ümumilikdə, hazırda stansiya tam olaraq yerli mütəxəssislər tərəfindən idarə olunur. Açığı, bu qədər işçi qüvvəsi ilə belə nəhəng, iri bir ərazini əhatə edən elektrik stansiyasının idarə edilməsini təsəvvür etmək çətin olsa da, bu, reallıqdır. Çünki burada enerjinin istehsalından tutmuş, onun nəqlinədək olan bütün proseslər tam avtomatlaşdırılıb. Bu barədə bir qədər sonra.

**“Masdar–Azərbaycan” şirkətinin direktoru Murad Sadıxov** Azərbaycan–Birləşmiş Ərəb Əmirlikləri dostluq və əməkdaşlıq münasibətlərinin təcəssümü



olan “Qaradağ” Günəş Elektrik Stansiyası (GES) layihəsinin ərsəyə gəlməsi, hazırda ölkə enerjisisteminə “yaşıl” töhfəsini verən qurğunun tikintisi sahəsində həyata keçirilən tədbirlər barədə məlumat verir. Deyir ki, 2018-ci ildə Azərbaycan hökuməti ölkədə bərpaolunan enerji üzrə pilot layihələr üçün tender elan edəndə Birləşmiş Ərəb Əmirliklərinin “Masdar” şirkəti də həvəslə prosesə qoşulub. Tender elanı əsasında təkliflərini hökumətə təqdim etmiş 14 iştirakçıdan biri də məhz “Masdar” şirkəti olub. Beləliklə, 2020-ci ilin yanvar ayında şirkət Azərbaycan Respublikasında sənaye miqyaslı günəş fotovoltaik (PV) layihəsinin inkişafı üçün icra sazişi imzalayıb. 230 meqavatlıq (MWac) Qaradağ Günəş PV stansiyası ölkənin dövlət–özəl tərəfdaşlığı kimi strukturlaşdırılmış ilk xarici investisiyaya əsaslanan müstəqil sənaye miqyaslı günəş layihəsidir.

**(ardı 9-cu səhifədə)**




## “Yaşıl dünya” naminə həmrəylik



# Azərbaycan–Birləşmiş Ərəb Əmirlikləri: COP28-dən COP29-a “yaşıl” körpü

(əvvəli 8-ci səhifədə)

Ölkə ərazisində külək və günəş enerjisi üzrə pilot layihələrin icrası üçün maraqlı təkliflərin yer aldığı tender elanında “yaşıl enerji” stansiyalarının tikintisi üçün ayrılmış iki ərazidən biri də məhz bura olub. Günəş enerjisinin istehsalı üçün seçilmiş bu ərazinin adı torpaq kadastrında 60-cı sahə kimi qeyd edilib. Onu da qeyd edək ki, bu geniş sahə hasilatın pay bölgüsü sazişinə əsasən Qobustan Əməliyyat Şirkətinə məxsus olub. Sonradan burada neftçıxarma işləri yekunlaşdıqdan sonra ərazi dövlətin balansına qaytarılıb. Beləliklə, Nazirlər Kabinetinin qərarı ilə yaşayış və kənd təsərrüfatı üçün yararsız olan bu torpaqların əvvəlki təyinatı dəyişdirilərək əraziyə bərpaolunan enerji zonası statusu verilib.

M. Sadıxovun dediyinə görə, təmsil etdiyi şirkətin təklifləri qiymət baxımından əlverişli hesab olunduğundan 2021-ci il aprelin 6-da Azərbaycan Respublikası hökuməti ilə investisiya sazişi və “AzərEnerji” Açıq Səhmdar Cəmiyyəti ilə elektrik enerjisinin alqı-satqısı və ötürülməsi üzrə müqavilələr imzalanıb. Elə həmin aydan da işlərə start verilib. Bununla belə, COVID-19 pandemiyasının yaratdığı çətinliklərlə əlaqədar olaraq işlər xeyli ləngiyib. Çünki stansiyanın inşasında istifadə ediləcək qurğu və avadanlıqların istehsal olunduğu Çin Xalq Respublikası ilə idxal-ixrac əməliyyatlarında böyük çətinlik yaranıb. Xüsusən də həmin dövrdə bu ölkədə yarımkeçiricilərin ixracı ilə bağlı, eləcə də konteyner çatışmazlığından irəli gələn logistik məhdudiyyətlər mövcud idi. Hətta Çin tərəfi günəş panellərinin göndərilməsi sahəsində yaranmış çətinliklərlə bağlı şirkətə rəsmi məlumat ünvanlayıb. Dünyada gedən pandemiya və ondan irəli gələn səbəblərə baxmayaraq, “Masdar” stansiyanın tikintisinə başlanmanın gecikdirilməsini minimuma salaraq bu çətinlikləri uğurla dəf edib.

Nəhayət, 2022-ci ilin martın 15-də “Gülüstan” sarayında Azərbaycan Prezidenti İlham Əliyevin və Birləşmiş Ərəb Əmirliklərinin energetika və infrastruktur naziri Suhali Mazroueinin iştirakı ilə “Qaradağ” GES-in təntənəli təməlqoyma mərasimi keçirilib. İyun ayında ilkin hazırlıq işlərinin aparılması üçün Azərbaycan hökumətinə bildiriş göndərilib. Avqustun 2-də isə Asiya İnkişaf Bankı, Avropa Yenidənqurma və İnkişaf Bankı, Yaponiyanın Cayka Fondu və Abu-Dabi İnkişaf Fondu ilə kredit müqavilələri imzalanıb. Direktorun dediyinə görə, ümumi dəyəri 262 milyon dollar təşkil edən layihənin maliyyələşdirilməsinə ayrılan vəsaitin 153,7 milyon dolları “Masdar” şirkətinin öz sərmayəsidir. Bu da ümumi maliyyələşmənin təqribən 55 faizi deməkdir. Yerdə qalan 108,3 milyon dollarlıq vəsait isə banklardan alınmış kreditlərin payına düşür. Yeri gəlmişkən, bu, Azərbaycanın dövlət zəmanəti ilə maliyyələşdirilməyən ilk layihəsidir. Layihənin yeganə zəmanəti “AzərEnerji” Açıq Səhmdar Cəmiyyəti ilə imzalanmış alqı-satqı müqaviləsidir. Daha bir diqqətçəkən məqam ondan ibarətdir ki, “Qaradağ” GES investisiya layihəsinin müqavilələri Azərbaycan qanunvericiliyi ilə tənzimlənən ilk layihədir. Eyni zamanda Azərbaycan hökuməti tərəfindən layihənin vergidən azad olunması üçün “Masdar” şirkətinə investisiya təşviqi sənədi verilib. Sözügedən sənədə əsasən ölkəyə gətirilən qurğu və avadanlıqların idxal rüsumlarından azad olunması üçün xüsusi mexanizmlər tətbiq olunur.

2022-ci il avqustun 9-da stansiyanın tikintisinə başlanılmasının rəsmən elan olunduğunu xatırladan direktor deyir ki, həmin vaxtdan etibarən hərtərəfli layihələndirmə və razılaşdırma işlərinə başlanılıb. İlk növbədə, Qobustan qəsəbəsindən bura 16 kilometrlik yol çəkilib, bir sıra zəruri infrastruktur yaradılıb, ərazi tikinti üçün hazır vəziyyətə gətirilib. Daha sonra stansiyanın tikintisi üçün xaricdən alınan zəruri qurğu və avadanlıqlar sahəyə daşınıb. Beləliklə, 2023-cü il mayın 16-da stansiyada ilk günəş panellərinin quraşdırılmasına başlanılıb. Energetika naziri Pərviz Şahbazov və “Masdar” şirkətinin baş direktoru Mohamed Jameel Al Ramahi tədbirdə iştirak edib, ərazidə ağaclar əkiblər.

Stansiyanın tikintisi ilə yanaşı, “AzərEneji” ASC “Cənub” stansiyasından 330 kilovoltluq təkdövrəli elektrik veriliş xəttinin tikintisinə başlayaraq 45 kilometr uzunluğunda elektrik verilişi xəttini dünya praktikasında nadir hallarda rast gəlinən sürət və keyfiyyətlə qrafikdən bir neçə ay öncə stansiyanın sahəsinə qədər çəkib.

İşlərin sürətləndirilməsi və stansiyanın nəzərdə tutulmuş vaxtda təhvil verilməsi üçün bütün imkanlar səfərbər olunub. Hətta tikintinin pik vaxtlarında işlərə 2 min nəfərdən artıq şəxs cəlb edilib ki, onların da 90 faizi yerli işçilər olub. Stansiyanın tikintisində çalışan yerli mütəxəssislərin təqribən 40 faizi vaxtilə ölkəmizin elektroenergetika sahəsində çalışanlar təşkil edib. Əcnəbi mütəxəssislərin xidmətindən isə, əsasən, müəyyən qurğu və avadanlıqların quraşdırılması zamanı istifadə olunub. Bütün bu işlərin nəticəsində bir vaxtlar çox nadir hallarda insan ayağı dəyən bomboz çöllər əsl tikinti meydançasına çevrilib. Layihənin ümumi icra müddəti 14 ay çəkib. Bura layihəndirmə, hazırlıq işləri, infrastrukturun yaradılması, yolun çəkilməsi, ərazinin hasarlanması və avadanlıqların sahəyə gətirilməsi və s. işlər daxildir.

Beləliklə, cəmi 8 ay ərzində inşaatçıların, energetiklərin və digər peşə sahiblərinin fədakar əməyi sayəsində Azərbaycan elektroenergetikasının daha bir parlaq səhifəsinə imza atılır. 2023-cü il oktyabrın 26-da ölkə energetikasının, enerjisistemin, hələlik, ən böyük “yaşıl” stansiyası istismara verilir. Həmin gün Azərbaycan Prezidenti İlham Əliyevin iştirakı və xeyir-duası ilə “Qaradağ” Günəş Elektrik Stansiyasının təntənəli açılış mərasimi keçirilib. Mərasimdə Birləşmiş Ərəb Əmirliklərinin sənaye və qabaqcıl texnologiyalar naziri Sultan Əhməd Əl Cabir və digər rəsmi şəxslər iştirak ediblər.

Azərbaycan dövlətinin dünyanın elan etdiyi” yaşıl keçid” platformasına mühüm töhfəsi sayılan stansiya 550 hektar ərazini əhatə edir. Enerji istehsal edən hər bir stansiyanın öz xüsusiyyətləri olduğu kimi, **“Qaradağ” GES-in də fərqli iş prinsipi var. Stansiyanın direktoru Nihad Zalov** deyir ki, sözügedən stansiyanın faydalı iş





əmsalı günəşin təsir gücündən asılı olduğu üçün o yalnız günün işıqlı saatlarında fəaliyyət göstərir. Stansiyada quraşdırılan əsas qurğu və avadanlıqlara gəldikdə isə, onların, demək olar ki, hamısı Çinin dünyaca məşhur şirkətlərinin istehsalıdır. Burada quraşdırılmış 570 min 720 ədəd günəş paneli də məhz bu ölkədən alınıb. Həmin panellərin səmərəli iş əmsalını təmin etmək üçün onlar xüsusi dəqiqliklə yerləşdirilib. Panellərin yerləşdiyi cərgələrin arasında isə təqribən 5 metr məsafə saxlanılıb. Bu da onunla bağlıdır ki, günəş şüalarını tam qəbul etməsi üçün cərgələr bir-birinə kölgə salmasın. Panellərin ən özəl cəhətlərindən biri də ondan ibarətdir ki, onların hər iki üzü eyni vaxtda enerji istehsal etmək imkanına malikdir. Belə ki, qurğunun bir üzü günəş enerjisini birbaşa qəbul edirsə, digər üzü torpaqdan əks olunan şüaları udaraq enerjiyə çevirə bilir. Bu da onların istehsal gücünün iki dəfə artması deməkdir. Standart ölçüdə olan panellərin hər biri 2,5 kvadratmetrdir. Traker sistem tipinə malik olan panellərin əymə bucağı günəşin istiqamətinə görə dəyişir. Yəni Günəş hərəkət etdikcə panellər də ona tərəf dönür. Bunu gözlə müşahidə etmək mümkün olmasa da, ətrafa yayılan səsdən bunu aydın hiss etmək olur. Eyni zamanda küləyə davamlılığı təmin etmək məqsədilə panellər təqribən 1,5–2 metr dərinlikdə torpağa basdırılıb.

Tam avtomatik rejimdə çalışan stansiyanın müxtəlif yerlərində sensorlar və metostansiyalar quraşdırılıb. Bu da hava şəraitinə tam nəzarət etməyə imkan yaradır. Hava şəraiti dəyişdiyi təqdirdə isə stansiyanın iş rejimi avtomatik olaraq ona uyğunlaşdırılır. Gecə saatlarından fərqli olaraq tutqun hava şəraitində stansiyanın işində fasilə yaranmır. Çünki günəş şüası buludları keçərək panellərə düşür. Gün batandan sonra isə stansiya istehsalını tam dayandirir. Bütün sistem şəbəkəyə qoşulu olduğu üçün səhər erkən saatlarından başlayaraq stansiya avtomatik olaraq şəbəkə ilə sinxronlaşır və enerji istehsalına başlayır. Şəbəkəyə təsirləri azaltmaq üçün ilkin sinxronlaşmadan enerji istehsalı minimal həcmdə olur və təqribən, 5 dəqiqə ərzində proses maksimuma çatır. Onu da öyrənirik ki, yay aylarında panellər daha çox günəş şüaları qəbul etsə də, temperatur yüksək olduğundan transformatorlarda, invertorlarda və kabellərdə itkilər çox olur. Yəni sözügedən avadanlıqlar qızdığından onların faydalı iş əmsalı aşağı düşür. Stansiyada enerji istehsalının səmərəliliyi baxımından ən münasib dövr isə yaz-payız ayları hesab olunur.

Bir məqamı da qeyd edək ki, stansiyanın ərazisi vaxtaşırı olaraq əsən güclü küləklərin təsirinə məruz qaldığından panellərin səthi toz qatı ilə örtülür. Buna görə də onların həftədə ən azından iki dəfə təmizlənməsinə ehtiyac yaranır. Təmizlik işləri robot sistemi vasitəsilə həyata keçirilir. Onların sayı isə 631 ədəddir.

Bu da ən son, müasir texnologiya sayılır. Həmin qurğulara quraşdırılmış günəş panelləri onları elektrik enerjisi ilə təchiz edir. Təmizləmə prosesindən öncə bütün panellər eyni səviyyəyə gətirilir. Mərkəzi idarəetmə otağından panellərin təmizlənməsi ilə bağlı siqnal daxil olan kimi robotlar avtomatik olaraq işə düşür. Beləcə, cərgə boyu hərəkət edən robotlar panelləri toz təbəqəsindən təmizlədikdən sonra əvvəlki yerinə qayıdaraq növbəti proses üçün enerji toplamağa başlayır. Təmizləmə prosesi, adətən, günün sonunda, istehsal prosesi başa çatdıqdan sonra həyata keçirilir.

Yeri gəlmişkən, günəş panellərinin hər birinin gücü 545–550 vatt təşkil edir ki, bu da stansiyanın tikintisi dövrü üçün ən müasir panellər hesab olunurdu. İstehsalçı şirkətin verdiyi yazılı zəmanətə əsasən, həmin panellər hər hansı fiziki təsirə məruz qalmayacağı təqdirdə 25–30 il ərzində istismar oluna bilər. Yəni “Masdar” şirkəti panelləri alanda, sadəcə, qiyməti deyil, həm də keyfiyyəti nəzərə alıb. Bu da təsadüfi deyil. Çünki günəş panelləri stansiyanın əsas enerji və fayda mənbəyidir.

Panellərin yerləşdiyi sahədə 28 blok transformator və 820 ədəd invertor quraşdırılıb. Blokların girişi və invertorların çıxışı 0,8 kilovolt təşkil edir. İnvertorların da əsas funksiyası Günəşdən əldə olunan sabit cərəyanı dəyişən cərəyana çevirməkdən ibarətdir. İnvertorlarin çıxışından əldə olunan dəyişən enerji isə stansiyanın ərazisində inşa olunmuş 8,8 meqavoltamper gücündəki 28 ədəd bloktransformatora ötürülür. Həmin qurğular 0,8 kilovoltluq gərginliyi 35 kilovolta yüksəldərək 14 ədəd fider vasitəsi ilə stansiyanın ərazisindəki 330/35 kilovoltluq yarımstansiyaya ötürülür. 35 kilovoltluq bölmə ilə əlaqələndirilən həmin 14 fider 140 meqavoltapmperlik iki əsas transformatora birləşdirilir. Bu transformatorlar da öz növbəsində 35 kilovoltluq gərginliyi 330 kilovolta yüksəldir. Beləliklə də, avtomatlaşdırılmış istehsal prosesi nəticəsində əldə olunmuş təmiz energi 330 kilovoltluq birdövrəli xətlə “Cənub” Elektrik Stansiyasına ötürülür.

İstismara verildiyi gündən indiyədək stansiyada 309 milyon kilovat-saat təmiz enerji istehsal edilərək şəbəkəyə ötürülüb. Qeyd etdiyimiz kimi, stansiyanın bütün fəaliyyətinə mərkəzi idarəetmə otağından nəzarət olunur. Belə ki, buradakı birləşmə sxemi vasitəsilə bütün istehsal prosesi diqqətlə izlənilir. Burada stansiyanın fəaliyyət göstərdiyi bütün dövr ərzində istehsal olunan elektrik enejisi anbaan qeydə alınır. Məlumat lövhəsində qeydə alınmış göstəriciyə əsasən, stansiyada olduğumuz gün səhər saatlarından 16.30-dək 942 min kilovat-saat elektrik enerjisi istehsal edilmişdi. Mərkəzi idarəetmə otağında qurğu və avadanlıqların işi ilə yanaşı, küləyin sürətini, havanın temperaturunu və rütubəti tam ölçmək mümkündür.

Buradan, həm də vizual olaraq 28 blokun hamısını 360 dərəcə görmək mümkündür. Panellərdə yarana biləcək problemlə bağlı birbaşa siqnal gəlir. Burada problem test edilir. Əgər həmin problemin həlli burada mümkün olmasa, onda opreator tərəfindən əraziyə mühəndis və ya texniki heyət göndərilir. Texniki personal problemin növünə uygun sınaqlar aparır və problemin həlli üçün lazımi tədbirləri həyata kecirir. Mərkəzi idarəetmə otağından cərəyan, gərginlik, güc, hətta sayı yarım milyon ədəddən çox olan panellərin hamısını görmək, bütün göstəriciləri qeydə almaq mümkündür.

Yeri gəlmişkən, M. Sadıxov deyir ki, “Qaradağ” GES istehsal gücünə görə “Masdar”ın istismar etdiyi orta səviyyəyə olan stansiyalardandır. Məsələn, şirkətin Birləşmiş Ərəb Əmirliklərində 800 meqavat gücündə günəş stansiyası uzun illərdir ki, uğurla fəaliyyət göstərir. Hazırda isə şirkət ölkəsində 2 min meqavatlıq daha bir nəhəng stansiyanın inşasını həyata keçirir. “Masdar”ın Özbəkistanda istismara verdiyi analoji stansiya 100 meqavatlıqdır. Hazırda isə şirkət Gürcüstanda 98 meqavatlıq günəş stansiyası inşa edir. 230 meqavatlıq “Qaradağ” GES isə, istismara verilən zaman MDB-nin ən böyük günəş stansiyası olub. Bu yaxınlarda isə MDB məkanında birincilik Özbəkistanda təhvil verilmiş 450 meqavatlıq stansiyaya keçib. Bununla belə “Qaradağ” GES hazırda Xəzər regionunun ən böyük bərpaolunan enerji stansiyası sayılır.

Nəzərə alsaq ki, bir neçə ildən sonra Biləsuvarda 445 meqavatlıq günəş elektrik stansiyasının istismara verilməsi nəzərdə tutulur. Bu da o deməkdir ki, Xəzər regionu üzrə birincilik hələ uzun illər Azərbaycana məxsus olacaq. Bununla belə, gələcəkdə stansiyanın ərazisinin genişləndirilməsi ehtimalı da böyükdür. Çünki stansiyanın ətrafında kifayət qədər boş ərazi var. Hətta bununla bağlı Energetika Nazirliyinə müraciət də olunub. “AzərEnerji” ASC tərəfindən şəbəkədə lazımi təkmilləşdirmə və gücləndirmə işləri aparıldıqdan sonra bu məsələyə baxıla bilər. Bu həm də stansiyanın istismar müddətini bir neçə il artırmağa imkan yaradacaq. Çünki ərazidə lazımi infrastruktur yaradılıb: yol çəkilib, idarəetmə təşkil olunub, yarımstansiya tikilib. Stansiyanın ərazisini genişləndirməklə kifayət qədər səmərə əldə etmək mümkündür. Eyni zamanda stansiyanın genişləndirilməsi həm onun istismar müddətini uzadar, həm də burada ən azı 150–200 meqavatlıq əlavə güc əldə etməyə imkan yaradar. “Masdar–Azərbaycan”ın rəhbəri onu da dedi ki, stansiya nə qədər böyük olsa, enerjisistemə təsiri də bir o qədər



çox olar. Neqativ təsiri azaltmaq məqsədilə “AzərEnerji” şəbəkə ilə bağlı, eləcə də enerji saxlanc sistemlərinin tətbiqi və digər müasir texnoloji həllərin hesabına təkmilləşdirmə işlərinə start verib. Eyni zamanda hazırda “AzərEnerji” Dünya Bankı ilə birlikdə AZURE layihəsini icra edir. Layihənin reallaşdırılması ilə ölkə enerjisisteminin dayanıqlılığı artacaq.

Göründüyü kimi, “Qaradağ” GES-in istismara verilməsi Azərbaycanın energetika sistemi üçün əhəmiyyəti olduqca böyükdür. Təkcə onu qeyd etmək kifayətdir ki, bu həcmdə elektrik enerjisinin “AzərEnerji” ASC-nin stansiyalarında istehsal etmək üçün əlavə qaz istifadə etmək lazım gələcəkdi. Bərpaolunan enerji əsasında fəaliyyət göstərən bu stansiyada isə heç bir təbii qaza ehyiyac duyulmur. Bunun da nəticəsində il ərzində, ən azı, 110 milyon kubmetr “mavi yanacağ”a qənaət olunur. Bunu da ixraca yönəltmək hesabına kifayət qədər əlavə vəsait əldə olunur. Bundan əlavə, stansiyanın digər faydası odur ki, ildə 200 min ton karbon emissiyasının azaldılmasına nail olmaqla tullantı olmadan təmiz enerji istehsal edir. Bu da karbon-dioksid qazlarının, tullantıların azaldılmasına gətirib çıxarır. Bunun da nəticəsində dövlət “yaşıl” enerji keçidinə böyük fayda verir. Çünki dövlətin karbon emissiyalarının azaldılması ilə bağlı öhdəliyi var. Stansiyanın Azərbaycana digər faydası da ondan ibarətdir ki, o sırf xarici investisiya hesabına tikilib. Bununla belə Azərbaycan dövləti tərəfindən infrastrukturun yaradılmasına vəsait xərclənib. Həmin vəsait hesabına 330 kilovoltluq 46 kilometr xətt çəkilib.

### Muğanı Günəş gecələr də nurlandıracaq

“Masdar” şirkəti yaxın zamanlarda ölkəmizdə daha üç “yaşıl enerji” layihəsinin icrasına başlayacaq. Bu il iyunun 4-də Bakı Enerji Həftəsinin rəsmi açılış mərasimində Azərbaycanın dövlət başçısı İlham Əliyevin iştirakı ilə hər üç stansiyanın təməli qoyulub. Biləsuvar Günəş Elektrik stansiyanının layihə gücü 445 meqavat təşkil edir. Burada il ərzində 897 milyon kilovat-saat təmiz enerji istehsalı nəzərdə tutulur. Bu da 179 min evin elektrik enerjisi ilə təchizatına imkan yaradacaq. Layihənin dəyəri isə təxminən 390 milyon ABŞ dolları təşkil edəcək. Stansiyanın fəaliyyəti nəticəsində il ərzində 193 milyon kubmetr təbii qaza qənaət olunacaq ki, bu da 367 min ton karbon emissiyasının azaldılması deməkdir. Biləsuvar Günəş Elektrik Stansiyasının ümumi ərazisi isə 1454 hektar təşkil edəcək.

Neftçalanın Bankə qəsəbəsinin ərazisində inşa olunacaq günəş elektrik stansiyasının layihə gücü 315 meqavat təşkil edəcək ki, bunun da hesabına ildə 641 milyon kilovat-saat elektrik enerjisi istehsal olunacaq. Stansiya işə düşdükdən sonra 128 min evi təmiz elektrik enerjisi ilə təmin edəcək. Dəyəri təxminən 280 milyon dollar ehtimal edilən layihənin işə düşməsi nəticəsində ildə 138 milyon kubmetr təbii qaza qənaət ediləcək. Bunun da hesabına atmosferə atılan karbon dioksidin miqdarı 262 min ton azalacaq.

Abşeron–Qaradağ Külək Elektrik Stansiyasının layihə gücü isə 240 meqavat təşkil edəcək. Layihənin dəyəri 285 milyon dollardır. Stansiyada il ərzində istehsal ediləcək 2305 kilovat-saat təmiz enerji istehsal olunacaq ki, bu da 165 milyon kubmetr təbii qaza qənaət etməyə imkan verəcək. Eyni zamanda stansiyanın işə düşməsi ilə il ərzində 314 min ton karbon emissiyası azalacaq. 153 min evin elektrik enerjisi ilə təchizatı da məhz bu stansiya vasitəsilə həyata keçiriləcək. Abşeron–Qaradağ Külək Elektrik Stansiyasının inşası üçün 105 hektar torpaq sahəsi ayrılıb.

“Masdar”ın SOCAR-GREEN şirkəti ilə əməkdaşlıqda həyata keçirəcəyi ilk iki layihə üzrə təmiz enerjinin ötürülməsinə 2026-cı il aprelin 26-na, Abşeron-Qaradağ Külək Elektrik Stansiyası üzrə isə həmin ilin oktyabrın 26-na nəzərdə tutulub. Yeri gəlmişkən, müqavilənin şərtlərinə əsasən, SOCAR–GREEN şirkəti hər üç layihədə 25 faiz iştirak payına malikdir…

***Hazırladılar:***
***Vaqif BAYRAMOV,***
***Mirbağır YAQUBZADƏ,***
***Elşən AGALAR (foto)***
***XQ***

# Milli teatr yeniləşmə yolunda



**Dünən Azərbaycan Teatr Xadimləri İttifaqının XV konfransı keçirilib və ötən 5 ildə görülmüş işlərə yekun vurmaq, qarşıda duran vəzifələri müəyyənləşdirməklə bərabər, İdarə Heyətinin yeni tərkibinin və sədrin seçkisi gerçəkləşdirilib.**

Konfransda Teatr Xadimləri İttifaqının üzvləri və respublikanın tanınmış mədəniyyət xadimləri iştirak edirdilər. Əvvəlcə İttifaqın hesabat dövründəki fəaliyyətini əks etdirən geniş videoçarx nümayiş olundu və hesabat dövründə dünyasını dəyişmiş sənət adamlarının xatirəsi bir dəqiqəlik sükutla yad edildi.

Bu yaradıcı ictimai qurum ötən əsrin 50-ci illərindən etibarən formalaşıb və daim milli teatr sənətimizin inkişafına xidmət göstərib. İttifaqın zəngin və çoxşaxəli fəaliyyətinin təkcə son illərinə nəzər salsaq, necə məhsuldar çalışmalarının olduğunu görərik. Klassik və mono tamaşa festivalları, beynəlxalq səviyyəli teatr bayramları, “Qızıl Dərviş” kimi sənət mükafatlarının təsis edilməsi və sair ATXİ-nin fəallıq barometrinin göstəriciləridir.

Əslində, ATXİ-nin qurultayını oktyabr ayında keçirmək nəzərdə tutulurdu. Amma sentyabrın 1-də parlament seçkiləri, daha sonra isə möhtəşəm COP29 beynəlxalq tədbiri keçiriləcəyinə görə konfransı tez keçirmək qərara alınıb.

Xatırladaq ki, ötən ilin aprelində Bakıda ilk Teatr Forumu keçirilib. Mədəniyyət Nazirliyi və Heydər Əliyev Mərkəzinin birgə təşkilatçılığı, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin (ADMİU) iştirakı ilə gerçəkləşən forum “Azərbaycan teatrı – 150: inkişaf perspektivləri” mövzusuna həsr olunmuşdu. Milli teatrımızın çağdaş inkişaf perspektivlərinin müzakirə olunduğu həmin önəmli tədbirdə mədəniyyətə, sənətə bağlı bir ömür yaşayan Ümummilli lider Heydər Əliyevin bu sahədə çalışanları hər zaman diqqət və qayğı ilə əhatə etdiyi, teatra xüsusi münasibətlə yanaşdığı, burada fəaliyyət göstərənləri hər zaman yüksək qiymətləndirdiyi və səhnəni “müqəddəs yer” kimi səciyyələndirdiyi xüsusi vurğulanıb.

Fərəhlə qeyd edilib ki, Prezident İlham Əliyev də teatr sənətinin məna və mahiyyətini, ideya-estetik təsirini dərindən duyan bir dövlət başçısı kimi, bu sahəni daimi qayğı ilə əhatə edib. Birinci vitse-prezident Mehriban Əliyevanın dəstəyi ilə Azərbaycan mədəniyyətinin dünyada təbliği istiqamətində də mühüm işlər görülür. Mədəniyyətimiz və bu sahədə çalışan insanlar hər zaman Mehriban xanımın diqqətindədirlər.

Forumda aparılan fikir mübadiləsi və müzakirələr əsasında toplanan təkliflər “Azərbaycan mədəniyyəti: 2020–2040 dövlət strategiyası” ilə bağlı tərtib edilən tədbirlər planında nəzərə alınıb.

Konfransda teatr sahəsində əsaslı inkişaf məsələləri ətraflı təhlil edildi, problemlərə işıq tutuldu, bildirildi ki, bu gün ATXİ-nin əsas məqsədi sahənin peşəkarlarını bir araya gətirərək problemləri birgə müzakirə etmək və vahid platforma üzrə fəaliyyəti daha da canlandırmaqdır.

Konfransda 75 nümayəndə iştirak edirdi. Azərbaycan Respublikasının Əməkdar artisti Azad Şükürov iclasın sədri seçildi. Teatr Xadimləri İttifaqı sədrinin hesabat məruzəsi, daha sonra Təftiş və Mandat komissiyalarının hesabatları dinlənildi.

Hesabat dövründə yaradıcılıq ittifaqının xəttilə görkəmli teatr xadimlərinin yubileylərinin keçirildiyi, onlarla bağlı xatirə albom-kitablarının hazırlanıb nəşr edildiyi, yaxın və uzaq xarici ölkələrdən gəlmiş teatr xadimlərinin iştirakı ilə ustad dərslərinin, eləcə də yaradıcılıq laboratoriyalarının təşkil olunduğu vurğulandı. Həmçinin bu tədbirlərin təkcə paytaxt Bakını yox, həm də bölgə teatrlarını da əhatə etdiyi bildirildi.

İştirakçıların yekdil qərarı ilə 5 illik fəaliyyət qənaətbəxş hesab olundu. Fasilədən sonra çıxışlar davam etdirildi. İlham Namiq Kamal, Məryəm Əlizadə, Mərahim Fərzəlibəyov, Sabir Məmmədov, Ağalar İdrisoğlu, Şövqi Hüseynov, Larisa Tarusova, Rəhman Rəhmanov və İntiqam Soltan teatr qurumu ilə bağlı fikirlərini, təkliflərini səsləndirdilər. Çıxışlarda qeyd olundu ki, milli teatrımızın inkişafı üçün istər yerli, istərsə beynəlxalq layihələr uğurla həyata keçirilməli, yaradıcı mühitə əhəmiyyətli təsir edilməli, teatra dair davamlı nəşrlər buraxılmalı, faydalı iş əmsalını artıran konfranslar, seminarlar, festivallar keçirilməli, yaradıcı gəncliyə əməli qayğı ilə daha münbit şərait yaradılmalıdır ki, milli səhnə sahəmiz dünyanın əhəmiyyətli teatr hadisələrinə daha dərindən nüfuz etsin.

Ardınca açıq səsvermə yolu ilə növbəti 5 il üçün ATXİ-yə sədr seçkisi keçirildi. İttifaq üzvlərinin yekdil qərarı ilə bu etimad Azərbaycan Respublikasının Xalq artisti, Dövlət mükafatı laureatı Hacı İsmayılova göstərildi. Təftiş Komissiyasının üzvləri Əməkdar incəsənət xadimi Hafiz Quliyev, Xalq artisti Firudin Məhərrəmov və Əməkdar artist Nadir Xasıyev seçildilər. Yeni sədr konfrans nümayəndələrinə təşəkkürünü bildirdi və İttifaqın İdarə heyətinin yeni tərkibini elan etdi. İlham Namiq Kamal və Azad Şükürov (sədr müavinləri), Siyavuş Kərimi, Mərahim Fərzəlibəyov, Azər Zeynalov, İlham Əsgərov, Cənnət Səlimova üzv kimi təsdiqləndilər. Konfransın növbəti hesabat dövründə görəcəyi işlər barədə qərar layihəsini Xalq artisti Firudin Məhərrəmov oxudu.

Azərbaycan Teatr Xadimləri İttifaqı İdarə Heyətinin yeni sədri – Xalq artisti Hacı İsmayılov daim öz istedadı ilə parlayıb. Sənətkar səhnəyə çıxdığı ilk gündən böyük tamaşaçı sevgisi qazana bilib. Televiziya tamaşaları da daxil olmaqla irili-xırdalı 70-dən çox filmə çəkilib. Milli teatrın flaqmanı hesab edilən Akademik Milli Dram Teatrında saysız-hesabsız tamaşalarda aparıcı obrazlara həyat eşqi verib. Bütün çıxışlarını teatr və kinosevərlər üçün estetik zövq mənbəyinə çevirməyi peşəkarcasına bacararaq hər kəsin sevimlisinə çevrilib. Hacı İsmayılov 2014-cü ildən ATXİ-də yaradıcılıq üzrə sədr müavini olub. Ötən ilin aprelində qurumun sədri Azər Paşa Nemətovun vəfatından sonra onun vəzifə səlahiyyətlərini davam etdirib. Bir sıra maraqlı layihələrin reallaşdırılması Hacı İsmayılovun təşəbbüsü və səyi ilə baş tutub.

Ümidvarıq ki, tarixi ənənələrini qoruyub saxlayan, Azərbaycan xalqının milli mədəni irsinin qorunmasında, nəsildən-nəslə ötürülməsində daim öncüllər sırasında olan Azərbaycan Teatr Xadimləri İttifaqının rəhbərliyi və işçi heyəti bundan sonra da milli mədəniyyətimizin mühüm tərkib hissəsi olan teatr sənətinin inkişafı yönümündə fəaliyyətini uğurla davam etdirəcək.

## Sənət adamlarının konfransla bağlı düşüncələri

**Hacı İsmayılov, İttifaqın İdarə Heyətinin sədri, Xalq artisti:**



– Məqsəd ölkəmizdə teatr sənətinin inkişafına kömək göstərməkdir. Biz bu il bölgələrdəki teatrları “Qonaq teatr” layihəsinə dəvət etdik. Onlar Bakıya çox böyük sevinc və həvəslə gəlirlər. Bu istiqamətdə işimizi bundan sonra da davam etdirəcəyik. Eynu zamanda, bundan sonra da xarici və türkdilli ölkələrin teatrları ilə təmaslar qurmağa çalışacağıq. Milli səhnə sənətini dünya səviyyəsinə qaldırmalıyıq. Mənim üzərimə çox böyük vəzifə düşür. Teatr Xadimləri İttifaqının on sədri olub, hamısı da Xalq artisti. Onların işini davam etdirmək, əlbəttə ki, böyük məsuliyyətdir. Amma şərəfli bir işdir və mən də çalışacağam ki, Teatr Xadimləri İttifaqının gördüyü işlər Azərbaycan teatr sənətinin inkişafına xidmət etsin.

Digər ünlü sənətkarların da fikirlərini təqdim edirik...

**Firudin Məhərrəmov, Sumqayıt Dövlət Dram Teatrının baş rejissoru, Prezident mükafatçısı, Xalq artisti:**

– Teatr Xadimləri İttifaqının konfransında Xalq artisti Hacı İsmayılovun sədr seçilməsi hamımızın ürəyincə oldu. Onun bu işdə böyük təcrübəsi var. Son illər ATXİ-də həyata keçirdiyi böyük layihələr onun bu vəzifəyə seçilməsinə əsas verirdi. “Qonaq teatr” layihəsini xüsusi vurğulamaq istəyirəm. Region teatrlarının Bakıya dəvət olunub öz tamaşalarını nümayiş etdirməsi bir növ teatr paradına çevrilmişdir. Bu layihə teatr kollektivlərinin görüşünə, öz imkanlarını nümayiş etdirməsinə, ən əsası isə yeni istedadların üzə çıxmasına geniş imkanlar açır. Biz də Sumqayıt teatrı olaraq hər



zaman bu layihələrdən bəhrələnmişik. M.F.Axundzadənin “Hacı Qara”, T.Özakmanın “Ocaq”, Ə.Əmirlinin “İyirmi ildən sonra” tamaşalarını məhz “Qonaq teatr” layihəsi çərçivəsində paytaxt tamaşaçılarına təqdim etməyə imkan qazanmışıq. Azərbaycan Teatr Xadimləri İttifaqı bütün teatr əməkdaşlarının evi, ocağıdır. Bu “ocağ”ın daha da gur yanması üçün hamımız ona dəstək olmalıyıq. İnanıram ki, Hacı İsmayılovun rəhbərliyi ilə ittifaqımız yeni-yeni layihələrə bundan sonra da öz imzasını atacaq. Yeni seçilən rəhbərliyə və onun komandasına uğurlar arzulayıram!

**Sabir Məmmədov, Azərbaycan Dövlət Akademik Milli Dram Teatrının aktyoru, Xalq artisti:**



– Hamımızın sevimlisi olan Xalq artisti, Dövlət mükafatı laureatı Hacı İsmayılov bu konfransa qədər ATXİ sədrinin 1-ci müavini idi və sədr səlahiyyətlərini layiqincə icra edirdi. Onun hesabat məruzəsi ətrafında çıxış edənlərin arasında mən də vardım. ATXİ-nin və sədr əvəzinin fəaliyyətini məqbul saydım. Ən çox da onun az müddətdə təşkilatçılıq bacarığı, səmimiyyəti ilə böyük hörmət qazandığını qeyd etdim. Xatırlatdım ki, bizim təklifimizlə Trabzon teatrında Firuz Mustafanın əsəri tamaşaya qoyuldu, sonra Hacı müəllim həmin teatrı Bakıya dəvət edərək, ən yüksək səviyyədə görüşlər keçirdi. Belə misallar çoxdur, buna görə də hər kəs ona həvəslə səs verdi və seçim yekdil oldu. Sədr müavinləri seçilmiş Xalq artisti İlham Namiq Kamala və Əməkdar artist Azad Şükürova da uğurlar arzu edir, düşünürəm ki, çox layiqli namizədlər idi. ATXİ–nin yeni tərkibinə yeni nailiyyətlər arzu edirəm.

**Nadir Xasiyev, Azərbaycan Dövlət Akademik Musiqili Teatrının aktyoru, Əməkdar artist:**



– Azərbaycan Teatr Xadimləri İttifaqının çoxdan bəri gözlənilən konfransı, nəhayət, baş tutdu. Kimin sədr seçiləcəyi, əlbəttə, bütün teatr cameəsinin, səhnə sənətinin tərəqqisini arzulayan hər kəsin maraq dairəsində idi. Tədbir protokol qaydalarına uyğun olaraq, açıq və demokratik şəraitdə keçdi. Xalqımızın hörmətli sənətkarı, bu posta tam layiq olan, zəngin təcrübəli Xalq artisti Hacı İsmayılov yekdilliklə sədr seçildi və onun üstün keyfiyyətləri birbəbir qeyd edildi. Yeni sədrimizi ürəkdən təbrik edirəm! Mən də Teatr Xadimləri İttifaqının Təftiş Komissiyasının üzvü seçildim. Hesab edirəm ki, yeni bir dövr başlayacaq. ATXİ yenidən əsl “Aktyor evi”nə çevriləcək.

***Ə.DOSTƏLİ***
***XQ***

# Moskvada Azərbaycan Mədəniyyəti Günü



**“Moskvada yay. Hamı küçəyə” festivalı çərçivəsində Rusiya paytaxtının “Briqantina” parkında Azərbaycan Mədəniyyəti Günü keçirilib.**

Gün ərzində Rusiya paytaxtının sakinləri və qonaqları incəsənət ustalarımızın çıxışlarına – milli rəqslər və musiqi nömrələrinə, Azərbaycana həsr olunmuş rəsm sərgisinə tamaşa ediblər, həmçinin Azərbaycan yeməkləri və şirniyyatlarının dadına baxıblar.

Moskva Linqvistik Universitetinin rəqs qrupu parlaq nömrələrlə səhnəyə çıxıb, Rəna Qafarlı “Qavalla rəqs” və “Stəkanlarla rəqs”i ifa edib. Andrey Katkov, Aysel Məmmədova və Vasil Məmmədovun ifasında məşhur “Mavi əbədiyyət”, “Mənim şəhərim Bakı”, “Dünyanın ən yaxşı şəhəri”, “Zibeydə” mahnıları səsləndirilib.

Xatırladaq ki, tədbirin təşkilatçısı Moskva vilayəti Azərbaycanlılarının Milli-Mədəni Muxtariyyətidir.

# “Mədəniyyət paytaxtı” film-konsert prizmasında

**Azərbaycan Milli Konservatoriyasında “Bəhram Nəsibov yaradıcılığının təbliği” İctimai Birliyinin Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin maliyyə dəstəyi ilə icra etdiyi “Mədəniyyət paytaxtı” film-konsert layihəsinin təqdimat mərasimi keçirilib.**




Layihənin rəhbəri, İctimai Birliyin sədri Adil Nəsibovun “XQ”-yə verdiyi məlumata görə, təşəbbüs 2024-cü il üçün “İslam dünyasının mədəniyyət paytaxtı” elan edilmiş Şuşa şəhəri ilə bağlı silsilə tədbirlərə töhfə vermək məqsədilə icra olunur. O, təqdimatda bu barədə bilgilər verib. Şuşadakı Yuxarı Gövhər Ağa məscidinin imamı Mirabdullah Həsənli qala-şəhərdə məscidlərin 30 illik işğal dövründə dağıdılması və Vətən müharibəsindən sonrakı bərpa prosesi haqqında danışıb. Azərbaycan Milli Konservatoriyasının professoru, musiqişünas və film-konsertin məsləhətçisi Abbasqulu Nəcəfzadə isə ilk dəfə film-konsertdə səslənən mahnıları təhlil edib. Həmçinin Daxili Qoşunların xüsusi təyinatlısı, Vətən müharibəsi qazisi, “Qarabağ” ordenli kapitan Vüsal Həsənov Vətən müharibəsində ordumuzun göstərdiyi rəşadət haqqında, əczaçı-bioloq Rauf Rəhimov isə insanla təbiətin harmoniyası haqqında fikirlərini bölüşüblər.

Azərbaycan Milli Konservatoriyasının rektoru, Xalq artisti, professor Siyavuş Kərimi mərhum bəstəkar Bəhram Nəsibovun musiqi mədəniyyəti tariximizdəki rolundan söz açıb, onun mahnılarının dillər əzbəri olduğunu söyləyib. Rektor “Mədəniyyət paytaxtı” film-konsert layihəsinin reallaşdırılmasını təqdir edib. Digər çıxışçılar tanınmış sənətkarın həyat və fəaliyyətindən bəhs ediblər.

Daha sonra “Mədəniyyət paytaxtı” film-konsert layihəsinin təqdimatı olub.

Bəhram Nəsibovun bəstələdiyi “Vətən bağı”, “Cıdır düzü”, “İslam dünyası”, “Şuşa qalası” mahnıları ilk dəfə film-konsertdə müğənni-bəstəkar Elnur Nuri tərəfindən səsləndirilib. Mövzu tamaşaçılara audio-vizual vasitələrlə təqdim olunub.

Qeyd edək ki, film-konsertin ssenari müəllifi və montajçısı Adil Nəsibov, rejissoru Cəsarət Hüseynzadə, operatoru Elmir Mirzəzadə, prodüseri Vüsal Əhmədov, redaktoru isə Şəbnəm Tofiqqızıdır.

***XQ***

# Azərbaycanlı sənətçi beynəlxalq festivalda



***Dünyanın ən məşhur sənət adamlarının qatıldığı Marsiak Caz Festivalı bu dəfə də dünyaşöhrətli caz ifaçılarını bir araya gətirib. 46-cı dəfə gerçəkləşən bu festivalda Azərbaycanın Əməkdar artisti Şahin Növrəsli qonaq qismində dəvət alıb.***

Əməkdra artist festivalla bağlı təəssüratlarını bölüşüb.

-Həmişəki kimi, Marsiak Caz Festivalının proqramı zəngindir. Festival çərçivəsində amerikalı caz ustası, pianoçu, bəstəkar və pedaqoq Əhməd Camalın xatirəsinə həsr edilmiş konsertdən öncə, Areta Franklin Kollecinin şagirdləri ilə görüşdüm. Sonra gənc caz ifaçıları üçün ustad dərsləri keçdik. Builki festivalda məşhur pianoçu Əhməd Camalın xatirəsinin anılması, onun vəfatının ildönümünün qeyd edilməsi yaddaqalan anlardan olub. Ruhlandırıcı proqramla zəngin festival mahiyyət etibarı ilə bu dəfə də sərhədləri aşmaqəzmindədir.

Qeyd edək ki, Marsiak Caz Festivalı avqustun 4-dək davam edəcək.

***C.ALIŞLI***

Beynəlxalq həyat

# Demokratların əksəriyyəti Kamala Harrisi dəstəkləyir

**ABŞ Demokratlar Partiyası noyabrın 5-də keçiriləcək seçkilərdə respublikaçı Donald Trampla rəqabət aparacağı ehtimal edilən ölkənin vitse-prezidenti Kamala Harrisin ətrafında sürətlə birləşir. Xanım Harrisin seçki kampaniyası da sürətli başlayıb: Demokratlar Partiyasının 50 ştatın hamısında regional qərargahlarının rəhbərləri və əsas donorların əksəriyyəti artıq öz dəstəyini ifadə ediblər. Bununla yanaşı, siyasi müşahidəçilər deyirlər ki, Kamala Harrisə mane ola biləcək əsas amil Co Baydendən nəzərəçarpacaq ideoloji və siyasi fərqlərin olmamasıdır. Ancaq digər ekspertlər bu amilin vitse-prezidentə maneə yaratmayacağını düşünürlər.**




ABŞ-də prezidentlik uğrunda seçkilər noyabrın 5-də keçiriləcək. Seçki gününə az qalmış bir vaxtda Prezident Co Baydenin yarışdan çıxması demokratları respublikaçılara qarşı yeni namizəd axtarmağa məcbur edir. Sıx vaxt təzyiqi altında qərarlar qəbul etmək məcburiyyətində qalan demokratlar vitse-prezident Kamala Harrisin ətrafında birləşməyə tələsirlər. “Associated Press” agentliyi məlumat verir ki, Kamala Harris prezident seçkilərində rəsmi olaraq namizəd olmaq üçün Demokratlar Partiyasının nümayəndələrindən kifayət qədər səs toplayıb. Agentliyin hesablamasına görə, 2538 nümayəndə Harrisə öz dəstəyini verib. Demokratlar Partiyasının qaydalarına əsasən, namizədliyin təsdiq olunması üçün minimum 1976 səs toplamaq tələb olunur.

Bununla belə, bu rəqəmlər rəsmi və yekun nəticə deyil. Belə ki, yekun nəticələr partiyanın avqustun 19-dan 22-nə qədər Çikaqoda keçiriləcək qurultayında məlum olacaq. Ancaq Kamala Harrisin namizəd olacağına artıq çox az adam şübhə edir. Demokratlar Partiyasının bütün 50 ştatdakı regional qərargahlarının rəhbərləri də Kamala Harrisin namizədliyinin irəli sürülməsinin tərəfdarıdırlar. Dəstək qrupuna qoşulanlar arasında sabiq prezident Bill Klinton və onun həyat yoldaşı Hillari Klinton da var. Demokratlar Partiyasının digər liderləri – Nümayəndələr Palatasının sabiq spikeri Nensi Pelosi və sabiq prezident Barak Obama isə hələlik susurlar.

Amma donorlar artıq öz pulları ilə aktiv şəkildə Kamala Harrisə səs verirlər. Demokratlar üçün ianə platforması olan “ActBlue”dan alınan məlumatlar ibrətamizdir. Co Bayden qərarını Vaşinqton vaxtı ilə saat 13:46-da (Bakı vaxtı ilə 21:46) açıqlamışdı. İlk altı saatda “ActBlue” vasitəsilə 27,5 milyon dollar daxil olmuşdu. Üç saatdan sonra bu rəqəm 55 milyon dollara yüksəldi. Dünən isə ianə məbləğinin 81 milyon dollara çatdığı məlum oldu. Seçki gününə 3 ay müddətin qaldığını nəzərə alsaq, o zaman xanım Harrisin genişmiqyaslı seçki kampaniya keçirməsi üçün yetərincə maliyyə vəsaiti olacağını deyə bilərik.

Böyük donorlara gəlincə, “The Washington Examiner” yazır ki, onlar artıq xəbərdarlıq ediblər: pul xüsusi olaraq Kamala Harrisin kampaniyasına ayrılıb, yəni birdən başqa siyasətçi namizəd olarsa, vəsait geri qaytarılmalıdır. Sponsorlar arasında üstünlük təşkil edən tendensiyanın göstəricisi Soros ailəsi - 93 yaşlı maliyyəçi Corc Soros və oğlu Aleks olub. “Bizim Kamala Harrisin ətrafında birləşmək və Donald Trampı məğlub etmək vaxtıdır. O, mümkün olan ən yaxşı və ən bacarıqlı namizəddir. Yaşasın Amerika arzusu!”,-Aleks Soros X sosial şəbəkəsində yazıb. Bundan əvvəl başqa amerikalı milyarder, Donald Trampın tərəfdarı İlon Mask ABŞ-nin hazırkı vitse-prezidentini Aleks Sorosun “marionetkası” adlandırmışdı.

Başqa bir siyasətçinin Demokratların namizədi olacağına dair heç bir məlumat olmasa da, Kamala Harrisin namizədliyi partiyanın milli qurultayında rəsmən təsdiqlənməlidir. Ancaq CBS telekanalının məlumatına görə, fors-major vəziyyəti nəzərə alaraq, demokratlar qurultayı gözləməyərək, avqustun 1-də xanım Harrisin namizədliyini vaxtından əvvəl təsdiqləyə bilərlər.

***S.ELAY***
***XQ***

# Qərbdə kibercinayət şəbəkəsi genişlənir

**Son illər Avropa İttifaqında (Aİ) mütəşəkkil cinayətkarlığın səviyyəsi artıb. Fırıldaqçılar ən yeni texnologiyalardan istifadə edirlər. Bu barədə Aİ-nin polis xidməti məlumat verib. Məlumatda göstərilir ki, ən çox yayılmış qanun pozuntuları investisiyalar, işgüzar e-poçt yazışmaları və “romantik fırıldaqlar”la bağlıdır.**



Maraqıdır ki, cinayətkarlar süni intellektə əsaslanan alətlərdən getdikcə daha çox istifadə edirlər: “Hazırda cəmiyyət səviyyəsində vətəndaşlara vacib xidmətlər demək olar ki, rəqəmsallaşdırılıb və bu istiqamətdə işlər sürətləndirilmiş rejimdə davam etdirilir. Bununla bərabər bazara daxil olan kibercinayətkarların sayı, həm giriş maneələrini azaldan yeni texnologiyalar, həm də hücumun potensial imkanlarını genişləndirən rəqəmsal infrastrukturlar təkmilləşir. Onlardan insanların nüfuzuna xələl gətirmək, fiziki və ya mental zərər yetirmək, yaxud hansısa fayda qazanmaq, pul əldə etmək, nifrət məzmunlu mətnləri və terrorizmi yaymaq və s. niyyətlərlə istifadə edilir”.

Bu kiberhücumlardan biri internetdə xüsusi proqramlar vasitəsilə, əslində, mövcud olmayan kriptovalyuta yaradaraq guya onun beynəlxalq valyuta bazarında satışını təşkil etməklə, şişirdilmiş yüksək mənfəət vəd edərək vətəndaşların vəsaitlərini fırıldaqçılıq yolu ilə mənimsək idi. Beləliklə, həmin fırıldaqçılar qurduqları şəbəkə biznesinə çox sayda vətəndaşı piramida formasında cəlb edərək onlara saxta kriptovalyuta satıblar. Nəticədə cinayətkarlar müxtəlif qurbanlardan yüz minlərlə dollar alıblar.

“Emotet” adlı troyan (belə viruslar sistemə daxil edildikdən sonra tədricən onu ələ keçirir) ən çox istifadə edilən kiberhücumlardan biridir. Geniş yayılmış “fişinq” senariləri ödəniş kartı nömrələrinin, internet bankçılığında “login” (sistemə giriş) detalları, sosial media və elektron poçt ünvanı məlumatlarının ələ keçirilməsinə əsaslanır. Kibercinayətkarlar bu məqsədlərin reallaşdırılması üçün saxta “SMS” və “Votsap” (WhatsApp) mesajları, həmçinin “nüfuzlu qurumlar”dan daxil olan zənglərdən istifadə edirlər. Bu kimi aldatma üsulları isə kifayət qədər çoxdur.

Yuxarıda qeyd etdiyimiz araşdırmada kibercinayətlərin ən əhəmiyyətli mənbələri qiymətləndirilib və tarixdə ilk dəfə Ümumdünya Kibercinayətkarlıq İndeksinə (WCI, World Cybercrime Index) uyğun olaraq dövlətlərin reytinqi tərtib edilib. Nəticədə, “birinci yer”də olan Rusiya 58,39, Ukrayna 36,44, Çin 27,86, ABŞ 25,01, Nigeriya isə 21,28 bal toplayıb. Qlobal kibercinayətkarlığın ilk onluğuna Rumıniya (14,83 bal), Şimali Koreya (10,61 bal), Böyük Britaniya (9,01 bal), Braziliya (8,93 bal) və Hindistan (6,13 bal) də daxil olub.

Xatırladaq ki, Aİ-nin ən təhlükəli cinayətkar qruplarının ortaq biznes modeli ümumidir. Cinayətkarlar pul oğurlamaq və ya qoparmaq üçün tabeçiliyində olanlara xüsusi viruslar “ötürürlər”. Onlar sonra “danışıqlar” aparır və bu viruslardan təsir vasitəsi kimi istifadə edirlər. Çox vaxt da istədiklərini qarşı tərəfdən alırlar.

Məlumatda, həmçinin Aİ-də aşkar edilmiş 821 cinayətkar qrup haqqında məlumat verilir. Bu qrupların hamısı qitə ölkələri üçün təhlükə yaradir. Onların ümumi sayları isə 25 min nəfəri ötür. Cinayətkarlar narkotik vasitələrin qanunsuz dövriyyəsi, dələduzluq, qeyri-qanuni miqrasiya, insan alveri ilə məşğuldurlar.

***Pünhan ƏFƏNDİYEV***
***XQ***

Günün problemi

# Qəlyan aludəçiliyi ağır fəsadlar törədir

**Hazırda, xüsusən gənclər arasında dəbdə olan ən zərərli vərdişlərdən biri də qəlyan çəkməkdir. Bu yaxınlarda sosial şəbəkədə bir məkanın xanımlar üçün hazırlanmış reklamı diqqətimi çəkdi. Video-çarxda “Beer Tikə” adlı məkana gəlib sifariş verən xanımlar üçün ən yaxşı qəlyan və içkinin hədiyyə olaraq təqdim ediləcəyi vəd edilirdi: “Gəlin, həm əylənəcəksiniz, həm istirahət edəcəksiniz. Ən yaxşı qəlyan bizim məkanda! Bu ayın sonuna kimi xanımlar üçün inanılmaz təklif! Qəlyan və kokteyl hədiyyə!”**



Doğrusu, qadınların qəlyandan istifadə etdiklərini bilmirdim. Böyük Vətən müharibəsindən sonra həyat yoldaşlarını itirən yaşlı qadınların tütünü kağıza büküb çəkdiklərini çox eşitmişdim. Qonşu Türkiyədə siqaret çəkməyin də adətə çevrildiyindən xəbərimiz var. Amma bizim ölkədə ara-sıra siqaret tüstülədən qadınlara rast gəlsək də, ondan istifadə geniş yayılmayıb. Qəlyan isə...

Reklam çarxına təkrar baxdım. Bəli, məkana qəlyan çəkən qadınlar dəvət olunurdu. Qəlyanın orqanizmə zərərli təsiri, yaratdığı xəstəliklər, törətdiyi fəsadlarla bağlı mütəxəssis fikrinə ehtiyac duyduq.

**Azərbaycan Tibb Universitetinin farmakologiya kafedrasının müdiri, tibb elmləri doktoru, professor Musa Qəniyevə yenidən müraciət etdik. Musa müəllim qəzetimizlə sıx əlaqədə olan elm adamıdır. Zərərli vərdişlərlə bağlı ondan xeyli müsahibələr almışıq. O, çoxlarının bildiyi, lakin etiraf etmədiyi məsələləri çəkinmədən daim bizimlə bölüşür. Ondan öncə qəlyan və onun orqanizmə təsiri ilə bağlı məlumat verməsini xahiş etdik. Professor dedi:**

– Qəlyanın ilk vətəni Hindistan olsa da, sonradan bu, Şərq xalqları üçün tütün çəkmə alətinə çevrilmişdir. Qəlyana xas olan spesifiklik odur ki, tüstü sudan keçərək sərinləşir və guya tam təmizləndiyi ehtimal olunur. Düzdür, qəlyan çəkərkən tüstünün keçdiyi maye bərk hissəciklərin təqribən 50 faizini, eləcə də fenol, akrolein, asetaldehid və sair kimi zəhərli birləşmələrin də müəyyən faizini tutur. Lakin xrom, arsen, kotinin, qurğuşun və digər toksiki birləşmələr bu baryeri 100 faiz dəqiqliklə keçir. Qəlyan tüstüsünün tərkibində olan dəm qazının konsentrasiyası isə siqaret tüstüsündən 2–3 dəfə çox olur.

**– Deməli, qəlyan tüstüsü siqaretdən fərqli olsa da daha zərərlidir?**

– Əlbəttə. Elmə məlumdur ki, siqaret tüstüsünün tərkibində nikotinlə bərabər 4 min 720-yə qədər zəhərli və güclü toksiki təsirə malik maddə vardır. Qəlyan tüstüsünün tərkibində bu nisbət az olsa da, insan 1 saat qəlyan çəkərsə, ən tünd siqaretlə müqayisədə belə, ağ ciyərlərə kəmiyyətcə 100–200 dəfə artıq miqdarda zəhərləyici və kanserogen maddə, eləcə də dəm qazı daxil olur. Bu isə, qəlyan tüstüsünün siqaretlə müqayisədə insan orqanizmi üçün daha zərərli və təhlükəli olduğunu təsdiq edir. Bir qəlyan “porsiyası”nın çəkilməsi adətən 15 dəqiqədən 90 dəqiqəyə qədər davam edir. Bu halda orqanizmə daxil olan zərərli maddələrin faiz nisbəti (o cümlədən passiv qəlyan çəkənlər üçün) təqribən 20 ədəd siqaretin çəkilməsinə mütənasibdir. Bir çox elmi mənbələrdə 1 qəlyanın orqanizmə zərəri, hətta 100 ədəd siqaretə bərabər hesab edilir.

**– Qəlyandan istifadə siqaret, alkoqol kimi asılılıq yaradırmı?**

– Bəzi insanlar qəlyanın siqaretdən fərqli olaraq asılılıq törətmədiyini söyləyirlər. Tamamilə səhv fikirdir və bu zərərli adətin marketinq maraqlarına xidmət etdiyini əminliklə deyirəm. Çünki qəlyanın tərkibində də nikotin və digər potensial psixoaktiv maddələr vardır. Temperatur fərqliliyi baxımından sudan keçirilərək soyudulmuş bu tərkib, nikotinə həssas və digər subhüceyrəvi strukturlara qarşı daha yüksək affinlik (anticismin antigenlə qarşılıqlı təsir qüvvəsi) göstərərək onlara bağlanır. Nəticədə, qəlyana qarşı asılılığın yaranması, heç də adi siqaret və ya papirosdan geri qalmır, hətta sonuncuları üstələyir.

**– Bəzi xanımlar qəlyandan istifadəni ultra-müasirlik hesab edirlər.**

– Tərkibində dəm qazının yüksək kəmiyyət nisbətinə görə, qəlyan tüstüsünün hər dəfə ciyərlərə alınması, hüceyrələrin oksigen aclığını kəskin şəkildə artırır. Dəm qazı baş



beyin, xüsusən neokorteksə (beyinin müəyyən parçası) yüksək tropluq (infeksiya təsiri) göstərdiyindən, daimi baş ağrısına, hətta şüurun qaranlıqlaşması və itməsinə, dövri və uzunmüddətli qəbulda isə, insanın psixi sağlamlığında çətin korreksiya olunan ciddi problemlərə səbəb ola bilər. Qəlyan tüstüsünün ağır onkoloji xəstəliklərə, eləcə də ağ ciyər və ürək-damar sisteminin çox müxtəlif və çətin sağalan patologiyalara səbəb olması da öz təsdiqini tapmış həqiqətdir. Xanımların qəlyana meyil etməsi isə çox acınacaqlı haldır. Bunu insanın özü-özünü oda atması ilə müqayisə etmək olar. Qadın anadır, uşaq bəsləyir, böyüdür. Onun qəlyandan istifadəsi nəinki özünə, hətta ailə üzvlərinə də təsirsiz ötüşməz.

**– Professor, qəlyan hansı xəstəliklərə təkan verir?**

–Qəlyan, ondan mütəmadi istifadə edənlərdə ağciyər xərçəngini 2 dəfə, ürək-damar xəstəliklərini 2,2 dəfə, respirator xəstəlikləri 2,3 dəfə, alveoliti 3,7 dəfə, osteoparoz və ağız boşluğu xəstəliklərini 3–5 dəfə, qırtlaq, sidik kisəsi xərçəngini, eləcə də Hepatit C və vərəm xəstəliyinin törənmə riskini də nəzərəçarpacaq faiz nisbətində, kişi sonsuzluğunu isə 2,5 dəfə artırır.

Qəlyan çəkənlərin yuxarı tənəffüs yolu selikli qişasında protein, albumin, qlobulinin miqdarı statistik olaraq artır ki, bu da həmin nahiyyənin çox ciddi gizli iltihablanmasından xəbər verir. Paralel olaraq bronx ağacında, hətta siqaret çəkənlərlə müqayisədə belə, neytrofillərin kəskin artımı, ağ ciyər toxumasında destruktiv dəyişikliklərin baş verdiyini təsdiq edir.

**– Gənclərə, ümumiyyətlə, qəlyan aludəçilərinə tövsiyələrniz...**

– Tövsiyəm odur ki, zərərli vərdişlərə meyl etməsinlər. Bu sətirləri oxuyan gənclərimiz, bu zərərli aludəçiliyə son qoysunlar və sağlamlıqlarına qovuşsunlar. Qadınlar öz xanımlıqlarına hörmət etsinlər, dəyərlərini bilsinlər.

***Müsahibəni aldı:***
***Zərifə BƏŞİRQIZI***
***XQ***


## “ALMET” ASC-nin 2023-cü il üçün mühasibat balansı

*manatla*

| | 01.01.2023 | 01.01.2024 |
|---|---|---|
| Əsas vəsaitlər | 417045,68 | 349741,41 |
| İstehsal ehtiyatları | 194861,69 | 200738,85 |
| Debitorlar | 72856.01 | 69447,11 |
| Pul vəsaitləri | 473.37 | 1126,21 |
| Balans aktivləri | 836973,00 | 786665,10 |
| Nizamnamə kapitalı | 314454,00 | 314454,00 |
| Kapital ehtiyatları | - | - |
| Kreditorlar | 522519,00 | 472211,10 |
| Balans passivləri | 836973,00 | 786665,10 |
| Məhsulların satışından mədaxil | 52674,12 | 213084,91 |
| ƏDV | 8035,13 | 32504,47 |
| Satılmış məhsulların istehsal məsrəfləri | 34913,26 | 165365,96 |
| Mənfəət | 9726,33 | 15214,47 |
| Əmlak vergisi | 4293,79 | 3833,94 |
| Mənfəət | 5432,54 | 11380,53 |

## “Nəsimi Məişət Malları” ASC-nin 2023-cü il üçün mühasibat balansı

*manatla*

| | 01.01.2023 | 01.01.2024 |
|---|---|---|
| Əsas vəsaitlər | 79380,77 | 73824,12 |
| İstehsal ehtiyatları | - | - |
| Debitorlar | - | - |
| Pul vəsaitləri | 7127,36 | 16337,37 |
| Balans aktivləri | 19444,11 | 94699,66 |
| Nizamnamə kapitalı | 85582,00 | 85582,00 |
| Kapital ehtiyatları | 1627,88 | 2623,80 |
| Kreditorlar | 18742,36 | 6493,86 |
| Balans passivləri | 105952,24 | 94699,66 |
| Məhsulların satışından mədaxil | 10599,99 | 47297,94 |
| ƏDV | 1616,95 | 7214,94 |
| Satılmış məhsulların istehsal məsrəfləri | 6129,72 | 13771,50 |
| Mənfəət | 2853,32 | 26311,55 |
| Əmlak vergisi | 813,91 | 766,02 |
| Mənfəət | 2039,41 | 25545,48 |

## “Şüşəplastmas” ASC-nin 2023-cü il üçün mühasibat balansı

*manatla*

| | 01.01.2023 | 01.01.2024 |
|---|---|---|
| Əsas vəsaitlər | 683960,56 | 629330,36 |
| İstehsal ehtiyatları | 116653,07 | 118666,11 |
| Debitorlar | 10661,49 | 13906,59 |
| Pul vəsaitləri | 17298,22 | 18226,35 |
| Balans aktivləri | 846792,55 | 780129,41 |
| Nizamnamə kapitalı | 297348 | 297348,00 |
| Kapital ehtiyatları | 388251,65 | 373212,38 |
| Kreditorlar | 161192,9 | 89261,68 |
| Balans passivləri | 846792,55 | 780129,41 |
| Məhsulların satışından mədaxil | 148252,7 | 348581,79 |
| ƏDV | 26685,49 | 53173,49 |
| Satılmış məhsulların istehsal məsrəfləri | 159632,31 | 264523,97 |
| Mənfəət | -11379,61 | 30884,33 |
| Əmlak vergisi | 6839,61 | 6581,12 |
| Mənfəət | -18219,22 | 24303,21 |

## Ləğvetmə prosesində olan “Bakı Tikinti Konstruksiyaları” ASC səhmdarlarının nəzərinə!

10 sentyabr 2024-cü il saat 10.00-da “Bakı Tikinti Konstruksiyaları” ASC səhmdarlarının növbəti ümumi yığıncağı keçiriləcəkdir.

Ümumi yığıncağın gündəliyi:

1. 2023-cü ilin maliyyə hesabatının təsdiq edilməsi.
2. Cəmiyyətin ləğvetmə balansının təsdiq edilməsi.
3. Cəmiyyətin qalıq əmlakının səhmdarlar arasında bölünməsi planını əks etdirən hesabatın təsdiq edilməsi.
4. Cəmiyyətə məxsus səhmlərin ləğv edilməsi və dövriyyədən çıxarılması.
5. Digər məsələlər.

Səhmdarlar gündəlikdəki məsələlərə aid sənədlərlə tanış olmaq üçün hər həftənin I-V-günləri saat 10.00-dan 13.00-dək cəmiyyətin ləğvetmə komissiyasının rəhbərinə müraciət edə bilərlər.

Əlaqə telefonu– 050-247-50-12.

Ünvan– Bakı şəhəri, Nərimanov rayonu, Dərnəgül zonası, 507-ci küçə, 2096-cı məhəllə.

***Ləğvetmə komissiyası***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 154 (30558) 24 iyul 2024-cü il, çərşənbə


# OXUCULARIN NƏZƏRİNƏ!

## “Xalq qəzeti”

*2024-cü il üçün abunə yazılışı kampaniyasını davam etdirir!*

Abunə respublikanın bütün poçt şöbələri və mətbuat yayımı ilə məşğul olan firmalar tərəfindən aparılır.

Qəzetə abunə yazılmaq üçün aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət etmək olar.

1. “Azərmətbuatyayımı” ASC (012)-440-16-26.
2. “Azərpoçt” MMC (012)-598-49-55, (051)-225-02-13.
3. “Qaya” firması (012)-566-77-80, (050)-214-40-53.
4. “SƏMA-M” MMC (012)-594-02-52, (050)-333-69-69.
5. “ZİYA” LTD (012)-497-76-96, (050)-306-77-44.
6. “PRESSİNFORM” MMC (012)-598-49-52, (050)-456-08-35.




1 illik – 187.20 (yüz səksən yeddi manat iyirmi qəpik) manat.
6 aylıq – 93.60 (doxsan üç manat altmış qəpik) manat.
3 aylıq – 46.80 (qırx altı manat iyirmi qəpik) manat.

Hörmətli abunəçilər!
*Abunə yazılışı ilə əlaqədar hər hansı bir problemlə rastlaşsanız, (012)-498-85-29 nömrəli telefonla əlaqə saxlaya bilərsiniz.*

**Hörmətli oxucular!**
**ABUNƏ YAZILMAĞA TƏLƏSİN!**


# “Qarabağ” yeni mövsümə qələbə ilə başladı

**Dünən Çempionlar Liqasında 2-ci təsnifat mərhələsinə start verilib. Azərbaycan çempionu “Qarabağ” komandası da yeni mövsümdə ilk rəsmi matçına çıxıb.**



Qurban Qurbanovun çalışdırdığı Ağdam təmsilçisi qitənin ən nüfuzlu klub turnirinin yeni mövsümündəki ilk sınağında Cəbəllüttariq çempionu “Linkoln”un qonağı olub. Oyun 2:0 hesabı ilə “Qarabağ”ım xeyrinə başa çatıb.

Xatırladaq ki, “Qarabağ” ÇL-in ötən mövsümündə də bu komanda ilə üz-üzə gəlmişdi. Səfərdə “Linkoln” komandasına 2:1, evdə isə 4:0 hesabıyla qalib gələn Ağdam təmsilçisi mərhələ adlamışdı.

Bu komandalar arasında cavab oyunu iyulun 30-da Tofiq Bəhramov adına Respublika stadionunda keçiriləcək. Bu cütün qalibi ÇL-in 3-cü təsnifat mərhələsində “Lüdoqorets” (Bolqarıstan) – “Dinamo” (Minsk, Belarus) cütünün güclüsü ilə üz-üzə gələcək.

***XQ***

SAĞLAMLIQ

# İyul ayında hansı meyvələri yeməli?



**İyul ayında piştaxtaları bəzəyən meyvə və giləmeyvələr əsasən tərkibindəki C vitamini və antioksidantlara görə faydalıdır. Qastroenteroloqlar bu ayda bəzi meyvələrin immunitetə faydalı təsir göstərdiyini deyirlər.**

Moruqda ürəyin fəaliyyətini dəstəkləyən və sinir sistemini gücləndirən B vitamini var. Həmçinin polifenollar və fitonsidlər baxımından da moruq olduqca zəngindir. Bunlar hüceyrələri zədələnmədən qoruyan və iltihabı azaltmağa kömək edən antioksidantlardır. Moruq, həm də soyuqdəymə üçün əsas vasitə hesab edilir.

Böyürtkən isə dəriyə və gözə faydalı olan A və E vitaminləri ilə zəngindir. O, həmçinin kalsiumun və D vitamininin mənimsənilməsinə, böyrək və ürək-damar sisteminin işinə kömək edən K vitamininin gündəlik tələbatının 30 faizini ödəyir.

Qaragilə gözlər üçün faydalı olan giləmeyvə kimi tanınır. Tərkibində antioksidant və qan damarlarını daha elastik edən və onları zədələrdən qoruyan P vitamini var.

Qara qarağat bol A, E, P, B vitaminləri və limondan dörd dəfə çox askorbin turşusu ilə zəngindir.

Sarı böyürtkəndə A, E, və B vitaminləri, həmçinin kalsium, dəmir, fosfor və maqnezium var. Bu minerallar hematopoetik sistem və orqanizmdə hüceyrələrin inkişafı üçün faydalıdır.

Gilasda vitaminlərlə yanaşı sink, yod, mis və xrom, həmçinin qan laxtalanma riskini azaldan kumarin maddəsi çoxdur.

Mütəxəssislər mədə xorası, qastrit, xroniki pankreatit, bağırsaqlarda iltihab, mədənin yüksək turşuluğu zamanı yay giləmeyvələrini ehtiyatla qəbul etməyi məsləhət görürlər.

***Z.HÜSEYNLİ***
***XQ***

# Gənc pəhləvanın arzusu – Olimpiadada qızıl medal

**Paris Yay Olimpiya Oyunlarında mübarizə aparacaq Azərbaycanın gənc pəhləvanlarından biri Turan Bayramovun adı dünya güləş ictimaiyyətinə yaxşı tanışdır. 23 yaşlı idmançı karyerasının ən parlaq nailiyyətlərini 2017-ci ildən qazanmağa başlayıb. 2018-ci ildə yeniyetmələr arasında həm Avropa, həm dünya, həm də Olimpiya çempionu olub.**



Gəncə məktəbinin yetirməsi 1 il sonra gənclərdə Avropa çempionu və dünya 3-cüsü olub. Həmin ildə ən böyük qələbəsini – 23 yaşadək güləşçilər arasında dünya çempionu titulunu qazanıb. 2021-ci ilin ilk aylarında 65 kiloqram çəkidə güləşsə də, sonra 70 kiloqram çəki dərəcəsində böyüklər arasında Avropa 2-cisi olub ki, bu da onun kişilərin yarışında ilk uğuru idi. Turan daha sonra güclü rəqabətin olduğu 74 kiloqram çəki dərəcəsinə keçib. Həmin çəkidə böyüklər arasında 2022-ci ildə Avropa çempionatında bürünc medal qazanıb. Reytinq turnirlərində gümüş və qızıl medal əldə edib. Dünya çempionatında 74 kiloqram çəki dərəcəsində medal qazanmasa da, rəqiblərini tanıyıb.

Turan Bayramovun şəxsi məşqçisi Abil İbrahimov qəzetimizə açıqlamasında yetirməsinin böyük potensiala malik olduğunu bildirdi:

–Turanla məndən əvvəl atası məşğul olub. Onu mənim yanıma gətirəndə 12 yaşı var idi. Artıq müəyyən qədər bu idman növünün sirlərinə yiyələnmişdi. İlk məşqlərdən çalışqanlığı ilə diqqəti cəlb edirdi. Yeniyetmələr və gənclər arasında böyük nailiyyətlər əldə edib. Tokio Olimpiadasında iştirak edəndə 20 yaşı var idi. Yarışa 1 aydan az vaxtın qaldığı bir zamanda, həmin çəkidəki idmançı zədələndiyi üçün Tokioya o getməli olub. Çoxları bir mərhələni belə keçə bilməyəcəyini düşünsə də, Turan çox gözəl güləş nümayiş etdirdi. İlk mərhələdə Ukraynanın titullu güləşçisini məğlub etdi. 1/4 finalda rəqibi Rio-de-Janeyro Olimpiadasının bürünc medalçısı, İtaliya idmançısı Fran Çamizoya uduzmağında hakim ədalətsizliyinin də rolu oldu. Amma bu il həmin idmançı Bakıda keçirilən Avropa Olimpiya Təsnifat Turnirinin yarımfinalında Turan Bayramova məğlub oldu. Turan məhz həmin qarşılaşmanın qalibi kimi, Paris Olimpiadasına lisenziya qazandı.

Qeyd edək ki, Turan güləşdiyi 65 kiloqram çəkidən sonra 70 kiloqrama keçib. Düzdür, o həmin çəkidə dünya və Avropa çempionu ola bilərdi. Amma o, rəqabətin daha güclü olduğu 74 kiloqramda güləşməyə üstünlük verib. Çünki əsas məqsədi olimpiadada iştirak edib yaxşı nəticə qazanmaq idi.

Turan bütün çətinlikləri keçərək bu çəkiyə uyğunlaşıb. O, hazırda bu çəkidə güclü güləşçilərdən biridir.

Məşqçisi Turanın bu olimpiadada iddialarının böyük olduğunu bildirdi:

–Turan öz rəqiblərini tanıyır. Prinsipial rəqiblərindən biri Fran Çamizodur. İtaliyalı karyerasının son yarışında iştirak edəcək. Onlar bu dəfə də görüşsələr, qarşılaşma həlledici olacaq. Turan rəqibləri ilə bərabər şəkildə mübarizə aparmağa qadirdir.

***Leyla QURBANOVA***
***XQ***

Mədəniyyət

# Vaqif Mustafazadənin yeni lent yazısı tapılıb

**Azərbaycan caz sənətinin əfsanəsi, caz-muğam janrının yaradıcısı, Əməkdar artist Vaqif Mustafazadənin bu günə kimi bəlli olmayan lent yazısı üzə çıxarılıb.**



Bu barədə Rəşid Behbudov Fondunun direktoru Kamil Şahverdi öz sosial şəbəkə hesabında məlumat verib. Bildirilir ki, lent yazısı müğənni, caz musiqisi bilicisi Tofiq Həsənsoy tərəfindən aşkar olunub. 1979-cu ildə Vaqif Mustafazadənin son konsertlərindən birində ifa olunan bu əsər Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyası Bəstəkarlıq kafedrasının müdiri professor Aydın Əzim Kərimoğluya məxsusdur.

“Aydın K.Azim mövzusunda fantaziya” adlı əsəri V.Mustafazadə və dostları gitarada Ələsgər Abbasov (Türkiyədə yaşayır), zərb alətində Pərviz Ədib (Almaniyada yaşayır) və bas-gitarada Nazim Quliyev ifa edirlər.

Kamil Şahverdi paylaşımında yazıb: “... 45 il bundan əvvəl ifa olunan şedevr fantaziyanı ilk dəfə sizə təqdim etməkdən qürur duyuram. Bu lent yazısının üzə çıxması üçün dəyərli dostumuz, caz musiqisinin mahir bilicisi və təbliğatçısı Tofiq Həsənsoya təşəkkürlər!”

***AYTƏN***
***XQ***

# Con Millenin “Ofeliya”sı

**Dünya şöhrətli rəssam Con Everett Millen 1829-cu ildə İngiltərədə kübar ailədə doğulub. O, hələ 11 yaşında “Kral Akademiyası Məktəbləri”nə (“Royal Academy Schools”) daxil olub, 19 yaşında Uilyam Holman Hant və Dante Qabriel Rossetti ilə birlikdə “Prerafaelit qardaşlığı” üslubunu sənət dünyasına gətirib.**



Rəssamın gözoxşayan əsərlərindən biri də dahi ingilis dramaturqu Vilyam Şekspirin eyni adlı əsərinə çəkilmiş “Ofeliya” tablosudur. Mille bu əsəri 1851-1852-ci illər ərzində ərsəyə gətirib.

Əsərdə Ofeliya obrazını 19 yaşlı Elizabet Siddal canlandırırdı. Siddal elə də gözəl qadın hesab edilmirdi, amma onun çöhrəsində qeyri-adi bir məsumluq vardı.

Bu tabloda üstünlük təşkil edən rəng yaşıldır. Bu rəng təbiətin canlılığının simvoludur. Yerdəki mamırların açıq-tünd yaşıl rəngdə verilməsi ilə qızın üzünün solğun təsvirinin vəhdəti Millenin sənətkarlığından xəbər verir. Həmçinin rəsmdə qırmızı, mavi və sarı kimi canlı, “isti rəng”lərdən də istifadə olunub.

Çayın kənarında müxtəlif bitkilər, çiçəklər, həşəratlar və heyvanlar var ki, bunların hər biri Ofeliyanın əhval-ruhiyyəsini əks etdirir. Şekspirin yaratdığı bu əsərdə hər bir çiçəyin öz mənası var. “Bu, qərənfildir, xatirə çiçəyidir. Xahiş edirəm, sevgilim, al, məni xatırla... Bu isə yasəməndir, yaddaş çiçəyidir, məni yaddan çıxarma...”

Kətan üzərində yağlı boya ilə işlənmiş bu tablo hazırda Londonda, “Tate Britain” qalereyasında saxlanılır.

***Leyla HADİ,***
***tələbə-jurnalist***

Hava



# Dağlarda duman və yağıntı

***Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən, iyulun 24-də Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin axşama doğru bəzi yerlərdə arabir yağış yağacağı, şimşək çaxacağı, gecəyə doğru yarımadanın bəzi yerlərində intensivləşəcəyi ehtimalı var. Mülayim cənub-qərb küləyi əsəcək, gündüz şimal-qərb küləyi ilə əvəz olunacaq. Gecə 21-26°, gündüz 30-35° isti olacaq.***

Atmosfer təzyiqi normadan aşağı 751 mm civə sütunu, nisbi rütubət 60-70 faiz olacaq. Abşeron çimərliklərində gözlənilən dəniz suyunun temperaturu: Şimal çimərliklərində: (Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəh, Zaqulba) 26-27° isti, Cənub çimərliklərində: (Türkan, Hövsan, Sahil, Şıx) 27-28° isti olacaq. Azərbaycanın rayonlarında dağlıq ərazilərdən başlayaraq bəzi yerlərdə arabir yağış yağacağı, şimşək çaxacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli intensiv olacağı, dolu düşəcəyi ehtimalı var. Gecə və səhər bəzi yerlərdə zəif duman olacaq. Mülayim şərq küləyi əsəcək, gündüz bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 21-26°, gündüz 33-38°, dağlarda gecə 14-19°, gündüz 20-25° isti olacaq.

***Q.QASIMOV***
***XQ***

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29
Məsul katib: 493-61-02 E-mail: xalqqazeti@gmail.com
Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az
+994(51) 280-16-44

“Xalq qəzeti”nin kompüter mərkəzində yığılıb və səhifələnib, “Azərbaycan” nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3168
SİFARİŞ 1628
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Səbuhi MƏMMƏDOV
Çapa imzalanmışdır 00:00